Hər kəs ədalətli olacaq
ƏDALƏT

## Əminə Ərdoğan Mehriban Əliyevaya təşəkkür etdi



**"Hörmətli Mehriban, başsağlığı mesajınıza və dərdimizi bölüşdüyünüzə görə çox sağ olun".**

Adalet.az-ın məlumatına görə, bu fikir Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın xanımı Əminə Ərdoğanın Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya zəlzələdəki çoxsaylı insan tələfatı ilə bağlı başsağlığına görə təşəkkür paylaşımında yer alıb.

Paylaşımda daha sonra deyilir:

"Çətin vaxtımızda ilk köməyə gələnlərdən biri də Can Azərbaycan olub. Dəstəyiniz üçün təşəkkür edirik. Dostlarımızın bizimlə olduğunu bilmək çox xoşdur".

## Ərdoğan Heydər Əliyev Fondunun nümayəndələri ilə görüşdü




**Zəlzələ bölgəsinə səfər edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Qaziantep hava limanında Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın göstərişi əsasında qardaş ölkəyə humanitar yardım aparan Fond əməkdaşları ilə görüşüb.**

Adalet.az xəbər verir ki, baş vermiş faciə ilə əlaqədar Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın başsağlığını çatdıran Fondun nümayəndəsi Elvin Aslanov bu günlərdə Azərbaycan xalqının, ölkənin bütün təşkilatlarının qardaş ölkə üçün zəruri yardımların göstərilməsi naminə səfərbər olduğunu bildirib.

Azərbaycan dövləti və xalqının Türkiyədəki faciə ətrafında səfərbər olmasına görə təşəkkür edən Rəcəb Tayyib Ərdoğan bildirib: "İlham qardaşıma, Mehriban bacıma öz adımdam, millətim adımdan çox təşəkkür edirəm!"

Azərbaycanda xalqın zəlzələ qurbanları üçün humanitar yardıma qoşulmasından, göndəriləcək yardımlar barədə məlumatlı olduğunu deyən Rəcəb Tayyib Ərdoğan Vətən müharibəsi zamanı Türkiyənin Azərbaycanın yanında olduğu kimi, indi də belə çətin gündə Azərbaycanın Türkiyənin yanında olduğunu qeyd edib: "Öz adımdam, ailəm və xalqımız adından minnətdarlıqlarımı çatdırıram. Biz tək bu gün deyil, ölənədək birlikdə olacağıq. Bir millət, iki dövlət olaraq yola davam edəcəyik!"

## Media Reyestri "Elektron hökumət" portalına qoşulacaq




**"Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının siyahısına dəyişiklik edilib.**

Adalet.az xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov müvafiq qərar imzalayıb.

Qərara əsasən, "Media Reyestri" informasiya ehtiyatı "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının siyahısına daxil edilib.

## Prokurorluq hərbi cinayətlərlə bağlı məlumat yaydı

**Ötən ay Azərbaycanda hərbi xidmət əleyhinə cinayətlər 51,1 faiz azalıb.**

Adalet.az xəbər verir ki, bu barədə Hərbi Prokurorluğun Mətbuat xidmətindən bildirilib. Məlumata görə, Hərbi Prokurorluqda qeydə alınmış cinayətlərin 100 faizinin üstü açılıb.

Bildirilib ki, görülmüş işlərin, eləcə də Hərbi Prokurorluq orqanları ilə Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar və digər hərbi qurumlar arasında yaranmış qarşılıqlı sağlam və işgüzar əlaqələrin, həmçinin birgə görülmüş tədbirlər nəticəsində ötən ilin yanvar ayı ilə müqayisədə 2023-cü ilin müvafiq dövründə qeydə alınmış cinayətlər ümumilikdə 22,2 faiz, o cümlədən hərbi xidmət əleyhinə olan cinayətlər 51,1 faiz, tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma cinayətləri 33,3 faiz və ölümlə nəticələnən özünü öldürmə həddinə çatdırma cinayətləri 33,3 faiz azalıb.

## Kərim Vəliyev hərbi hissələrin xidməti-döyüş fəaliyyətini yoxladı



**Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev bir neçə hərbi hissədə xidməti-döyüş fəaliyyətini, qoşun xidməti və döyüş növbətçiliyinin təşkilini yoxlayıb.**

Bu barədə Müdafiə Nazirliyinin Mətbuat Xidməti məlumat yayıb.

Bildirilib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində hərbi hissələrin döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanılması üçün burada bütün zəruri infrastruktur yaradılıb.

Döyüş mövqelərində olan Baş Qərargah rəisinə əməliyyat şəraiti məruzə olunub.

**Qeyd edilib ki, Qarabağ iqtisadi rayonunda döyüş növbətçiliyi müasir texniki avadanlıqla təchiz olunmuş növbətçi qüvvə və vasitələrlə aparılır, qarşı tərəf fasiləsiz müşahidə edilir. Baş Qərargah rəisi döyüş növbətçiliyinin daha keyfiyyətli təşkili və aparılması ilə bağlı komandanlıq qarşısında müvafiq tapşırıqlar qoyub.**

## DEYƏSƏN, TANRI MÜSƏLMANLARDAN ÜZ DÖNDƏRİB



**Bir yandan ABŞ, bir yandan NATO ölkələri, bir yandan Avropa və indi də bir yandan Tanrı... İranda zəlzələ, Suriyada zəlzələ, Türkiyədə zəlzələ. Özü də çox qəribədir ki, bu zəlzələ türklərin yaşadığı ərazidə baş tutur.**

Bizdən Tanrımı üz döndərdi, yoxsa bu zəlzələləri qüdrətli dövlətlərin alimləri törədir?

Tanrı bizdən üz döndərib, ümid Allaha qalıb.

Allah zəlzələdə ölənlərin hamısına rəhmət eləsin, yaralılara şəfa versin və yerdə qalanlara rəhm eləsin.

Bu bir xalq qəzetidi

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 6 (5999) 11 fevral 2023-cü il | Qiyməti 40 qəpik

# "Uca Tanrıdan Türkiyə xalqına güc və səbr diləyirəm"



Bax:səh-2

## BÜTÜN UKRAYNANI AĞDAMIN GÜNÜNƏ SALMAYANACAN



**NATO əl çəkməyəcək. Sonra müharibə NATO dövlətlərinə sıçrayacaq. ABŞ başda olmaqla NATO dövlətləri silah-sursata, tanka, raketə, təyyarəyə malikdir, amma əsgərlərinin döyüş qabiliyyəti yoxdur.**

NATO-nun tərkibində yalnız ən nizamlı, intizamlı döyüş qabiliyyəti olan türk ordusudur ki, 800 min bozqurdu var silah altında.

Tanrı Türkiyəni NATO-nun cəngindən xilas eləsin. İki dünya müharibəsini Almaniya başlayıb və hər ikisində də məğlub olub. İndi ABŞ çalışır ki, Üçüncü Dünya Müharibəsini də Almaniya başlasın. Alman xalqı üçüncü dəfə keçə bilmədiyi çaya girərmi-girməzmi? Bizə elə gəlir ki, alman xalqı bu dəfə keçə bilmədiyi çaya girməyəcək.

## Vasif Tağıyev avtomat terrorçunun əlində ikən darağı çıxarıb



**Yanvarın 27-də Azərbaycanın İrandakı səfirliyində törədilən terror aktı zamanı yeni təfərrüat məlum olub.**

Adalet.az xəbər verir ki, həmin vaxt səfirliyinin mühafizə xidmətinin əməkdaşı Vasif Tağıyev terrorçu tərəfindən çiynindən və çənəsindən güllələnib. Belə ki, V.Tağıyev terrorçunun əlindən avtomatı almağa çalışıb. Bu zaman terrorçu avtomatdan atəş açmağa başlayıb. Güllələrdən biri səfirliyin döşəməsinə dəyib. Daha sonra onun açdığı digər bir atəş Vasif Tağıyevin çiynindən dəyib.

Lakin Vasif ayıq-sayıqlığını itirməməyə çalışıb. O, terrorçunu binadan çıxarmağa cəhd edib. Həmin an V.Tağıyev terrorçunun avtomatının darağını çıxarmağa nail ola bilib. Ancaq avtomatın içərisində bir güllə qalıb. Terrorçu avtomatdan növbəti dəfə də atəş aşıb. Avtomatın içərsində olan sonuncu güllə də tavana dəyib. Bundan sonra isə terrorçu əlini cibinə ataraq tapançasını çıxarıb. Dərhal da atəş açıb. Atəş nəticəsində güllə Vasifin çənəsindən girirək üzündən çıxıb.

## İNDİ DEPUTATLAR ÖZLƏRİNİ REKLAM ETMƏLİDİR?



**Sosial şəbəkələrdə Pakistanın və Gürcüstanın deputatlarının bir aylıq maaşlarını Türkiyəyə zəlzələdən zərərçəkənlərə keçirmələri barədə yazılıb. Sağ olsunlar, çox gözəl.**

Amma sonra da bu məlumatı paylaşanlar bizim deputatlara axmıra vururlar, istehza edirlər. Sadəcə olaraq, xəbərləri yoxdur! Xəbərləri yoxdur ki, hələ 4 gün bundan əvvəl Milli Məclisin sədri Sahibə xanım Qafarova başda olmaqla bütün deputatlar hər kəs öz imkanı daxilində qardaş ölkədə zərərçəkənlərə pul köçürüb.

Eləcə də Milli Məclisin bütün əməkdaşları.

Onu da qeyd edim ki, CoVİD 19-un tüğyan etdiyi vaxtda da deputatlar və Milli Məclisin əməkdaşları xəstələrin müalicəsi üçün pul köçürmüşdülər. YAŞAT fondu yarananda da bu fonda ilk pul köçürənlər yenə Milli Məclisin deputatları olmuşdur.

Aqil ABBAS

## ÇAY QIRAĞINDA BİTİB, SUSUZ QALAN AĞACLARIN SAĞLIĞINA...

(Abdal-Gülablı Şakirin xatirəsinə)

(povestdən bir parça)

Bax:səh-5

## "Şahzadəmi xilas etmək üçün yalın əllə qazmağa başladım"

**Türkiyədə zəlzələ ilə bağlı artıq hər birimizin ürəyini sızladan və kədərə qərq edən yüzlərlə, bəlkə də, minlərlə foto ortaya çıxıb.**

Adalet.az xəbər verir ki, bunlardan ən təsirlilərindən biri də atanın zəlzələdə qurban verdiyi qızının əlini buraxmadığı və sonradan onların hər ikisinin illər əvvəl çəkilmiş fotoları ilə qarşılaşdırılan görüntülər oldu. Həmin fotonun "qəhrəmanı", zəlzələdə qızını itirən Mesut Hançer adlı şəxs "Bild" nəşrinə danışıb.

"Yer titrəyən zaman çörək sexində çalışırdım. Dərhal həyat yoldaşıma zəng etdim, iki qızımın və oğlumun yaxşı olduqlarını söylədi. Ancaq həmin gecə ən kiçik qızım nənəsigildə qalmışdı. Nənəsigilə qohumlarımız gəlmişdilər və İrmak da onlarla bərabər qalmaq istəmişdi".

M.Hançer qızına zəng etdiyini, lakin cavab ala bilmədiyini bildirib: "Çox dua etdim, ancaq qızımı itirdim. Mən şahzadəmi xilas etmək üçün yalın əllə qazmağa çalışdım, ancaq çıxara bilmədim".

## Səlcuk Bayraktar zəlzələ bölgəsi üçün min konteyner tikəcək

**Baykar İdarə Heyətinin sədri və Texnologiya Lideri Səlcuq Bayraktar soyuq havalarda zəlzələ bölgəsində insanları sığınmaq üçün min konteyner tikdirir.**

Adalet.az xəbər verir ki, hazırda zəlzələ bölgəsində soyuq havanın təsirli olduğu bölgədə evi dağılan və ya zədələnən minlərlə vətəndaş üçün sığına-



caq ehtiyacı yaranıb. Gecələr havanın mənfiyə düşdüyü bölgədə ən böyük problem sığınacaq problemidir. İnsanlar soyuq havaya baxmayaraq çöldə gözləyirlər. Səlcuk Bayraktar deyir ki, zəlzələdən zərər çəkənlərin ən böyük ehtiyacı konteynerlərdir. Hər biri 32 min türk lirəsi olan konteynerlərə 32 milyon TL ödəyən Bayraktar, eyni zamanda 50 milyon TL dəyərində qida, geyim, elektron cihaz və humanitar yardım materiallarını tədarük edərək, zəlzələ bölgəsinə göndərilib.

## Yazarlar məktəblilərin qonağı oldu




**Abşeron rayonunun Mehdiabad qəsəbəsində fəaliyyət göstərən 4 saylı məktəbdə millət vəkili, yazıçı Aqil Abbas və yazıçı-publisist, Əməkdar jurnalist İradə Tuncayın şagirdlərlə görüşü keçirilib.**

Tədbirdə məktəbin müəllim və şagird kollektivi iştirak edib.

Yazıçıları məktəbin girişində üzlərindən sevinc oxunan uşaqlar qarşılayıblar.

Məktəbin direktoru Elnura Cavadzadənin açılış sözləriylə başlayan tədbir sona qədər Aqil Abbas və İradə Tuncayın məktəblilərlə aktiv ünsiyyəti ilə keçib. Tədbirin sonunda qonaqlar görüş iştirakçılarına imzalı kitablarını təqdim ediblər.

## VARIN VERƏN UTANMAZ

**Türkiyədə zəlzələ olan gündən Azərbaycan qardaş ölkənin yanındadır. Dövlətin elədiklərindən danışmıram, amma hər bir azərbaycanlı öz imkanı daxilində yardım kampaniyasına qoşulub. Kimin nəyə gücü çatır, hətta körpə balalar öz oyuncaqlarını bağışlayır. Kimsə yorğan-döşəyini, kimsə əynindəki paltosunu, isti gödəkçəsini, kimsə kostyumunu gətirir. Geyinilmiş şeyləri çox təəssüf qəbul eləmirlər. Orda insanlar soyuqdan donur, kimsənin də təzə palto almağa pulu yoxdur, əynindəki paltosunu çıxarıb bağışlayır. Burda pis nə var ki?**

Bunu qoydum kənara. Amma bəzi youtube kanalları, tik-tokerlər yardıma gətirilən geyilmiş paltarları çəkib sosial şəbəklərdə yayırlar və onları gətirənləri aşağılayırlar.

Yaxşı, onlar səhv edib gətirib, siz belə şeyləri yaymaqla, onları aşağılamaqla onlardan da böyük səhv edirsiniz, görülən işlərə kölgə salırsınız.

Aqil ABBAS
aqilabbas@rambler.ru

## BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI, YOXSA ÇAYXANASI?



*Dünyada heç kəsə lazım olmayan institutlar var, biri də Birləşmiş Millətlər Təşkilatıdı. Təşkilatın sədrinin də beqabiliyyət bir familiyası var, yazmağa da qorxuram, deyirəm birdən səhv yazaram ayıb olar. Ondan qorxuram ki, ikinci "u" hərfinin yerinə "ö" hərfi yazaram. Nə isə.*

*Mən çox vaxt bu təşkilatın adını Birləşmiş Millətlər Çayxanası, sədrini də Birləşmiş Millətlər Çayxanasının baş çayçısı yazıram.*

*Çünki fəaliyyəti elə çayxana fəaliyyətidi, əllərindən-filan yerlərindən bir iş gəlmir.*

*70-80-ci illərdə Azneftdə məşhur bir çayxana vardı: Rafaelin çayxanası. Bu çayxanaya adətən şairlər, yazıçılar, Azərbaycan Dövlət Universitetinin müəllimləri, bir sözlə, Sovet hökumətini sevməyən ziyalılar yığışardı. Bəzən 3-4 saat Sovet hökumətini yıxıb-sürüyürdük. Sonra da Birləşmiş Millətlər Çayxanasındakı kimi, söyüb-söyləməkdən başqa əlimizdən-filan yerimizdən bir şey gəlmədiyindən dağılışıb gedirdik evimizə. Amma onu da deyim ki, Rafaelin çayxanasının daimi müştəriləri sonra 88-ci ildə Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə ön sıralarda oldular.*

Bax:səh-2

## İskenderun limanındakı yanğın söndürüldü

**Türkiyədə baş vermiş dəhşətli zəlzələdən sonra İskenderun limanında yaranmış yanğın söndürülüb.**

Bu barədə Türkiyənin Nəqliyyat və İnfrastruktur Nazirliyinin



Dənizçilik Baş İdarəsi məlumat yayıb.

"Bölgədə dənizçilik fəaliyyətlərinin icrasına başlanılıb", - deyə qurumdan bildirilib.

# İlham Əliyev bəstəkar Tofiq Quliyevin abidəsinin açılışında iştirak etdi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Bakıda görkəmli bəstəkar, Xalq artisti, Dövlət mükafatı laureatı Tofiq Quliyevin abidəsinin açılışında iştirak edib.**

**Adalet.az xəbər verir ki, açılış mərasimində çıxış edən Prezident İlham Əliyev deyib:**

"Sabahınız xeyir olsun. Bu gün biz görkəmli bəstəkar Tofiq Quliyevin abidəsinin açılışına toplaşmışıq. Şəhərimizin mərkəzində ucaldılan bu abidə Azərbaycan xalqının dahi bəstəkar Tofiq Quliyevin xatirəsinə olan hörmətinin əlamətidir. Həqiqətən Tofiq Quliyevin əsərləri Azərbaycan mədəniyyət aləmində bir inqilab etmişdir. Tofiq Quliyev həm görkəmli bəstəkar, həm Azərbaycanda caz sənətinin banisi də adlandırıla bilər. Eyni zamanda, böyük mədəniyyət xadimi Tofiq Quliyev Azərbaycan xalqının sevgisini qazanmışdır.

Onun əsərləri doğrudan da bizim böyük sərvətimizdir. Bu əsərlər ölməz əsərlərdir, bu gün də səslənir, bundan sonra da uzun illər ərzində səslənəcək. Çünki bu əsərlərin mahiyyətində həm Tofiq Quliyevin istedadı, eyni zamanda, Azərbaycan xalqına, doğma Bakı şəhərinə olan məhəbbəti dayanır. Tofiq Quliyev öz xalqına çox bağlı idi, onun Azərbaycan, Bakı haqqında əsərləri bunu göstərir. Eyni zamanda, onu tanıyanlar yaxşı bilirlər ki, çox gözəl insan, gözəl ziyalı idi, sözün əsl mənasında, böyük mədəniyyət xadimi idi və öz fəaliyyəti, öz əsərləri, Azərbaycanın ictimai həyatındakı rolu ilə tarixdə öz layiqli yerini tutmuşdur. Tofiq Quliyevin xatirəsi Azərbaycanda əbədiləşdirilmişdir. Onun yaşadığı binaya xatirə lövhəsi vurulmuşdur, şəhərimizin küçələrindən birinə onun adı verilmişdir, eyni zamanda, musiqi məktəbi də onun adını daşıyır və bu gün bu gözəl abidə ucaldılır. Onu da bildirməliyəm ki, Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə Tofiq Quliyevə Azərbaycanın ovaxtkı ən ali ordeni olan "İstiqlal" ordeni verilmişdir.

Atam Heydər Əliyevi Tofiq Quliyevlə sıx dostluq əlaqələri bağlayırdı. Onlar onilliklər ərzində bir-birinə böyük hörmət göstərən insanlar idi. Baxmayaraq ki, Heydər Əliyev Azərbaycanın ovaxtkı Kommunist Partiyasının rəhbəri idi, ondan sonra müstəqil Azərbaycanın Prezidenti idi, Tofiq Quliyev isə ömrü boyu siyasətdən uzaq bir insan idi. O, sadəcə olaraq, öz yaradıcılığı ilə Azərbaycana həm sovet dövründə, həm müstəqillik dövründə o qədər böyük töhfə vermişdi ki, hamımız, hətta onu tanımayanlar da onun obrazını özümüz üçün çox əziz və yaxın tuturduq. Atam isə onu yaxından tanıyan insan kimi bilirdi ki, Tofiq Quliyev nə qədər böyük insani keyfiyyətlərə malik idi.

Onların dostluğu çox təbii idi, səmimi idi, təmənnasız idi, əsl dostluq idi. Tofiq Quliyevin 80 illik yubileyində Ulu Öndər Heydər Əliyev məşhur sözləri demişdir, yəqin ki, hamımız o sözləri xatırlayırıq - biz hamımız dünyadan gedəcəyik, ancaq Tofiq Quliyevin musiqisi daim yaşayacaqdır. Artıq o gündən 26 il keçib və nə qədər dəqiq, həqiqətə uyğun sözlərdir, indi biz bunu bir daha görürük. Heç birimizdə şübhə yoxdur ki, əsrlər keçdikcə bu unudulmaz musiqi, bu mahnılar, Azərbaycan xalqının musiqi istedadını əyani şəkildə göstərən əsərlər yaşayacaq, bizi və sonrakı nəsilləri sevindirəcək.

Mən bu gözəl hadisə münasibətilə, ilk növbədə, Tofiq Quliyevin ailə üzvlərini, Azərbaycan musiqi ictimaiyyətini və bütün Azərbaycan xalqını təbrik etmək istəyirəm. Sağ olun".

**Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti, professor Fərhad Bədəlbəyli çıxış edərək deyib:**

"Möhtərəm cənab Prezident, çox sağ olun bu sözlərə görə.

Tofiq müəllim nəinki dahi bəstəkar, dahi ictimai xadim idi, mənim üçün, Polad üçün o, Tofiq əmi idi. Biz ona belə deyirdik. Uşaqlıqdan "dyadya Tofiq" deyirdik.

Əlbəttə, mən piano sənəti ilə məşğul olan bir insanam. Qeyd etməliyəm ki, o, dahi bir pianoçu idi. Çünki Aysberq kimi professor Bakıda, Neyqauz kimi dahi professor Moskvada onun müəllimləri idi. Baxmayaraq ki, Tofiq müəllim gündə iki-üç saat çalmırdı, Akademiyamıza gələndə piano arxasında bir passaj ifa edəndə biz hamımız məəttəl qalırdıq. Praktika ilə heç məşğul olmayan bu insan necə belə dahi bir pianoçu idi. Əlbəttə, mən xoşbəxtəm ki, son illər o, bizim fəxri professorumuz idi. Hər dəfə Akademiyaya gələndə onun hansısa bir mühazirəsi olmurdu, sadəcə, biz yığışırdıq və Tofiq müəllim musiqi tarixindən, Qara Qarayev, Niyazi, Fikrət Əmirov haqqında əhvalatlar danışırdı, çünki o, canlı bir ensiklopediya idi. Mən çox danışmaq istəmirəm, çünki məndən sonra Polad da danışacaq. Mən, sadəcə, demək istəyirəm xoşbəxtəm ki, onunla təmasda olmuşam. Xoşbəxtəm ki, onun bir çox premyeralarında iştirak etmişəm, atam rejissor kimi, mən də tamaşaçı kimi. Xoşbəxtəm ki, bir-iki həftə öncə Vyanada konsertdə mən onun məşhur "Qaytağı"sını ifa etdim. Yenə də bütün avropalılar məəttəl qalırlar, bu, nə gözəl əsərdir. Xoşbəxtəm ki, vaxtilə bu əsəri - "Qaytağı"nı mənə həsr edib və indi bütün dünyada pianoçular bu əsəri ifa edirlər. Yəni, Tofiq müəllim belə insan idi. Ulu Öndər o ordeni ona xəstəxanada təqdim etmişdi, gedib ona baş çəkmişdi və təbrik etmişdi. Bilirsiniz, bu, çox təsirli idi, biz onu həmişə xatırlayırıq.

Fürsətdən istifadə edib sonda Sizə "Çox sağ olun!" demək istəyirəm ki, Bülbülün heykəlini, Rəşid Behbudovun heykəlini, Qara Qarayevin, Fikrət Əmirovun heykəlini məhz Siz açmısınız bizimlə bir yerdə. Biz 1982-ci ilin qışında Şuşada Ulu Öndərlə bir yerdə Vaqifin məqbərəsinin açılışında iştirak edirdik. Çox yaxşıdır ki, 100 ildə keçsə, bu insanların heykəlləri duracaq. Tofiq müəllim bax, burada dayanacaq və onun musiqisi bütün dünyada yenə də səslənəcək. Çox sağ olun".

**Xalq artisti, görkəmli bəstəkar Polad Bülbüloğlu çıxış edərək deyib:**

"Möhtərəm cənab Prezident.

Hörmətli xanımlar, cənablar, əziz dostlar.

Əvvəla, dərin təşəkkürümü bildirmək istəyirəm ki, bu gün mənə bu abidənin açılışında söz verilib.

Mənim üçün Tofiq əmi doğrudan da əziz bir insan idi. Çünki uşaqlıqdan bizim evdə mən şahidi olmuşam ki, Tofiq müəllim gəlirdi, - bilirsiniz ki, Bülbül Tofiq Quliyevin bir neçə mahnısını, romanslarını ifa etmişdir, - Fərhad da bizdə olurdu, çox gözəl piano çalırdı. Atam həmişə öz əsərindən başqa ona müraciət edərdi ki, Tofiq bir az çal da, adamın ürəyi açılsın. Doğrudan da, elə idi, biz, - Fərhad bunu dedi, - uşaqlıqdan ona Tofiq əmi deyirdik. Mən çox şadam, xoşbəxtəm ki, ömür boyu bu insanla çox sıx təmasda olmuşam.

1960-cı illərdə Tofiq müəllim Filarmoniyanın bədii rəhbəri və direktoru idi. Biz gənc bəstəkar idik, o, bizə çox kömək edirdi, bizim əsərlərimizi alırdı, yəni, maddi yardım edirdi, bizə yol göstərirdi, tövsiyələrini verirdi. Ancaq mənə yox, bütün o nəslin, o cavan bəstəkar nəslinin, demək olar ki, mənəvi atası kimi. Ümumiyyətlə, bilirsiniz bəstəkarlar çox qısqanc olurlar, musiqiçilər də qısqanc olurlar. Amma Tofiq müəllim elə deyildi, Tofiq əmi elə deyildi. O digərlərinin uğurlarına da çox sevinirdi. Onun mahnıları ölməzdir, ona görə ki, onlar insanın daxilindən, qəlbindən, saflığından gəlir. Ona görə onun mahnılarını milyonlarla insan sevir və burada deyildiyi kimi, bu mahnılar, onun əsərləri daim yaşayacaqdır. Ona görə ki, o, insan kimi də gözəl insan idi və böyük musiqiçi idi, böyük bəstəkar idi, böyük pianoçu idi.

Hörmətli Prezidentimiz dedi, doğrudan da mən onun şahidiyəm, bizim Ulu Öndərimiz, böyük insanımız Heydər Əliyev Tofiq müəllimə xüsusi münasibət bəsləyirdi. Mənə nəsib olub, o vaxt Heydər Əliyev rayonlarda böyük müşavirələr keçirirdi və oraya gedəndə həmişə yaradıcı insanları da dəvət edirdi - bəstəkarları, rəssamları, yazıçıları, ifaçıları və bizə deyirdi ki, mən sizi buraya gətirirəm ki, əvvəla, siz bir az millətə, xalqa yaxın olasınız, ikincisi də xalq sizi görsün. Radioda eşidirlər, televizorda görürlər, amma sizi canlı görmək, onlar üçün daha xoşdur. Orada da biz görürdük ki, Heydər Əliyevin Tofiq Quliyevə xüsusi münasibəti var. Sonra mən nazir işləyəndə bir neçə dəfə bu haqda söhbətlər olub. Bilirsiniz ki, sonra Tofiq əmi Bəstəkarlar İttifaqının birinci katibi idi və onda da bəstəkarlara çox böyük yardım, çox böyük kömək edirdi. Onu da qeyd edim ki, Tofiq müəllim çox yaxşı təşkilatçı idi. Bakıda böyük tədbirlər keçirirdi. Filarmoniyada olanda dünyaşöhrətli musiqiçiləri dəvət edirdi, onların konsertlərini təşkil edirdi, Bəstəkarlar İttifaqında plenumlar, qurultaylar, müxtəlif tədbirlər keçirirdi. Həmişə onun təşkil etdiyi tədbirlər çox yüksək səviyyədə keçirdi.

Hörmətli cənab Prezident, Fərhad da dedi, mən də öz tərəfimdən Sizə dərin təşəkkürümü bildirmək istəyirəm ki, doğrudan bizim Azərbaycanın paytaxtında, Bakı şəhərində xalqımızın xəzinəsi olan gözəl insanlara abidələr qoyulur. Həyat elə qurulub ki, əvvəl-axır biz hamımız bu dünyadan köçəcəyik. Tələsmək lazım deyil, amma əvvəl-axır olacaq. Amma bu abidələr həmişə qalacaq və Azərbaycan xalqının görkəmli insanlarını bütün dünyaya tanıtdıracaq. Məncə, bu gün Tofiq əminin ruhu şad olmalıdır. Allah ona rəhmət eləsin, qəbri nurla dolsun".

**Sonra Prezident İlham Əliyev Tofiq Quliyevin ailə üzvləri, mədəniyyət və incəsənət xadimləri ilə söhbət edib.**

# "Uca Tanrıdan Türkiyə xalqına güc və səbr diləyirəm"

**Fevralın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğana başsağlığı məktubu ünvanlayıb: "Kahramanmaraşda baş vermiş və qardaş Türkiyənin bir çox yerlərində hiss edilmiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər bizi olduqca kədərləndirdi. Bu ağır məqamda hər cür yardım göstərməyə hazır olduğumuzu bildiririk".Dövlətimizin başçısı facia ilə əlaqədar türk həmkarına, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına şəxsən öz adından və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verib, yaralananlara şəfa diləyib. Prezident İlham Əliyev, həmçinin zəlzələnin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıb.**

Fevralın 6-da Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla telefon zəngi etmişdir:"Türkiyədə baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılarla bağlı xəbər Azərbaycanı çox sarsıtdı və kədərləndirdi"yini bildirənAzərbaycan Prezidenti qeyd edib ki, bu, böyük fəlakətdir və ölkəmiz Türkiyənin bu dərdinə şərik çıxır, Azərbaycan və Türkiyə hər zaman bir-birinin yanındadır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva fevralın 6-da Türkiyədə baş vermiş zəlzələ ilə əlaqədar rəsmi instaqram səhifəsində paylaşım edib: "Türkiyənin cənub-şərqində baş vermiş güclü zəlzələnin nəticələri barədə xəbərləri dərin kədər hissi ilə qarşıladım. Allah faciə zamanı həlak olanlara rəhmət eləsin. Onların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Yaralananların və xəsarət alanların tezliklə şəfa tapmasını arzulayıram. Uca Tanrıdan bütün Türkiyə xalqına güc və səbir diləyirəm!".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Türkiyə Respublikasının ölkəmizdəki səfirliyində olub, Türkiyədə baş vermiş zəlzələ nəticəsində çox sayda insanın həlak olması ilə əlaqədar başsağlığı verib və çıxış edib.

Azərbaycan hər zaman olduğu kimi, zəlzələdən sonra ilk dəqiqələrdən, ilk saatlardan qardaş Türkiyənin yanında idi. Azərbaycan öz dəstəyini, öz həmrəyliyini həmişə olduğu kimi nümayiş etdirir. Əgər bu acı faciənin fəsadlarının aradan qaldırılmasına bir balaca kömək edə bilmişiksə, bunu özümüz üçün şərəf bilirik.

Türkiyədə baş vermiş dəhşətli zəlzələ Azərbaycan xalqını çox sarsıtdı. Biz qardaşlarımızın dərdinə şərikik. Yaralılara tezliklə Allahdan şəfa diləyirik;

Azərbaycan sona qədər öz dəstəyini göstərəcəkdir. Azərbaycandan davamlı olaraq həkimlər, xilasedicilər, könüllülər göndərilir və göndəriləcəkdir.



Azərbaycan xalqı könüllü olaraq qardaşlara, öz doğma qardaşlarına dəstək olmaq üçün kimin əlində nə var onu gətirir. Kimi yorğan gətirir, kimi döşək gətirir, kimi gödəkcə gətirir. Kimin imkanı nəyə çatırsa, onu da əsirgəmir.

Biz bütün dünyaya bir daha nümayiş etdiririk ki, təkcə dövlətlərarası səviyyədə deyil, dövlət başçıları səviyyəsində deyil, insanlar səviyyəsində də əsl qardaşlıq əlaqələri mövcuddur.

İctimai təşkilatlar da öz dəstəyini göstərirlər. Heydər Əliyev Fondu artıq böyük təşəbbüsə start verdi. Fondun bütün imkanları, Fondun nəzdində çalışan bütün insanlar artıq bu yardım kampaniyasına qoşulmuşlar.

Özəl sektor da öz dəstəyini əsirgəmir. Özəl şirkətlər artıq fəaliyyətə keçiblər və həm maddi yardım, eyni zamanda, texniki yardım göstərməyə başlamışlar.

Azərbaycanın ən böyük şirkəti SOCAR öz dəstəyini verməyə başlayıb. SOCAR-ın Türkiyədə böyük fəaliyyəti, böyük imkanları var. Bu şirkət, eyni zamanda, Türkiyə şirkətidir və əlində olan bütün imkanlarla yardım etməyə çalışır və çalışacaq.

Bütün dövlət qurumları da bu gün qardaş türk xalqının yanındadır. Dövlət qurumlarının nümayəndələri öz təşkilatları çərçivəsində humanitar yardımın təşkilində fəaldırlar.

Bütün yardım məsələləri bir mərkəzdən idarə olunacaq. Ölkənin xəstəxanalarında yaralı qardaş-bacılarımızın müalicəsi uçun bütün şərait var.

Həm Bakıda, digər şəhərlərdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında artıq çarpayılar ayrılıb.

Böyük bir qrup könüllü artıq yola düşüb. Heydər Əliyev Fondunun nəzdində fəaliyyət göstərən könüllülər və ASAN könüllüləri müəyyən təcrübəyə malikdirlər və onlar öz bacarıqlarını əsirgəməyəcəklər.

Türkiyə dövlətinin operativ və çevik addımları bir daha göstərdi ki, insan amili Türkiyə hökuməti üçün əsas məsələdir və bu ağır sınaq, eyni zamanda, Türkiyənin gücünü bir daha bütün dünyaya göstərəcək. Türkiyə bu acı sınaqdan şərəflə çıxacaq. Bu, inanılmaz dərəcədə böyük faciədir.

Hər bir qurtarılan can elə bil ki, bizə bir dünyanı bağışlayır. Türkiyə dövləti bu çətinliyi də aşacaq və tezliklə qurtarma, arama işlərinin aparılmasında öz səylərini davam etdirəcək.

Prezident İlham Əliyevin göstərişinə əsasən Türkiyəyə ezam olunmuş Azərbaycan Ordusunun hərbi tibb personalı 8 fevral tarixdən etibarən Kahramanmaraşda fəaliyyətə başlayıb. Ümumi cərrah, travmatoloq, LOR cərrah, oftalmoloq, neyrocərrah, revmatoloq, anestezioloq, plastik-rekonstruktiv cərrah, feldşer, əməliyyat tibb bacıları və anestezistlər olmaqla, ümumilikdə 20 nəfərlik hərbi tibb personalı baş vermiş zəlzələdə xəsarət alan insanlara tibbi yardımın göstərilməsi məqsədilə hadisənin ilk saatından etibarən qardaş ölkəyə ezam olunub.

Azərbaycanın bir çox bölgələri Türkiyədə baş vermiş güclü zəlzələdən zərərçəkənlərə yardım aksiyasına fəal qoşulub. Qeyri-sabit, qarlı-yağışlı hava şəraitinə baxmayaraq, ölkənin müxtəlif şəhər və rayonlarında yaşayan sakinlər səhər saatlarından etibarən axın-axın təşkil olunan yardım toplama məntəqələrinə gəlir, gətirdikləri əşyaları aidiyyəti üzrə məsul şəxslərə, könüllülərə təhvil verirlər.

Ölkənin bir çox ali təhsil müəssisələrində zəlzələdən zərərçəkənlərə humanitar yardım məqsədilə tələbə və əməkdaşlar arasında yardım kampaniyası təşkil olunub.

Türkiyədə baş vermiş zəlzələ nəticəsində zərərçəkənlərə yardım məqsədilə Azərbaycan vətəndaşları tərəfindən qardaş ölkəyə maddi vəsait və ianələr şəklində dəstək göstərilir.

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Türkiyə Respublikasında güclü zəlzələnin fəsadlarının aradan qaldırılması ilə əlaqədar 8 fevral 2023-cü il tarixində Fövqəladə Hallar Nazirliyinin növbəti humanitar yardımı 13 ədəd xüsusi təyinatlı nəqliyyatı vasitəsilə qardaş ölkəyə yola salınıb. Humanitar yardıma dağıntılardan ziyan çəkmiş insanların yerləşdirilməsi üçün 260 ədəd çadır, 300 ədəd çarpayı, 2 ədəd böyük gücə malik generator, 8000 geyim dəsti, 20000 cüt corab, 350 ədəd masa, 1000 ədəd oturacaq, 5000 ədəd iplik dəsmal və digər ləvazimatlar daxildir.

**Prezident İlham Əliyevin tapşırığına əsasən Türkiyədə olan Fövqəladə Hallar Nazirliyinin çevik xilasetmə qüvvələri qardaş ölkədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması və axtarış-xilasetmə əməliyyatlarını fasiləsiz davam etdirirlər. FHN-in xilasediciləri zəlzələdən ciddi zərər görmüş Kahramanmaraş rayonu ərazisində həyata keçirdikləri axtarış-xilasetmə əməliyyatları nəticəsində dağıntılar altından 8-i uşaq olmaqla 37 nəfəri sağ, 145 nəfərin isə cəsədini çıxararaq aidiyyəti üzrə təhvil veriblər. (09 fevral saat 08.00 üçün olan məlumata əsasən).**

**Hazırladı:**
**Mehriban Cəfərova**



*Elxan Şükürlü*

# Biz bu savaşda da, seçimdə də Ərdoğanın yanındayıq

***Qardaş Türkiyədə yaşanan ağır faciədən Ərdoğan əleyhdarlarının, xüsusən də Qərbin Türkiyə və Azərbaycandakı şəbəkəsinin dərhal yararlanmaq cəhdləri açıq-aşkar ortadadır. Faciənin dəhşətlərini yaşamış insanların emosional ovqatına siyasi məzmun verərək, onun Ərdoğana qarşı kütləvi qəzəb və nifrətə çevrilməsi üçün hər şey edilir! Məqsəd də odur ki, Türkiyədəki 14 may seçkilərinə qədər Ərdoğan ciddi siyasi nüfuz və səs itkisinə məruz qalsın, yenidən prezident seçilməsin.***

***Hazırda Ukrayna üzərində Rusiya ilə taqətdənsalma savaşı aparan Qərb üçün Türkiyədəki 14 may seçkiləri fövqəladə dərəcədə əhəmiyyət daşıyır. Onlar hesab edirlər ki, Ərdoğan yenidən prezident seçilməzsə və onu Qərbin müdafiə etdiyi şəxs əvəzləyərsə, bu, 2016-cı ildən etibarən daha açıq şəkildə müşahidə olunan Rusiya-Türkiyə əməkdaşlığına da son verə, beləliklə, Rusiyaya qarşı Qara dəniz hövzəsi - Cənubi Qafqaz - Mərkəzi Asiya xətti boyunca yeni bir cəbhə açıla bilər.***

***Şübhəsiz ki, bunu Rusiya da bilir və indi Putin üçün Ərdoğanın hakimiyyətdə qorunub saxlanması öz hakimiyyətinin qorunub saxlanması qədər önəmlidir.***

***Bir qədər də dəqiq desək, 2024-cü ildə Rusiya, Ukrayna və ABŞ-da gözlənilən prezident seçkilərinin qədəri daha çox elə Türkiyədəki may seçkilərində yazılacaq.***

***Bu baxımdan, qarşıdakı 3 ayda Türkiyəyə qarşı Qərbin basqılarının xeyli artacağı, hətta bunun ölkə daxilində davamlı kütləvi iğtişaşlara, toqquşma və etirazlara çevrilməsi üçün cəhdlərə çevriləcəyi proqnozlaşdırılsa da, eyni zamanda ant-Qərb bloku, xüsusən də Çin və Rusiya tərəfindən Ərdoğan hakimiyyətinin sonadək dəstəklənəcəyini də gözləyə bilərik.***

***Son 20 ildəki fəaliyyətiylə Ərdoğan hamıya sübut edib ki, o, xaraktercə təhlükə qarşısında özünü itirməyən, toparlanan, səfərbər olunan və kritik situasiyalarda daha çevik, effektli davranan, böhranı imkana çevirməyi bacaran Liderdir. İnşallah, O, qardaş Türkiyənin bu faciəsindən yararlanmaq istəyənləri növbəti dəfə məyus edərək, ölkəsinə uzanan yad əlləri kəsəcək, bütün finəkarlıqların qarşısını alacaq və öz xalqını arxasında yenidən toparlamaqla, onu yeni hədəflərə götürməyi bacaracaq!***

***Biz bu savaşda da, seçimdə də bir əlində "Quran", dilində azan, Türkiyəni yenidən quran və Ümmətini birləşdirərək, onu daha təhlükəsiz bir dünyaya aparmağa çalışan Ərdoğanın yanında, cinahındayıq!***

***Allah Onun və Türkiyəmizin köməyi olsun! Ən böyük yardımımızsa dualarımızdır!***

## Türkiyədə dağılmış binalarla bağlı araşdırma başladı

**Türkiyədə zəlzələ nəticəsində dağılmış binalarla bağlı araşdırma başladılıb.**

Bu barədə Türkiyə mediası məlumat yayıb. Məlumata görə, araşdırma hələlik Diyarbəkir, Adana, Hatay və Osmaniyyədə aparılır.

Bildirilib ki, binaların tikintisini öz üzərinə götürən, sonradan inşa prosesinə zidd dəyişikliklər edərək binaların çökməsinə səbəb olan şəxslərin aşkarlanması barədə müvafiq qurumlara yazılı müraciətlər olunub.

# XİN-də kollegiya iclası keçirildi

**Fevralın 8-də Xarici İşlər Nazirliyinin geniş tərkibli kollegiya iclası keçirilib.**

Adalet.az xəbər verir ki, toplantıda XİN-in kollegiya üzvləri və struktur bölmələrin rəhbərləri iştirak ediblər. İclasın əvvəlində qardaş Türkiyənin Kahramanmaraş və digər ətraf bölgələrində baş vermiş zəlzələ nəticəsində həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. İclası giriş sözü ilə açan xarici işlər naziri Ceyhun Bayramov post-münaqişə dövründə xarici siyasət sahəsində yaranmış yeni reallıqlar və çağırışlar barədə danışıb, 2022-ci il ərzində intensiv xarici siyasət fəaliyyətinin əsas elementləri barədə müfəssəl məlumat verib. Beynəlxalq münasibətlər sistemində hazırkı böhran şəraitində ölkə Prezidentinin müəyyən etdiyi xarici siyasət kursuna uyğun olaraq müstəqil, açıq, praqmatik və milli maraqlara söykənən xarici siyasətin uğurla həyata keçirildiyi bildirilib.



Nazir dünya dövlətləri ilə həm ikitərəfli formatlarda, həm də beynəlxalq təşkilatlar çərçivəsində görülmüş aktiv işlərin, ölkəmiz tərəfindən irəlilədilən beynəlxalq və regional təşəbbüslər və platformaların əhəmiyyət daşıdığını vurğulayıb. Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə ardıcıl, sistemli və səmərəli şəkildə çatdırılması, bu istiqamətdə xaricdəki diplomatik nümayəndəliklərimizin fəaliyyətinin daha da canlandırılmasının əhəmiyyəti qeyd olunub. Nazir bu vəzifələrin icrası məqsədilə peşəkar və vətənpərvər kadr ehtiyatının gücləndirilməsinin zəruri olduğunu bildirib. 2022-ci il ərzində müxtəlif beynəlxalq təşkilatlarda Azərbaycanın namizədliklərinin müvafiq vəzifələrə seçilməsi üzrə uğurlu kampaniyalar barədə məlumat verilib və bu istiqamətdə işlərin davam etdirilməsinin vacibliyi diqqətə çatdırılıb. İclas zamanı, həmçinin aidiyyəti sahələr üzrə XİN-in struktur bölmə rəhbərləri tərəfindən hesabatlar və 2023-cü il üzrə planların təqdimatı edilib və müfəssəl müzakirələr aparılıb. Yüksək səviyyəli qarşılıqlı səfərlərin təşkili, ikitərəfli komissiyaların iclaslarının daha praktiki və nəticə-yönümlü olması istiqamətində iş aparılması, iqtisadi və ticarət əlaqələrinin gücləndirilməsi imkanlarının araşdırılması və s. istiqamətlərdə prioritetlər vurğulanıb. Ölkəmizin Qoşulmama Hərəkatı, İqtisadi Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilat və platformalarda sədrliyinin 2023-cü il üzrə planları, keçiriləcək tədbirlər barədə məlumat verilib. "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Tədbirlər Planı"nın icrası iclasın gündəliyinin əsas məsələlərindən olub. İclas zamanı, XİN-in kadr siyasətində şəffaflığı təmin etmək məqsədilə Nazirlikdə işə qəbulun ictimaiyyət üçün açıq müsabiqə əsasında təşkili və bu istiqamətdə gələcək işlər müzakirə edilib. Kadrların ixtisasartırma proqramlarına fəal şəkildə cəlb edilməsinin təmin ediləcəyi bildirilib. Bununla yanaşı, 2022-ci il ərzində 20 diplomatik nümayəndəlik üzrə rəhbər təyinatlar həyata keçirildiyi qeyd olunub. Diplomatik nümayəndəliklərdə və konsulluqlarda işləyən əməkdaşların maddi-sosial və pensiya təminatlarının yaxşılaşdırılması məqsədilə "Sosial sığorta haqqında", "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Vergi Məcəlləsində edilmiş dəyişikliklər barədə iclas zamanı məlumat verilib.

**Kollegiya iclasının iştirakçıları gündəliyə daxil olan məsələlər üzrə ətraflı fikir mübadiləsi aparıblar.**

*Aqil ABBAS*

# BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI, YOXSA ÇAYXANASI?

***Dünyada heç kəsə lazım olmayan institutlar var, biri də Birləşmiş Millətlər Təşkilatıdı. Təşkilatın sədrinin də beqabiliyyət bir familiyası var, yazmağa da qorxuram, deyirəm birdən səhv yazaram ayıb olar. Ondan qorxuram ki, ikinci "u" hərfinin yerinə "ö" hərfi yazaram. Nə isə.***

***Mən çox vaxt bu təşkilatın adını Birləşmiş Millətlər Çayxanası, sədrini də Birləşmiş Millətlər Çayxanasının baş çayçısı yazıram.***

***Çünki fəaliyyəti elə çayxana fəaliyyətidi, əllərindən-filan yerlərindən bir iş gəlmir.***

***70-80-ci illərdə Azneftdə məşhur bir çayxana vardı: Rafaelin çayxanası. Bu çayxanaya adətən şairlər, yazıçılar, Azərbaycan Dövlət Universitetinin müəllimləri, bir sözlə, Sovet hökumətini sevməyən ziyalılar yığışardı. Bəzən 3-4 saat Sovet hökumətini yıxıb-sürüyürdük. Sonra da Birləşmiş Millətlər Çayxanasındakı kimi, söyüb-söyləməkdən başqa əlimizdən-filan yerimizdən bir şey gəlmədiyindən dağılışıb gedirdik evimizə. Amma onu da deyim ki, Rafaelin çayxanasının daimi müştəriləri sonra 88-ci ildə Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə ön sıralarda oldular.***

***İndi BMT-nin də yığışıb boş-boş danışmaqdan başqa əllərindən bir şey gəlmir. Hələ bir Təhlükəsizlik Şurası da var, 4 qətnamə çıxarmışdı ki, Ermənistan silahlı qüvvələri işğal etdikləri Azərbaycan ərazilərindən dərhal çıxarılsın. Ermənistan dünyanın bu ali təşkilatının çıxartdığı 4 qətnaməni filan yerinə sürtüb atdı. Heç birinə əməl etmədi, qətnamələr 28 il qaldı ortalıqda. Dılğır bir Ermənistanın saymadığı bu təşkilat kimə və nəyə lazımdı?***

***İndi dünya dağılır, terror dünyanı alıb başına. Dünyanın "vor zakon" dövlətləri Liviyanı dağıtdı, prezidentlərini də küçənin ortasında biabırcasına öldürdülər, İraqı bombaladılar, prezidentini də tutub asdılar, Suriyanı parçaladılar, Yəməni dağıtdılar, Əfqanıstanı məhv etdilər. İndi də ruslarla ukraynalıları bir-birlərinə qırdırırlar, Birləşmiş Millətlər Çayxanası da ağzına su alıb oturub.***

***Hələ mən Afrika ölkələrində gedən vətəndaş müharibələrini, Hindistanla Pakistan arasında gedən müharibəni və sair və ilaxır demirəm.***

***İndi deyin Birləşmiş Millətlər Təşkilatıdı, yoxsa Çayxanasıdı? Hər il də bu təşkilatın üzvü olan dövlətlər milyonlarla dollar üzvlük haqqı ödəyirlər.***

***Rafaelin çayxanası Birləşmiş Millətlər Çayxanasından hörmətlidi. Rafaelin çayxanasına yığışanlar, heç olmasa, Azərbaycanı Sovet imperiyasının cəngindən qurtardılar. Amma Birləşmiş Millətlər Təşkilatı heç bir işə yarımadı.***

*Səxavət Məmməd*



# Azərbaycan insanının ucalığını göstərən günün fotosu

**Sökülüb-tökülən, üstü yorğan-döşək, baqajı dolu yardıma tələsən maşın. Apardıqlarından da ürəyi böyük bir insan. Azərbaycan insanı. Təəccübləndimmi? Qətiyyən!**

**Deyirlər, dost dar gündə tanınar. Təkcə dost yox, elə insan da dar gündə tanınır. Azərbaycan insanının bu qədər böyük olduğunu, nə yalan deyim, müharibədə gördüm. Düzdür, ilk müharibə vaxtı da çox şey görmüşdüm. Nənəm hər gün təndirə çörək yapar, çörəklərin arasını "Allah verən"lə doldurar, mənə verərdi ki, apar əsgərlərə çatdır. Uşaq idim. Yerə dəyməsin deyə çox çalışırdım. Bəzən sürüyürdüm də, ancaq aparırdım. Hə, onu da deyim ki, nənəm bərk-bərk tapşırardı, yeyib qurtardıqlarını gör, ondan sonra geri gəl. Nənəm idi. Ona görə onun etdiyini heç vaxt xalqımızın adına yaza bilməzdim. Sadəcə bunu həmişə fəxrlə danışırdım.**

**Müharibə vaxtı anladım ki, bu xalqı uşaq vaxtı nənəmdə görmüşəm. Ona görə Türkiyədə baş verən zəlzələyə xalqın canla-başla yardım edəcəyini bilirdim, əmin idim.**



**Məlum foto yadıma bir hadisəni saldı. Yazmışamsa, təkar oxuyacaqsınızsa, üzrlü sayın. Şiddətli döyüşlər gedir, ölkənin hər bölgəsindən durmadan cəbhəyə yardımlar gəlir. Xaçmazdan göndərilən yardımın içərisindən bir balaca qutu çıxdı. Götürüb başqa istiqamətə gedən maşına qoymaq istəyəndə dostum Cəmil Məmmədli dedi ki, ona əl vurma, Füzuli istiqamətinə gedəcək. "Niyə?" sualına cavabı belə oldu: Xaçmazda bir kasıb ailə var, həyətlərindəki bir-iki toyuğunu, xoruzu satıb, onun pulu ilə bir qutu düzəldib, oğlanları Füzuli istiqamətindədir, ora çatsın. "Oğluma çatmasa da, olar, əsas o istiqamətə getsin", - deyiblər.**

**Varı, yoxu iki toyuq, bir xoruzunu yardım etmək üçün keçən insanlar, nələr etməz ki...**

**Pensiyasını alıb, dərmanları yerinə, bazarlıq edib əsgərlərə yola salan xeyli adam gördüm. Həyətindəki "hinduşka"ları kəsib, bişirib, qazanlara yığıb: "Əsgərlərə ver", - deyən tanıdım. Pulu olmayıb, qanını verənlərdən heç danışmayaq.**

**İki-içi dolu ağır zənbillə hərbçilərin yanına çatanda gözləri dolub, əsgərlərinə: "Sizə demişdim axı, camaatımız yeməyib bizi yedirdəcək, içməyib bizi içirdəcək", - deyən, özlərinə yetəcək ərzağı götürüb eyni qədərini də: "İrəlidə, solumuzda döyüşən uşaqlar var, onlara da yemək çatmayıb, onlara da aparın", - deyən komandiri tanıdım. Türkiyə ilə Azərbaycanı bir millət olmaqdan, strateji müttəfiqlikdən başqa bağlar da bir-birinə bağlayır. 1918-ci ildə ilhaq üçün yola çıxan türk ordusu, bunun baş tutmayacağını anlayanda Azərbaycanı erməni və ruslardan xilas etmək üçün döyüşdü və azad etdi. Cəmi iki il sonra Azərbaycan süquta uğrayanda Qarabağda son döyüşlərdən sağ çıxanlar Türkiyəyə keçib onlar üçün döyüşdü. Bir çağırışla Azərbaycandan Türkiyəyə qatarlar dolusu pul, neft, qızıl getdi. Müstəqilliyə müharibə ilə göz açdıq. Bu dəfə Türkiyə ordusunun mənsubları həm yeni qurulmaqda olan Azərbaycan ordusunun formalaşması üçün təlimlər verdi, həm də döyüşdülər. Aralarında şəhid olanlar, əsir düşənlər də oldu. Yenə müharibə, yenə Qarabağ və yenə Türkiyə ordusunun mənsubları həm təlimlər verdi, siyasi dəstək oldu. İndi Türkiyə təbii fəlakətlə çalxalanır, minlərlə insan zəlzələ nəticəsində həlak olub, evsiz-eşiksiz, köməksiz qalıb və yenə ilk Azərbaycan özünü yetirdi. Dövlətin etdiyi başqa, ancaq xalq da sakit dayanmır. Heç bir çağırış olmadan, heç bir göstəriş gəlmədən kimin nəyə gücü çatırsa, alır, zənbilinə qoyub yardım toplama məntəqələrinə qaçır. Qeyri-adi bağdır. Bu heç qardaşlıq da deyil. O qədər əclaf qardaşlar tanıyırıq ki. Bu hər nədirsə, qardaşlıqdan da irəli bir şeydir.**

**Fürsətçilər, yararlanmaq istəyənlər var, olub, olacaq. Türkiyədə də az deyil. Bu dəfə neqativlərdən danışmaq istəmirəm.**

**Baş üstündə saxlanılacaq, qədri bilinəcək xalqlardır. Deyir, Allah bir yerdən verəndə, bir yerdən kəsir. Allahın da qəribə işləri var, xalqına böyük ürək verir, insafı kəsilmişləri də sanki seçib məmur qoyur. Xeyirlə şərin, gecə ilə gündüzün yarışını, mübarizəsini bu xalqlar üzərində belə sınayır.**

**Nə isə, çox dərinə getməyim, siz mesaja yox, göz önündə canlanan rəsmə baxın...**

# Sahibə Qafarova Misir Nümayəndələr Palatasının sədri ilə görüşüb

**Milli Məclisin sədri Sahibə Qafarova Misir Ərəb Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin Nümayəndələr Palatasının sədri Hanafi Gibali ilə görüşüb.**

Adalet.az xəbər verir ki, Azərbaycan parlament rəhbərinin Misirə səfərindən məmnunluğunu ifadə edən Nümayəndələr Palatasının sədri bu səfərin parlamentlərarası əlaqələrin inkişafına əhəmiyyətli dərəcədə təkan verəcəyinə inandığını bildirib. İki ölkə arasında diplomatik münasibətlərin 30 illik dövrünə diqqət yetirən Hanafi Gibali ötən dövr ərzində əldə olunmuş nailiyyətləri, əlaqələrin mövcud vəziyyətini yüksək qiymətləndirib. O, Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisinin cari ilin yanvar ayında Azərbaycana işgüzar səfərinə, səfər çərçivəsində aparılmış danışıqlara və əldə olunmuş razılaşmalara toxunaraq, ikitərəfli əlaqələrin daha da genişləndirilməsi üçün böyük potensialın olduğunu qeyd edib. Palata sədri təhsil, mədəniyyət, turizm və ticarət sahələrində əməkdaşlığın, işgüzar dairələr arasında təmasların artırılmasının əhəmiyyətinə toxunub.

İki ölkə parlamentləri arasında əlaqələrin yüksək səviyyədə olmasına diqqət çəkən Hanafi Gibali bu əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı imkanların mövcud olduğunu deyib. Palata sədri bildirib ki, hər iki parlamentdəki dostluq qruplarının əməkdaşlığı bu baxımdan xüsusən faydalı olacaq.

Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin fəaliyyətinə toxunan Hanafi Gibali Azərbaycanın Parlament Şəbəkəsinin yaradılması təşəbbüsünü və bu çərçivədə gördüyü işləri yüksək qiymətləndirib. O, Misir parlamentinin özünü Parlament Şəbəkəsinin bir hissəsi kimi gördüyünü və Şəbəkə çərçivəsində işbirliyini daha da gücləndirməyə tam hazır olduğunu vurğulayıb.

Azərbaycan nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən Milli Məclisin sədri Sahibə Qafarova qeyd edib ki, Azərbaycanla Misir arasında əlaqələrin hazırkı inkişaf səviyyəsi məmnunluq doğurur. Onun sözlərinə görə, münasibətlərimizin inkişafında dövlət başçıları səviyyəsində qarşılıqlı səfərlər və görüşlər vacib əhəmiyyətə malikdir. Bu mənada, Azərbaycan Prezidenti İlham Əliyevin 2007-ci ilin mayında Misirə rəsmi səfəri, Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisinin cari ilin 27-28 yanvar tarixlərində Azərbaycana işgüzar səfəri Misir-Azərbaycan münasibətləri tarixində mühüm rola malikdir.



Bu gün ölkələrimiz arasında əlaqələrin bir çox sahələri əhatə etdiyini deyən spiker Sahibə Qafarova, həmçinin bildirib ki, Azərbaycanla Misirin beynəlxalq təşkilatlar, xüsusən BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı çərçivəsində birgə fəaliyyəti, qarşılıqlı dəstəyi də məmnunluq doğurur.

Görüşdə spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, ölkələrimiz arasında olan münasibətlərdə parlamentlərin öz yeri var. Bu gün parlamentlərimiz arasında səmərəli əməkdaşlıq qurulub və bu əməkdaşlığı daha da dərinləşdirmək üçün yaxşı imkanlar mövcuddur. Parlament sədrlərinin və üzvlərinin qarşılıqlı səfərləri, görüşləri bu əməkdaşlığın inkişafına mühüm təkan verir. Onun sözlərinə görə, dostluq qrupları öz fəaliyyətləri ilə parlamentlərimiz arasında körpü rolunu oynayırlar.

Həmçinin qeyd olunub ki, parlamentlərimiz arasında beynəlxalq parlament təşkilatları - Parlamentlərarası İttifaq və İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı çərçivəsində də yaxşı əməkdaşlıq təcrübəsi var. Yeni yaranmış Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi də birgə səylərlə parlamentlərarası əməkdaşlığın səmərəli platformasına çevriləcək. Sahibə Qafarova qeyd edib ki, dostluq qruplarının qarşılıqlı səfərləri, müvafiq komitələrin təcrübə mübadiləsi, əməkdaşlığı parlamentlər arasında əlaqələri daha da gücləndirə bilər.

Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi qələbə və öz ərazi bütövlüyünü bərpa etməsindən sonra regionda yaranmış vəziyyət barədə məlumat verən Milli Məclisin sədri qeyd edib ki, hazırda ölkəmiz işğaldan azad edilmiş ərazilərində genişmiqyaslı bərpa-quruculuq işləri aparır. Artıq keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına geri qaytarılmasına başlanılıb. Təəssüf ki, həmin ərazilərdəki bütün şəhərlərimiz, kəndlərimiz, tarixi, mədəni, dini abidələrimiz yerlə yeksan edilib. 67 məsciddən 65-i tamamilə dağıdılıb. Bu da Ermənistanın islamofob mahiyyətinin göstəricisidir. Onun sözlərinə görə, Azərbaycanla Ermənistan arasında normallaşma prosesinin təşəbbüskarının məhz Azərbaycan olmasına və beş əsas prinsip əsasında sülh sazişinin imzalanmasını təklif etməsinə baxmayaraq, Ermənistan danışıqlarda destruktiv mövqe nümayiş etdirir və Üçtərəfli Bəyanatın müddəalarını kobud şəkildə pozur.

Spiker Sahibə Qafarova deyib ki, Ermənistan sülhə maneə yaradan destruktiv davranışlarından çəkinməli və sülh sazişinin imzalanması üçün real addımlar atmalıdır. Bu, regionda uzunmüddətli sülh və sabitliyin təmin olunmasının yeganə yoludur.

**Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.**

**Nicat Novruzoğlu**

*Zaur Əliyev,*
*Dosent*



# Tektonik silah mifi: kimlər belə uydurma mif yaradır

**Əzizlərim Türkiyədə baş verən zəlzələ barəsində çoxlu miflər yazırlar. Guya bu zəlzələ tektonik silahla edilib, Amerika edib, Rusiya edib. Guya bu silahın yaradıcısı Azərbaycanlı İkram Kərimovdu. SSRİ dövründə məxfi laboratoriyada bunu icad edib. Sonra guya Amerikanın gizli kəşfiyyat orqanlarından qaçmaq üçün Afrikaya qaçıb. Mən də bu nağıllara inanıb bir neçə il öncə oxşar status yazmış idim. Amma xaricdə olduğum müəyyən yerlərdə araşdırmalardan sonra nə qədər yanıldığımı anladım.**

**Əzizlərim**

**SSRİ dövründə Amerika və Rusiya arasında çox sahədə rəqabət gedirdi, kosmosu fəth etmək, başqa planetlərə uçmaqdan tutmuş, mifik görünən hansısa dağıdıcı silahların ixtirasına qədər. Hətta Yuri Qaqarin və Nil Armstronqun kosmosa getmələri mifi o qədər güclü idi ki, o dövrdə iki super dövlətin vətəndaşları artıq Ayda torpaq alın ev tikmək barədə düşünürdü. Amma real həqiqətlər var. Qaqarin səmaya qalxıb, amma Kosmosda olmayıb. Yerin cazibə qüvvəsi daxilində hərəkət edib, necə ki, indi özlərini kosmos dövləti elan edib yerin cazibə qüvvəsi daxilində stansiyalar qurub dünyanı aldatmaqla məşğuldular. Bu barədə sonra yazaram. Keçək mətləbə.**

**Doğrudur İkram Kərimov böyük alim, nüfuzlu insandır. Zəlzələ üzrə mütəxəssisdir. Sovetlər dövründə də gizli laboratoriyada çalışıb. Amma silah icad etmək üçün yox. Sadəcə zəlzələlərdən öncə yüksək tezliklərdə baş verən anormal dəyişikliklərə diqqət yetirmək üçün . Əvvəllər bu cür zəlzələ xəbərdarlıqlarını yalnız xüsusi rəqəmsal aparatların köməyi ilə müəyyən etmək olurdu. Amma Kərimovun tədqiqat qrupu, yeni elmi metodla, adıçəkilən cihazlara ehtiyac olmadan, zəlzələ əlamətlərini hələ nüvəsində ikən müəyyən etməyi bacarır. Vəssalam. Nə silah icadı barədə məlumatlar var nə də bu silahı işə salacaq enerji Sovetlərdə və indi Rusiyada yoxdur.**

**O zaman Sovet kəşfiyyatı Amerika və qərb dövlətlərinə guya gizlin informasiya sızdırır. ",1968-ci ildə SSRİ Müdafiə Nazirliyi "Merkuri-18" məxfi proqramı çərçivəsində (kod: NİR № 2M 08614 PM) gizli əməliyyata başlayır. Hədəf tam məxfidir - zəlzələ törədən kütləvi qırğın silahını yaradıb Amerikanı məhv etmək istəyir sovetlər"**

**Bu dezinformasiya o qədər sürətlə yayılır ki, Amerika kəşfiyyatı dərhal işə keçir. Sovetlərin bütün mərkəzlərinə agentlər sızdırılır və Bişkekdə olan laboratoriyaya gəlib çıxırlar. Nəticə: Amerikalılar həqiqəti üzə çıxarırlar. Bu sovet kəşfiyyatının blefidir, belə silah barədə bir çertyoj belə yoxdur. Dərhal sovetlər izi azdırmaq üçün İkram Kərimovun elmi tədqiqat qrupunu bağlayır. Sovetlər biabır olduqlarını başa düşüb belə məlumatı yayırlar**

**"Dünyanın müxtəlif bölgələrinə səpələnən rus kəşfiyyatındakı sızmadan sonra Kərimovun evinə basqın edən Amerika kəşfiyyatı bütün tədqiqatların surətini oğurlamağa nail olur. Bu hadisədən sonra Kərimov öz qrup üzvlərini ancaq Cənubi Afrika Respublikasında təhlükəsiz yaşayacağına dair təminat alır. Amerikalılar isə oğurladıqları araşdırmalar əsasında 1990-cı illərdə, Alyaskada HAARP seysmik stansiyasını qurub ordan təbii iqlimə müdaxilələrə başladılar"**

**Gülməlidir eləmi ?**

**Hazırda İkram Kərimov Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyəti nəzdində Seysmologiya Elmi Mərkəzinin direktoru, fizika-riyaziyyat elmləri doktoru, professordur. İkram müəllim əgər belə silahın müəllifidirsə hazırda dünyanın ən güclü dövlətləri onu çoxdan dəvət edib milyonlarla pul xərcləyib bu silaha sahib olardılar. Belə silah barədə mif doğru olsa idi İkram müəllim indi AMEA-dan ayda 900 manat maaş yox, Amerika Müdaifə Nazirliyində ilinə 9 milyon dollar maaş alardı.**

**Bəs tektonik silah nədir ?**

**Tektonik silah dünyanın geoloji quruluşuna müdaxilə edərək müəyyən bir bölgədə zəlzələ, vulkan və bu kimi təbii fəlakətlər yarada bilən modern silah növüdür. Bu silah ilk dəfə 1992-ci ildə Aleksey Nikolayev tərəfindən ideya olaraq səsləndirilib. Nə İkram Kərimov, nə də Amerikanın alimləri kəşf edib. Rus alimi belə ideya sürüb ki, dünyanın dərin qatlarında yığılmış enerjini seysmik dalğalarla yönləndirərək, güclü zəlzələlər yaratmaq mümkün ola bilər. Amma bunun üçün yet üzündə o dalğalara təsir edəcək enerji mövcud deyil. Hətta nüvə reaktoru belə bu enerjini verəcək gücdə deyil. Yerin daxilində olan yığılmış enerjilər sadə dillə desək yerin damarına neçə milyon vottluq enerji lazımdır ki, ötürüslün ki, yeraltı təkan baş versin. Hazırda dünyada belə enerji verəcək güc yoxdur. Elmin peyğəmbəri Nikola Tesla belə enerjini yaratmaq və dünyanı pulsuz və fasiləsiz elektrik ilə təmin etmək üçün layihə üzərində işləsə də Rotşild ailəsi, Rokfekler ailəsi və digərləri ona mane oldular . O gündən bəri dünyada fizika ilə məşğul olan ən dəyərli alimlərə müharibə elan edildi. 1940-,cı ildən bu günə qədər yüzlərlə böyük elmi işlər aparan fiziklər məhv edilib. Bu barədə də yazacam.**

**Amerikalılar isə 2000-,ci ilin əvvələrində tektonik silah olan HAARP yaratdıqlarını elan etsələr də onun gücü çox zəifdir. Şəxsən özüm bu barədə ciddi sənədlər oxumuşam. Belə silah var. Amma onu Rixter cədvəli üzrə maksimum 3 bal gücündə silkələnmə yarada bilər. Amma uzaq məsafələrdə yox.**

**Ona görə tektonik silahlar barədə miflərə inanmayın.**



*Rüstəm Hacıyev*

# NATO Ukraynada 8 min hərbiçi itirib?

*Rusiyanın Lenta.ru saytı, guya "Mossad"ın məlumatlarına əsasən iddia edir ki, NATO Ukraynada 8 min əsgərini itirib. Ukraynanın itkiləri isə, Rusiyanın itkilərindən 9 dəfə çoxdur. Bu isə qələbəyə oxşamır, yəqin ki "Minsk 3" danışıqlarının başlanmasını gözlənilməlidir.*

*"Gözəl dünya" mövzusu xarici mətbuatın və sosial medianın gündəmindən düşmür.*

*Ukraynada baş verən hadisələr elə sürətlə "inkişaf" edir ki, qərb siyasətçilərinin döyüş meydanında Rusiya üzərində qələbəyə inamının azaldığı müşahidə olunur Ona görə də, onlar düşünürlər ki, necə etmək olar ki, Rusiyanın hücumlarının qarşısı alınsın və bu məğlubiyyət kimi yox, müvəffəqiyyət kimi qymətləndirsin. Özü də həm siyasi, həm də hərbi müvəffəqiyyət kimi.*

*Türkiyənin "Hurseda" mətbu orqanı, "Mossad"dakı (!) mənbələrinə əsasən bildirir ki, Ukrayna bu müharibədə külli miqdarda hərbi texnikası ilə yanaşı 157 min hərbiçi itirib. NATO isə guya 5360 muzdlu, 2458 üzv dövlətlərinin hərbiçisini və 234 hərbi məsləhətçisini itirib.*

*Ruslar iddia edirlər ki, NATO bu müharibədə formal olaraq iştirak etməsini etiraf etməsə də, artıq Ukrayna cəbhəsində 8 min hərbiçisini itirib.*

*The Waşigton Post yazır ki, "Respublikaçılar elə düşünürlər ki, Birləşmiş Ştatlar həqiqətən də münaqişənin həll olunması üçün bütün güclərini sərf edir".*

*Yaddan çıxarılmamalıdır ki, hazırda Respublikaçılar partiyası tək başına ABŞ-ın xarici siyasətini həll etmir. Onlar yalnız aşağı palatata çoxluq təşkil edirlər. Ona görə də, onların NATO-nun siyasətinə müdaxilə etmək gücündə olmaları az ehtimal olunur.*

*Təbii ki, Alyansın sitasətində dəyişikliklər gözlənilir. Özü də qərbin təbliğatçıları bu dəyişikliklərə ukraynalıları da hazır etməyə çalışırlar.*

*Ukrayna prezidentinin bu yaxınlarda istefa vermiş keçmiş ofus işçisi Aleksey Aristoviç bəyan edib ki, müharibə heç də ukraynalıların gözlədiyi kimi bitməyəcək. Ukrayna itirilmiş ərazilərini geri qaytarmaya da bilər və Qərb də bu ssenari ilə razılaşar.*

*Aritoviçin fikirincə "Minsk 3" danışıqlarının başlanması perspektivləri real görünür. Bu da "İki Koreya" ssenarisinin təkrarı ola bilər.*

*Bütün bunlar təbii ki, müharibənin həm cəbhədə, həm də münaqulə ətrafında gedən təbliğat maşınlarında davam etdiyinin göstəricisidir. Əslində Qərb Rusiyaya hərbi məğlubiyyət niyyətindən əl çəkməyib. Ən kiçik imkandan belə istifadə etməklə Krıma zərbə endirəcəyinə şübhə yoxdur. Bu isə müharibənin daha da şiddətlə davam etməsi ilə nəticələnəcək.*

*Rusiya tərəfi isə, verilən bəyənatlardan da göründüyü kimi, məqsədlərinə çatmayana qədər geri çəkilmək fikirində deyil.*

*Yəni, görünən odur ku, Rusiya - Ukrayna müharibəsi sonsuzluğa qədər davam edə bilər.*

# Simonyandan ermənilərə şok: «Elə bilirsiniz, İran bizə sevgisindən yanımızdadır?»

**İran İslam Respublikasının israrla Zəngəzur dəhlizinin açılmaması bir qisim erməniləri xoşbəxt edirdi. Hətta "qardaş rus" itkisindən sonra "qardaş fars" boşluğu doldurur kimi görünürdü.**

Bunu Azərbaycan yaxşı anlayırdı ki, əslində İran heç də Ermənistana "qardaşlıq" missiyası ilə yaxınlaşmır. Öz məqsədlərinə çatmaq üçün ermənilərdən bir körpü kimi istifadə etməyə çalışır. Təbii ki, gözləri qisasçılıq və qandan doymayan erməni toplumu bu sadə görüntünü anlamaq iqtidarında deyil.

Amma bütün gerçəklər bir gün mütləq üzə çıxır.

Adalet.az xəbər verir ki, İranın heç də ermənilərə sevgisi səbəbindən onları dəstəkləmədiyi gerçəyini nəhayət Ermənistan parlamentinin spikeri Alen Simonyan açıqladı. Simonyan erməniləri başa salmağa çalışdı ki, İran geosiyasi dəyişikliklərin qəbuledilməzliyini bəyan edəndə bunu ilk növbədə özü üçün edir:"İran Ermənistana olan böyük sevgisinə görə onun tərəfində deyil. Tehran dövlət maraqlarından çıxış edərək silah satır və onun daşınması ilə məşğul olur. Eyni şey Rusiyaya da aiddir. Sizcə, Rusiya öz maraqlarını bir kənara qoyub deməlidir: "Biz erməniləri çox sevirik. Yaxşı konyakları var. Ona görə də gəlin onlar üçün nəsə edək".



Əlbəttə yox. Bütün ölkələrin, o cümlədən bizim də öz maraqlarımız var", - Simonyan bildirib.

Qeyd edək ki, ötən gün İranın Ermənistandakı səfiri Abbas Bədəxşan Zohuri bildirdi ki, İran və Ermənistan Zəngəzur dəhlizinin açılmasına imkan verməyəcək: "Belə regional proseslər fonunda İran və Ermənistan beynəlxalq sərhədlərin tanınması, mübahisələrin sülh yolu ilə həlli, region xalqlarının hüquqlarına hörmət edilməsi kimi məsələlərdə həmfikirdirlər. Keyfiyyətli və rahat nəqliyyat marşrutları hər iki ölkənin beynəlxalq aləmdə mövqelərini yüksəltməyə imkan verəcək".

Yəqin ki, Simonyan Abbas Bədəxşan Zohurini "qardaş" deyib alqışlayan ermənilərin eyforiyasını söndürmək amacı ilə bu açıqlamanı verdi.

**Əntiqə Rəşid**

# Meksika "tarixi uydurma"nı rəsmən tanıdı

**Bildiyiniz kimi, artıq uzun illərdi tarixdə heç zaman olmayan uydurma "soyqırımı"ı ilə dünyanın gündəminə ermənilər dünyanın gündəliyinə gətirirək ondan siyasi məqsədlər üçün istifadə edirlər. İndi ayrıayrı ölkələrin parlamentlərində deputatlar əl qaldırıb, endirməklə sözdə "soyqırımı"nın guya, 1915-ci ildə olduğu barədə sənədlər qəbul edirlər.**

Adalet.az xəbər verir ki, fevralın 8-də Meksika Senatı ümumbəşəri insan hüquqlarının qorunması zərurətini əsas gətirərək erməni soyqırımını tanıyan sənəd qəbul edib. Bu barədə ER-in Mexiakadakı səfirliyi məlumat yayıb.

Erməni mediası bildirir ki, eyni zamanda, Senat Xarici Əlaqələr Katibliyini Meksikanın Erməni Soyqırımını rəsmən tanımasını dəstəkləməyə çağırır.

Bildirək ki, 1991-ci ilin dekabrında Sovet İttifaqının dağılmasından bir ay sonra , 1992-ci il yanvarın 14-də Ermənistan və Meksika bir-biri ilə rəsmi diplomatik əlaqələr qurdular.

2011-ci ildə Ermənistanın xarici işlər naziri Nalbandyan Azərbaycanın keçmiş prezidenti Heydər Əliyevin abidəsinin Meksikanın əsas Paseo de la Reforma küçəsində qoyulmasına etiraz etdi və abidənin o küçədən götürülməsi təklifini irəli sürərək narahat olduğunu bildirdi . Meksikadakı insan haqları qruplarının xeyli müqavimətindən sonra prezident Heydər Əliyevin heykəli götürülərək şəxsi iqamətgahına köçürüldü.

Anlaşan tərəflər daha sonra yaxınlaşma prosesinə başladı. Beləki, 2014-cü ilin əvvəlində Ermənistan Meksikada səfirlik açıb

2015-ci ilin aprelində Meksika Senatı erməni tarixinə və iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 23-cü ildönümünə həsr olunmuş erməni mədəniyyət həftəsi keçirmişdir İndiyədək Meksika uydurma erməni soyqırımını rəsmən tanımasa da




Mexico City Parkında buna həsr olunmuş abidə yerləşir . Bundan başqa Mexikoda "Erməni Soyqırımının 100 illiyi"nə həsr olunmuş xatirə lövhəsi qoyulub. 2019-cu ilin iyununda Meksika İrəvanda fəxri konsulluq açıb.

Qeyd edək ki, erməni lobbisi və diasporunun məkrli siyasətinə uyan bir çox ölkələrin parlamentləri qondarma "erməni soyqırımı" ilə bağı müxtəlif sənədlər qəbul edib, bu əsassiz iddiaları tanıyıblar.

**1.Uruqvay - 20 aprel 1965, 2004, 2005**
**2 Cənubi Kipr - 1982**
**3.Argentina - 1993, 2003, 2004, 2005, 2006, 2007**
**4.Rusiya - 1995, 22 aprel 2005**
**5.Yunanıstan Yunanıstan - 25 aprel 1996**
**6.Kanada - 1996, 2000 və ən son olaraq 21 aprel 2004**
**7.Livan - 1997, 11 may 2000**
**8.Belçika - 26 mart 1998**
**9.Vatikan - 2000**
**10.İtaliya - 17 noyabr 2000**
**11.Fransa - 18 yanvar 2001**
**12.İsveçrə - 16 dekabr 2003**
**13.Slovakiya - 30 noyabr 2004**
**14.Niderland - 21 dekabr 2004**
**15.Slovakiya - 2004**
**16.Polşa - 19 aprel 2005**
**17.Almaniya - 1 iyun 2016**
**18. Venesuela - 14 iyul 2005**
**19.Litva - 15 dekabr 2005**
**20. Çili - 2007**
**21.Boliviya - 2014**
**22.Braziliya - 2015**
**23.Lüksemburq - 2015**
**24.Bolqarıstan - 2015**
**25. Avstriya - 2015**
**26. Suriya - 2015**
**27.ABŞ- 2019 (50 ştatı ilə birgə)**

**Əntiqə Rəşid**

# Qərbin hərbi sənaye şirkətləri gücdən düşür

**Finikal Times qəzeti yazır ki, Avropa ölkələrində, Rusiya ilə müharibədə Ukraynaya silah-sursat göndərilməsi ilə bağlı böhran yaranıb.**

Qəzetin verdiyi məlumata görə, silah istehsalçıları Avropa İttifaqı fövlətlərinin milli ehtiyatlarını təmin etməklə yanaşı, Kiyevi də silahla təmin etmək istəyirlər. Buna görə də, hərbi nəqsədlər üçün məhsulların hazırlanması Avropa sənayesinə əlavə çətinliklər yaradır.

Funikal Times yaxır ki, Ukrayna tərəfi gündəlik 500 min sursat göndərilməsini tələb edir ki, bu da bir çox böyük olmayan Avropa dövlətlərinin bir illik tələbatına bərabərdir. Bundan başqa bu tələbat sənaye obyektlərində xammal çatışmamazlığı ilə bağlı problemlər yaradır.

Bildirilir ki, böhranın aradan qaldırılması üçün bir sıra silah hazırlayan şirkətlər artıq çox növbəli iş qrafiki ilə işləməyə başlayıb və bunun üçün əlavə işçi qüvvəsu cəkb etmək məcburiyyətində qalıb. Buna baxmayaraq, tez bir zamanda istehsalın həcmini artırmaq mümkün olmur.

Niderlandın müdafiə naziri Kays Ollonqren bəyan edib ki, son yarım ildə Kiyevə 1,07 milyard avro dəyərjndə silah-sursat göndərilib.

Avropa İttifaqı ölkələri və ABŞ bu hesabla bütün hərbi sənaye komplekslərini Rusiyanın üzərinə göndərdiyini müşahidə edə bilərik. Rusiyanın hərbi sənaye kompleksləri isə, İranın göndərdiyi keyfiyyətsuz dronları nəzərə alınmasa, demək olar ki, bütün dünyaya qarşı təklikdə mübarizə aparır.

**Amma nə vaxta qədər? Gedişat göstərir ki, tərəflərdə heç biri bu qanlı müharibədən geri çəkilmək fikirində deyil.**

**Rüstəm Hacıyev**

# *Tayvan prezidentindən və köməkçisindən Türkiyə üçün təqdirəlayiq addım*



**Türkiyəni sarsıdan zəlzələlərdən sonra bir çox ölkə səfərbər oldu və yardım etmək üçün Türkiyəyə qruplar göndərdi.**

Adalet.az xəbər verir ki, Tayvanın prezidenti və vitse-prezidentinin Türkiyə ilə bağlı qərarı alqışlandı. Beləki, Tayvan prezidenti Tsai İnq-ven və vitse-prezident Uilyam Lai, aylıq maaşlarını zəlzələ zamanı yardım olaraq Türkiyəyə bağışlayacaqlarını bildiriblər. Prezident Aparatından verilən açıqlamada, həmçinin Türkiyənin zəlzələ zonasını bərpa etməsinə köməklik göstərəcəklərinə də söz veriblər.

**Qeyd edək ki, Mütərəqqi Demokrat Partiyanın namizədi olan və 2020-ci ildə yenidən prezident seçilən T. İnven Türkiyə kömək göndərib. Tayvan Yanğınsöndürmə İdarəsi 130 nəfərlik komanda, 5 axtarış iti və 13 ton yardım məhsulları ilə artıq Türkiyədə.**

**Əntiqə Rəşid**

# *Şimali Kipr Türk Respublikası da matəm elan etdi: 7 günlük...*



**Xəbər verdiyimiz kimi, zəlzələ zamanı çoxsaylı insan tələfatı ilə bağlı Türkiyədə 7 günlük milli matəm elan edilib. Bu səbəbdən 12 fevral axşamına qədər Türkiyədə bayraqlar yarıya endiriləcək.**

Adalet.az xəbər verir ki, Şimali Kiprdə 7 günlük matəm elan edilib. Məsələ ilə bağlı Şimali Kipr Türk Respublikasının Prezidenti Ersin Tatar tviter hesabında paylaşım edib: "Allah millətimizə qüvvət versin.

Allahdan həyatını itirən qardaşlarımıza rəhmət, yaralananlara şəfa diləyirəm"...

Qeyd edək ki, geofizik Əhməd Ərcanın mediaya müsahibəsində Türkiyənin cənub-şərqində baş verən zəlzələnin gücünü 130 atom bombasının partlaması ilə müqayisə edilə biləcəyini vurğulayıb.

Zəlzələnin nəticəsi o qədər qorxuncdur ki, hazırda ölü sayı 3 min nəfərə çatmaqdadır.

**Əntiqə Rəşid**

# «Qaz kəmərini ABŞ partladıb»

**Jurnalist araşdırmaları üzrə mütəxəsis, amerikan hüquq müdafiəçisi Seymur Xerş öz məqaləsində yazır ki, "Şimal axını" qaz kəmərinin partladılması əməliyyatı, ABŞ-ın xüsusi xidmət orqanları tərəfindən həyata keçirilib.**

Jurnalistin ehtimallarına görə, əməliyyatı sualtı qayıqlardan istifadə etməklə, ABŞ-ın hərbi dəniz qüvvələri həyata keçirib.

Əməliyyar planını Co Baydenin milli təhlükəsizlik məsələləri üzrə məsləhətçisi Cek Sallivan təqdim edib. Planın müzakirəsində dövlət katibi Entoni Blinken və onun müavini Viktoriya Nuland iştirak ediblər.

HDQ-ı, əvvəlcə qaz kəmərini sualtı qayıqlardan atılan torpedolardan istifadə etməklə sıradan çıxarmağı təklif etsələr də, Mərkəzi Kəşviyyat İdarəsi daha gizli variantlardan istifadə etməyi təkid ediblər. Bunun üçün MKİ-si diversiyanın həyata keçirilməsi üçün daxili işçi qrupu yaradıb.



Mərkəzi kəşviyyat idarəsi xüsusi təyinatlılarından istifadə edə bilməzdi. Çünki o halda konqressin icazəsi tələb olunur. Lakin əməliyyata hazırlıq və onun həyata keçirilməsi gizli qalmalıydı. Ona görə də, hərbi dəniz qüvvələrinin sualtı qayıqlarından və sualtı üzgüçülərindən istifadə etmək qərarına gəliblər. Minalanacaq ərazilər Norveçin hərbi dənizçiləri ilə birlikdə əvvəlcədən müəyyənləşdirilib. Sualtı üzgüçülər təlim adı ilə, elmi- təhqiqat və peşəkar konstruktor layihəsi əsasında hazırlanmış minaları müəyyən edimiş ərazilərə yerləşdiriblər. Minalar uzaq məsafədən, təyyarədən atılan xüsusi avadanlıqlardan istifadə olunmaqla pult vasitəsilə həyata keçirilib. Seymur Xeyşin sözlərinə görə, Ağ Evin və MKİ-nin rəhbərlərinin bu partlayışla heç bir əlaqələri olmadıqları ilə bağlı bəyənatları yalandır.

Xatırladırlq ki, ötən ilin 27 sentyabr ayında Baltik dənizinin dibi ilə çəkilən " Şimal axını" və "Şimal axını-2" qaz kəçərlərində partlayış baş vermişdi. Almaniyanln müstəntiqləri bu partlayışda qərb dövətlərindən birinin əli olduğunu düşündüklərini bildirmişdilər. Rusiya tərəfi partlayışın ABŞ-ın xüsusi xidmət orqanları tərəfindən həyata keçirildiyini iddia etsələr də, Birləşmiş Ştatlar bu partlayışda əli olduğunu qətiyyətkə təkzib etmişdi.

**Rüstəm Hacıyev**



Rza Rzayev
Rejissor, aktyor

# Mahir Muradov nümunəsi

*Hamımızın bildiyi bir söz (həqiqət) var, amma onu heç kim demir.*

*Əvvəl polisdə, prokurorluqda işləyənlərə "sistemdə işləyir"-deyirdilər, üz-üzə gələndə hamının üzünə gülümsədiyi sistem işçilərinin haqqında daldada yaxşı danışmırdılar.*

*Daldada edilən söhbətlərin obyektiv və subyektiv tərəfləri var.*

*İnsan psixologiyası belədir ki, özünü heç bir halda günahkar hesab etmir. Sistem işçisi də peşəkar və ədalətli olanda qanunun tələblərinə uyğun hərəkət edir, vicdanlı və ən əsası insan olanda isə qanunun ötəsinə keçə bilir, insanlıq qanununu əsas götürür.*

*Elə bir dövrdə yaşayırıq ki, insanlar "Allah heç düşmənimin də işini polisə, prokurora salmasın!" - deyir.*

*Mahir Muradov yaşadığım rayonda prokuror işləyirdi. Yenə hamıya görə dözməli olduğum vəziyyətə dözə bilməmişdim, dayanacaqda dayanan xanıma maşın saxlayan sürücüyə bir yumruq vurmuşdum, adamın əməli nə qədər alçaq olsa da, arxası yuxarıya bağlı çıxmışdı.*



*Və bu hadisədən bir neçə il qabaq yenə qanunu "pozmuşam", hadisənin üstündən bir neçə ay keçib, bölməyə dəvət edirlər, əlimə qandal vururlar, guya istintaqdan yayınmışam, ölkədən qaçmışam və baş verən hadisənin səbəbləri, məzmunu tam dəyişdirilib, xəbərim olmadan cinayət işi açıblar, bölmədən idarəyə aparırlar, prokuror təqdimat verməlidir ki, məni məhkəməyə aparsınlar, haqqımda həbs qətimkan tədbiri seçsinlər.*

*Arxamca gələnləri polis idarəsindən prokurorluğa göndərirlər, deyirlər, "Bizlik bir şey qalmayıb, artıq sənədlər prokurorluqdadır, prokuror sənədə qol çəkən kimi məhkəməyə aparacağıq".*

*Bu hadisəni 2011-ci ildə yazdığım bir məqaləmdə belə təsvir etmişdim: "Son dəfə dalaşanda Naxçıvanlı polislər və müstəntiqlər mənə müştəri gözü ilə baxdıqları halda, bakılı prokuror - "Belə gənci qorumaq lazımdır" - dedi və bütün məsuliyyəti öz üzərinə götürdü".*

*Adını çəkməmişdim, çünki Mahir Muradovun mövqeyi daha da möhkəmlənmişdi, o isə bu möhkəmlənmədən istifadə etməmişdi. Sonra özünə daha sakit yer seçdi, prokurorluqdan Konstitusiya məhkəməsinə bir üzv kimi sığındı.*

*Xarakter hadisələrə ardıcıl göstərilən eyni məzmunlu düşüncə və münasibət formasıdır. İnsan çətin anda, ehtiyac zamanı mütləq xarakterini (var olanı) qorumalıdır. Pula və vəzifəyə görə hər şeyə gedənlər, sonra yaxşı pul qazansalar da, böyük vəzifə tutsalar da, "keçmişin zibilxanası"ndan çıxa bilmirlər.*

*Vəzifə tutanlardan həmişə uzaqda dayanmışam, tanıdığım yaxşılar yaxşı sözü haqq etsələr də, açıq deməyə çəkinmişəm, sonraya saxlamışam...*

*İlk hadisədə üz-üzə gəlməmişdik, yəni onu şəxsən görməmişdim və tanımırdım, amma qəlbimdə ona qarşı hörmət yaranmışdı.*

*İkinci hadisədə şəxsən özümü qəbul etdi, çünki bu dəfə polislər məni qorumaq istəyirdi, amma yuxarıdan həbsim üçün tapşırıq prokurora gəlmişdi, yəni Mahir Muradova. O, bu işlə maraqlananda deyiblər ki, "Keçən dəfə kömək etdiyiniz oğlandır".*

*Hadisənin necə baş verdiyini soruşdu, diqqətlə gözlərimin içinə baxırdı, gözlərinin içinə hadisəni olduğu kimi ətraflı danışdım, gözlərini bir an olsun çəkmədi, söhbətimiz bir az uzandı...*

*Sonda gözlərini gözlərimdən çəkmədən dedi, "Səni bu dəfə tutmaq istəyirdim, yenə tutmayacağam, amma mən gedəndən sonra səni tuta bilərlər..."*

*Və 2018-ci il, FETÖ-çü məktəb direktoru ilə aramızda baş verən hadisə ilə bağlı yenə haqqımda əsassız, bütün qanunları tapdalayaraq cinayət işi açdılar, yenə səbəb eyni, yenə tanış maddə, yenə "xuliqanlıq".*

*Məhkəmə prosesi başlayır, Dövlət İttihamçısı, yəni prokuror tanış gəlir, nə qədər fikirləşirəm, haradan tanıdığımı xatırlaya bilmirəm, savadlı və məntiqlidir. Proses vaxtı saxta ittihamı müdafiə etsə də, mənə hörmətlə yanaşır, 3-4 prosesdən sonra qurama şahidlər dindirilir, prokurorun rəngi qızarır, hakimə başını bulayır, fikrə gedir, proses bitir. Çöl qapıda prokuror ilə rastlaşıram, deyir, "Gələn prosesdə mən olmayacağam, bu işdən imtina edəcəyəm". Səbəbini soruşuram. Deyir, "Qalsın sonraya..." (gələn prosesə başqa prokuror çıxır və hər mənada başqa...)*

*Prosesdən sonra vəkilim ilə çay içirik, prokurorun kimliyini, əvvəl harada işlədiyini soruşuram, deyir, "Əvvəl Nizami rayonunda işləyib, prokurorun köməkçisi olub, Mahir müəllimin".*

*Vəkilimə keçmişdə baş verənləri danışıram və deyirəm, "Mahir müəllim Baş Prokuror olsaydı, bütün prokurorlar onun ədalətindən, vicdanından, insanlığından və ən əsası, kişiliyindən pay götürərdilər, necə ki, keçmiş köməkçisi götürüb..."*

*Bu məsələdə millətimizin bəxti gətirmədi, Mahir Muradov nə baş prokuror, nə də Ali Məhkəmənin sədri olmaq istəmədi, məhz istəmədi...*

*Adamlar var ki, əllərindəki imkanı pislik etməyə istifadə edirlər, Mahir Muradov isə üstündə yaxşı iş olmayanları belə yaxşılıqla yola verirdi.*

*Qızıl zibillikdə öz dəyərini itirmədiyi kimi, yaxşı insan da pis adamların içində sona qədər öz dəyərini qoruyur.*

*Mahir Muradov bütün pisliklərin içində ancaq yaxşılıq edən biri idi.*

*Və ən dözülməzi, dayanacaqda dayanmış qıza maşın saxlayan oğlana yumruq vurduğum yerdən hər gün keçirəm, indi orda hər axşam, yolun qırağında bir "dəstə" dayanır, hamının gözünün qarşısında bədən alveri gedir və həmin yol əsas yoldur, kimisi qızı ilə, kimisi həyat yoldaşı ilə o yoldan keçir, yolda duranları, onlara maşın saxlayanları da hamı görür, heç kim də buna etiraz etmir, çünki hər şey adiləşib, ata-bala yanında da, ər-arvad gözündə də.*

*Niyə, səbəb nədir?! Niyə kimsə etiraz etmir?! Niyə cəmiyyətimiz getdikcə mənəviyyatsızlaşır?! Niyə ölkəmizə turistlər gəzməyə yox, başqa məqsəd üçün gəlirlər?! Niyə turistlər mərkəzi meydanımızda hamının gözü qarşısında gələnə-gedənə baxırlar, ilişirlər?! Niyə "adımız" belə çıxıb? Niyə bizi belə tanıyırlar? Niyə mərkəzi küçələrimiz, yollarımızın qıraqları hamının gözünün qarşısında belə çirkinləşir?!*

*Və hamı da bu baş verənləri "yeyir"! Bilirsiniz niyə?*

*Çünki indi Mahir Muradov kimi Prokurorlar yoxdur, çünki indi Mahir Muradov kimi polis rəisləri yoxdur, çünki indi Mahir Muradov kimi Məhkəmə Sədrləri yoxdur!*

*Və ən çəkilməzi, bu baş verənlərə etiraz etsən, birinə bir şillə vursan, hələ onlara (yolun kənarında bədən alveri edənlərə) maşın saxlayanları demirəm, "yolda duranların", yəni bədənini satanların arxasından polis rəisləri, prokurorlar, məhkəmə sədrləri çıxacaq, dərini dartıb boğazından çıxaracaqlar...*

*Və ən acınacaqlısı, necə ki, gənc müəlliməni tək otağına çağırıb, adının mənasını soruşan, sonra sənin adının mənası gözündən od yağan, atəş yağan deməkdir deyən FETÖ-çu məktəb direktorunun arxasından polis rəisi, prokuror, məhkəmə sədri çıxdı! Tapşırıq və pul qarşılığında onu qorudular, amma sabah övladlarını belələrindən qoruya bilməyəcəklər.*

*Mahir Muradovu həyatda cəmi bir dəfə görmüşdüm və belə görmüşdüm, belə tanımışdım.*

*Və iki il bundan öncə cəmiyyətimizdə xüsusi hörmətə malik, çoxları tərəfindən sevilən, tanınmış bir sima ilə təsadüfən görüşdük, baş verən son hadisəni bilirdi, söhbət etdik, dedi - bu işi ədalətli həll etsə, Mahir müəllim həll edə bilər, biz ondan xahiş edək səni qəbul etsin. Onu tanıdığımı, necə tanış olduğumuzu danışdım. Dedi - lap yaxşı, onda get yanına, danış hər şeyi olduğu kimi. Dedim - heç vaxt. Dedi - onda biz gedək! Etiraz etdim. (Səbəbini həmin şəxsə danışdım, burada yazmağa ehtiyac duymuram, amma gec-tez hamı o hadisəyə şahid olacaq və səbəbini biləcək.)*

*Və ən ağır gələni, xəstə olduğunu da həmin insan söyləmişdi, çox üzülmüşdüm. Belə bir şəxsin belə ağır xəstəliyə tutulmasını qəbul edə bilmirdim.*

*Üzümü göyə tutub Allahı görmək, ondan soruşmaq istəmişdim. Bu qədər "əlində" qaldıqların, öhdəsindən gələ bilmədiklərin, yaratdıqlarına zülm edənlər varkən? Niyə o, niyə də, niyə?*

*Xərçəng ağır xəstəlikdir, ən ağırı isə yaxşı insanların da bu xəstəliyə yaxalanmasıdır.*

*Yaxşılıq insanları doğmalaşdırır! Yad bir insanın vəfatı çoxlarını kədərləndirirsə, deməli, o insan ölməyib, dünyasını dəyişib...*

*Bir neçə insanın "ölümünə" ağlamışam, özümü saxlaya bilməmişəm, gözümdən axan yaşın səsinə diksinmişəm.*

*Xəbərləri oxuyuram, Mahir Muradov vəfat edib, gözüm dolduğundan yazını sona qədər oxuya bilmirəm, içimi çəkirəm, başımı divara dayayıram, göyə baxıram, hər yer ağappaqdır, kəfən rəngində...*

# Azərbaycanda bu məhsullar bahalaşdı

**2023-cü ilin yanvar ayında istehlak qiymətləri indeksi 2022-ci ilin yanvar ayına nisbətən 113,6 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 117,5 faiz, qeyri-ərzaq məhsulları üzrə 112,2 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 109,7 faiz təşkil edib.**

Dövlət Statistika Komitəsindən (DSK) Adalet.az-a verilən məlumata görə, 2023-cü ilin yanvar ayında istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 101,0 faiz təşkil edib.

Bu ilin yanvar ayında əvvəlki aya nisbətən ayrı-ayrı ərzaq məhsullarından daha çox bahalaşma manna yarmasının, düyünün, unun, peçenyenin, qoyun və toyuq ətinin, balıq konservlərinin, südün, xamanın, pendirin, narın, almanın, heyvanın, naringinin, bananın, xiyarın, pomidorun, soğanın, kartofun, yerkökünün, şəkər və şəkər tozunun, konfetlərin, çayın, kola içkisinin, arağın, ucuzlaşma isə əsasən qarabaşaq yarmasının, mərcinin, günəbaxan yağının, portağalın, limonun və kələmin qiymətlərində müşahidə olunub. Digər ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

2023-cü ilin yanvar ayında qeyri-ərzaq məhsulları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 101,1 faiz təşkil edib. Cari ilin yanvar ayında əvvəlki ayla müqayisədə qeyri-ərzaq məhsullarından daha çox bahalaşma işıq lampalarının, sintetik yuyusu vasitələrin, diş pastalarının, sabunların, şampunların, dərman vasitələrindən analginin, ucuzlaşma isə əsasən kəsilmiş taxtaların, yağlı boyaların, sementin və yazı kağızlarının qiymətlərində müşahidə olunub. Digər qeyri-ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.



2023-cü ilin yanvar ayında əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,5 faiz təşkil edib. Cari ilin yanvar ayında əvvəlki ayla müqayisədə əhaliyə göstərilmiş ödənişli xidmətlərdən daha çox bahalaşma mobil telefonlarla danışıq haqlarında, məişət cihazları, minik avtomobilləri və mənzillərin təmiri, stomatoloji, ictimai iaşə, bərbərxana və kosmetoloji xidmətlərin qiymətlərində, ucuzlaşma isə hava nəqliyyatı ilə beynəlxalq sərnişindaşıma xidmətlərinin qiymətlərində müşahidə olunub. Digər ödənişli xidmətlərin qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

# «Türkiyə məhv olsa, alçalsa sevinərəm» – Deputat Həsənovdan həyasız müsahibə

**"Türk dövləti məhv olsa sevinərəm, zəlil olsa, alçalsa daha çox sevinərəm və bu mənim millətimə deyil, türk millətinə münasibətdir.**

**Adalet.az xəbər verir ki, bu sözləri Ermənistan parlamentinin hakim "Mənim addımım" fraksiyasından olan kürd millət vəkili Knyaz Həsənov deyib. O "Hraparak" saytının müxbiri Vahe Makaryana Türkiyəyə nifrət dolu müsahibə verib. Jurnalist Ermənistanın Türkiyəyə yardım etməsinə aid sual ünvanlayıb:"Biz indi 2 il əvvəl bizi qıran Azərbaycanın yanında olan Türkiyənin yanındayıq".**



Kürd deputat onun sualını belə cavablandırıb: Siz bilirsiniz ki, Türkiyədə çox sayda, 25 milyonluq kürd yaşayır.

Deyə bilərəm ki, həmin zəlzələnin qurbanlarının böyük əksəriyyəti həm Türkiyədə, həm də Suriyada əsasən kürdlərdir.

Həmin zəlzələ əhalisinin 95 faizinin kürdlərdən ibarət olduğu Diyarbəkir şəhərindən başlayıb, sonra Malatyadan keçərək davam edir və nəhayət Suriya sərhədlərinə çatır, orada yenidən həmin yaşayış məntəqələrində kürdlər yaşayır və kürdlərin böyük əksəriyyəti bu zəlzələdən zərər çəkib. Zəlzələ ilə bağlı xalqıma başsağlığı veririk".

Jurnalistin "Nikol Paşinyan Türkiyə ilə münasibətləri yaxşılaşdırmaq istəyir" sualına şovinist deputat bu fikri bildirib:" Yaxşı, münasibətləri yaxşılaşdırmaq dostluq etmək demək deyil. Düşmən dövlətlə münasibət qurmaq olar, əgər bu münasibətlər erməni millətinin mənafeyinə uyğun olarsa, mən bunun tərəfdarıyam".

**Jurnalist:** "Ermənilər bu zəlzələni Allahın cəzası olduğunu söyləyirlər".

**Knyaz Həsənov:** "Bununla bağlı əhval-ruhiyyə başqadır. Bəli, bir tərəf Ermənistanın dost olmaq istədiyi qonşu Türkiyəyə kömək əlini uzatmalı olduğunu deyir, digər tərəf isə bunun Allahın cəzası olduğunu söyləyərək qəzəblənir. qüdrətli Türkiyəni milyonlarla cəzalandıra bilmədik, indi bəlkə bizim əvəzimizə Allah cəza verir. Mən də bunun tərəfdarıyam ki, Allahın cəzası insanların cəzasından daha güclüdür. Ancaq dəqiq deyə bilmərəm ki, bu tək Türkiyə üçün bir cəza idi, xeyir! Bu gün mənim millətimin 90% və bəlkə də türkdən daha çox kürd əziyyət çəkdi".

Sonra K.Həsənov türklərin kürdləri sevmədiyini iddia etməklə iftiraları sıralamağa başlayır:"Amma türklər də əziyyət çəkib, bu təkcə kürdlərin məsələsi deyil, buradan ora Türkiyə dövlətinə yalnız türklərin hökuməti kimi baxırlar. Türkiyə daxildə kürdləri sevmir və bəlkə oradakı insanlar bu zəlzələnin kürdlərə qarşı olmasına sevinirlər. Mən Türkiyədə türklərin də, kürdlərin yaşadığı bütün şəhərləri tanıyıram, elə bir qəsəbə yoxdur ki, orada kürd olmasın. Bizim Türkiyəni məhv etməyə imkanımız yoxdur. Əslində biz ümidimizi Allaha bağlamışıq ki, Allah Türkiyəni məhv edəcək".

Kürddən daha çox separatçı, şovinist, "nijde"çi erməni kimi düşünən və danışan Həsənov Türkiyəni məhv etməyin yollarını da açıqlayır: "Bunun üçün biz kürdlərə dəstək lazımdır. Türkiyədə yaşayan 25 milyonluq kürdlərə böyük bir fövqəldövlət yardım etsə, silahlandırsa və s. olsa, Türkiyənin kürdlər vasitəsilə məhv edilməyəcəyinə şübhə etməyin. Əminəm ki, məhv olacaq".

Jurnalistin "bəs kürdlərin ermənilərə münasibəti necədir?" sualına ermənidən daha çox erməni olan kürd Həsənov bu cavabı verib:"Çox səmimi. Hətta bu 44 günlük müharibədə Avropada yaşayan kürdlər ermənilərə çox dəstək verdilər, hətta Ermənistana əlil arabaları göndərdilər və Avropada baş verən bütün nümayişlərdə ermənilərlə birlikdə kürdlər də öz bayraqları ilə iştirak etdi və Türkiyə və Azərbaycanın Ermənistana təcavüzünü pislədilər".

***P.S.** Dünya 50 ildir qondarma erməni soyqırımını gündəmdə saxlayır. Təbii ki, əllərində tutarlı fakt olmadığı üçün hüquqi qaydada hərəkətə keçə, Türkiyədən böyük məbləğdə təzminat qoparıb Ermənistana verə bilmirlər. Yeri gəlmişkən, əgər Ermənistan vətəndaşı, dövlətin rəsmisi, rəsmi siması bu qədər separatçı, şovinist, nifrət doludursa, bir dövlətin məhv edilməsini, xalqın parçalanmasını riqqətlə istəyirsə, məncə belə bir toplum elə soyqırıma məruz qalacaq bir münasibəti haqq edirlər!*

**Əntiqə Rəşid**

# Ekspert: "Bu cür hallar yolverilməzdir"

**Son günlər Türkiyədə baş verən təbii fəlakət qardaş ölkə olaraq bizi də kədərləndirib. Uçmuş binaların, o uçqunlar altında qalan yaralı insanların və fəlakət nəticəsində dünyasını dəyişənlərin sayı olduqca üzücü nəticədir. Məlum məsələdir ki, baş vermiş hadisə bizim cəmiyyətdə də psixoloji travma yaradır. Hər kəsin beynində belə bir sual yaranır: görəsən bizim yeni inşa edilən binalar zəlzələyə nə dərəcədə davamlıdır?**

Gündəmi zəbt edən məsələ ilə bağlı təhlükəsizlik üzrə ekspert Elmar Nurəliyev Adalet.az -a danışıb.

Ekspertin sözlərinə görə, təbii fəlakətlər qaçılmazdır: " Fövaladə hallardan heç kəs sığortalanmayıb.

Amma qabaqlayıcı tədbirlər görməklə baş verəcək hadisədən minimal zərərlə qurtulmaq mümkündür. İlkin tədbirlər hər bir yerin təhlükə riskini qiymətləndirməkdən başlayır.



İstər yaşayış binaları, istər ictimai-iayişə obyektləri , istər yolun infrastrukturu, reklam lövhələri- bir sözlə, bütün aşma və uçma təhlükəsi olan hər şey zəlzələyə davamlı şəkildə qurulmalıdır. Digər məsələ isə həmin məkanlarda yaşayan şəxslərin yetərincə məlumatlı olmasıdır. Yəni hadisə baş verən zaman nə etməlidir, necə davranmalıdır?

İnsanlar hadisə baş verən zaman ilkin davranış qaydalarını bilməlidir. İstər şəhər, istər qəsəbə, istərsə də kənddə yaşayan hər kəs ilkin təhiükəsizlik qaydalarından xəbərdar olmalıdır.

Hər bir şəxsin evdə özünün müəyyənləşdirdiyi ən rahat yerdə "təhlükəsizlik çantası" olmalıdır. Bu çantada fanar, fit, ilkin dərman vasitələri, vacib sənədlər, bu kimi lazımi əşyalar olmalıdır.

Binalara kənar müdaxilələrin olması, layihələrdən kənara çıxmaq, birinci mərtəbədə sütunların sökülməsi və ya yerinin dəyişdirilməsi, əlbəttə, binanın zəlzələyə dayanıqlılığını sual altında qoyur. Yəni bu cür hallar yolverilməzdir.

Heç kəs hadisəsinin nə vaxt baş verəcəyini deyə bilməz. Ancaq fövqaladə vəziyyətə qarşı tədbirli olsaq, fəlakətdən daha az ziyan görmüş olarıq".

**Əntiqə Kərimzadə**

# "Ukrayna hücum etmək əvəzinə, etibarlı müdafiəyə çəkilməlidir"

**Hərbi analitik, Rusiya təhqiqatçıları Mərkəzinin direktoru Maykl Kofman, Ukrayna hərbi qüvvələrini hücum etməyə yox, etibarlı müdafiəyə çəkilməyə çağırıb.**

Bu barədə The New York Times yazıb. Ekspert qeyd edib ki, güçlü müdafiə xəttinin qurulması, Rusiya hərbi qüvvələrinin hücumlarını zəiflədə bilər.



Kofman güman edir ki, Ukrayna tərəfi müdafiəyə çəkilməklə, Rusiya hərbiçilərinə Donbassda möhkəmlənməyə imkan yaradar.

"Ukraynanın cəbhədə üstünlüyü, Qərbin ona verdiyi silahların davamından asılı olacaq" - deyə özünün Twitter səhifəsində yazan Kofman, daha sonra əlavə edib ki, Qərb Ukraynaya göndərdiyi hərbi dəstəyi bir an belə gecikdirərsə, Ukrahna hərbiçilərinin hücumda müvəffəqiyyət illüziyalarını heçə endirə bilər.

ABŞ və Qərb də bunu yaxşı anlayır və ona görə də, hərbi yardımın göndərilməsi məsələsinə ciddi yanaşır.

Birləşmiş Ştatların prezidenti Co Bayden Konqressə illik hesabatında bəyan edib ki, ABŞ sonacan Ukraynaya istədiyi qədər hərbi dəstək verəcək.

**Rüstəm Hacıyev**

Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az



# Dünyanın ən təmiz adamı...

## *Allahın dərgahına qovuşdu*

**Mahmud Qacar! Özü kimi təmiz, özü kimi saf və özü kimi duru ziyalı idi. Heç kimə bənzəmirdi, yalnız özünə oxşayırdı! Fevralın 8-də onun "vatsap"ından mənə bir xəbər gəldi: "Mahmud Qacar ömrünü sizə bağışladı. Başımız sağ olsun! Xalidə". Mənim üçün çox həm acı, həm də üzücü xəbər idi. Ən azından ona görə ki, mən onunla tez- tez telefonda danışır, səhhətindən xəbər tutur və təsəlli verirdim ki, qorxma! Bu xəbər isə məni göz yaşları içində qoydu!**

**Çünki Mahmud Qacar böyük ziyalı idi. İstedadlı şair, publisist və jurnalist idi. Mən universistetin I kursunda oxuyanda, o, V kursda idi. Və sinif nümayəndəsi idi. Birinci kursun tələbələrinə Mahmud çox böyük sevgi ilə yanaşardı. Biz ondan utanmaq əvəzinə, o bizdən utanardı. Elə həmişə də bax belə: sadə, səmimi və utancaq idi.**

**O, dünyanın ən təmiz, ən utancaq və ən qeyrətli insanlarından biri idi. Çox təəssüf ki, belə istedadlı, təmiz və vətənpərvər ziyalı öz dəyərini və qiymətini ala bilmədi. Amma o, şair kimi də, publisit kimi də, jurnalist kimi də adını Azərbaycan tarixinə qızıl hərflərlə yazdı. Yəni heç kəs deyə bilməz ki, Mahmud bu dünyada hansısa vəzifəli adamdan, hansısa imkanlı adamdan nəsə umub. Onun bu dünyaya heç bir borcu yox idi. Dünyanın və insanların ona borcu var idi. Biz ona yox, o bizə halallıq verməlidir. Çünki biz müxtəlif zamanlarda onun haqqına girdik, dəyərini verə bilmədik. İstedadlı şair və publisist kimi qiymətləndirmədik. Amma Mahmud Qacar nə bu dünyadan, nə də dostlarından narazılıq elədi. Ən yaxın dostlarından biri olan Oqtay Əliyev həmişə ona arxa durdu, dayaq oldu. Hətta Mahmudla əlaqəm kəsiləndə onun barəsində Oqtay müəllimdən xəbər tuturdum. Oqtay müəllim Mahmudu hamıdan çox istəyirdi: qardaşı qədər, əzizi qədər, balası qədər əzizləyirdi!**



**Mən də Mahmud Qacarı çox istəyirdim. Çünki uzun illər onunla dostluq edərdim. Xalidə xanıma göndərdiyim mesajda da dedim ki, mən dost itirmədim, qardaş itirdim. Belə ki, Mahmud kimi təmiz, sadə, səmimi insanlar az olur. Düşünürəm ki, onun Allahın dərgahına qovuşması bizim mətbuatımıza, poeziyamıza, publisistikamıza və jurnalistikamıza çox böyük itkidir. Və Mahmud Qacar ölməyib! Mən bunu qışqıra- qışqıra deyirəm! O, şeirlərində, yazılarında, dostlarının və əzizlərinin qəlbində həmişə yaşayacaqdır. Əgər cənnətə bu dünyada min adam düşübsə, əlimin içi kimi bilirəm ki, bunun biri də Mahmud qardaşımızdır!**

**Dünyanın ən təmiz adamı, dünyanın ən utancaq adamı, cənnətin mübarək. Sənin yatdığın o torpaq bu qış günündə soyuq deyil. O torpaq bilsə ki, sən yatırsan, sən orda uyuyursan və bu torpaq da səni həmişə isidəcək və qoruyacaq! Çünki sən artıq böyük Mahmud Qacar oldun!**

**Və sən artıq Vətən oldun! Bir daha Vətənin mübarək!...**

## *Gedişhaqqı bahalaşdı, bəs xidmət necə olacaq?*



**Hər dəfə qiymətlər bahalaşanda deyirlər ki, xidmətin də keyfiyyəti yüksələcək. Məsələn, bir vaxtlar suyun qiyməti qalxanda dedilər ki, suyun keyfiyyəti yüksələcək, mənzillərə fasiləsiz su veriləcək. Amma qiymətlər artandan sonra bizim yaşadığımız Yeni Günəşli yaşayış sahəsinin "D" massivindəki 13-cü binada nə suyun keyfiyyəti yaxşılaşdı, nə də fasiləsiz su verildi. Yəni, indi bizim binaya səhər və axşam saatlarında 2 saat su verilir.**

İndi də avtobuslar və metronun qiymətinin 10 qəpik bahalaşması, onların dediyinə görə, xidmətin keyfiyyətini yaxşılaşdırmalıdır. Ancaq fevralın 3-dən qiymətlər bahalaşsa da, avtobus və metroda xidmət keyfiyyəti elə əvvəlki kimidir.Bilmirik, bu məmurlar bahalaşma üçün nə qədər bəhanələr gətirəcək və yalanlar danışacaqlar?!

## *Bananın qiyməti niyə bahalaşdı?*



**Bir ay bundan əvvəl 1kq bananı 2manat 50 qəpiyə və ondan da ucuz satırdılar. Amma bu günlərdə yaşadığımız massivdəki "Ballı market"dən alış-veriş edərkən, bananın bahalaşdığını gördük. Baxdıq ki, 1kq bananı 3manat 18 qəpiyə satırlar. Satıcıya iradımızı bildirəndə dedi ki, biz heç nəyi bahalaşdırmamışıq. Bostan-tərəvəz və meyvələrin qiyməti topdansatış yerlərində qalxır. Biz də ona uyğun qiymətlər təyin edirik.**

Əlbəttə, eşitdiyimizə görə bütün sahələrdə olduğu kimi, bananın satışında da monopoliya mövcuddur. Ona görə də qiymətlər sabit qalmır, bu məhsulu gətirən şirkət hansı qiyməti diqtə edirsə, o qiymətə də məshullar əhaliyə satılır. Heç banan yeməsək də olar. Çünki o, bizim milli meyvələrdən deyil. Təki digər meyvələrin və yerli məhsulların qiyməti qalxmasın. Yerli məhsulların qiyməti qalxmasa, alıcılar da çox razı olarlar!

**Emil FAİQOĞLU**

## *Hansı ölkə instagramdan çox istifadə edir?*

**Adalet.az "Data Reportal"ın siyahısını sizə təqdim edir.**

**1. Türkiyə-21,4 Saat**
**2. Argentina-17,6 Saat**
**3. Braziliya-15.4 Saat**
**4. Hindistan-14.9 Saat**
**5. Dünya üzrə orta göstərici 12 saatdır**
**6. Rusiya - 9,6 Saat**
**7. Kanada - 9,5 Saat**
**8. Sinqapur - 9,5 Saat**
**9. Avstriya - 8.6 Saat**
**10. Fransa - 8,6 Saat**
**11. Almaniya-8,5 saat**
**12. Böyük Britaniya - 7,7 saat**
**13. Amerika Birləşmiş Ştatları - 7.7 saat**
**14. Meksika - 6.9 Saat**
**15. Cənubi Koreya - 6,1 Saat**

**Emin**

**(əvvəli ötən şənbə saylarımızda)**

***

Cənab Başçı:

- Ə, Şakirsən-nəsən, Bəxtiyar müəllim deyib, mən də sənə iş təklif etmişəm, niyə bəyənməmisən? Qaçqın adamsan, yetim qızsan, qıvrıl yat.

Şakir:

- Məllim, mən yetim qız deiləm, yetim oğlanam. Dədəm də nemesdərnən müharibədə həlak oluf, qəbri də Mazdoxdadı. Pulum olmuyuf ki, gedib bir dəfə ziyarət eliyim. İkinci də, sağ ol, yəqin ki, mənə olunan təklifdən xəbəriniz var. Bu yataxxanalardakılar gözünü dikif çörəhpuluna. Onların çörəhpulusu ilan sümüyüdü, adamın boğazında qalar. Amma sizlərin nətəər boğazında qalmır, Allah bunu nətəər götürür başa düşmürəm. Həm də mən iş tapmışam, musiqi məktəbində qarmon məllimiyəm. Siz də şairə zəng edin deyin ki, maa iş düzəltmisiz, onun da ürəyi açılsın, siz də kefinizdə olun. Bəxtiniz gətirif belə rəyisiniz var. Yoxsa bu camahatı yığıf gətirib binana od vuraram.

Cənab Başçı da Şakirin qırımını görüb özünü yığışdırdı.

- Eşitmişəm yaxşı qarmon çalırsan, bəlkə bir nəsə çalasan qulaq asaq?!

- Mən qarmonu dostdarçün çalıram, sifarişnən çalmıram.

Rəis gördü ki, söhbət qızışır, girdi araya:

Günorta qayıdanda gördü ki, fəhlələr yataqxanaların taxtapuşunu söküb qoyublar yerə, vurhavur işləyirlər. Yenə dedi yorulmayasınız, sonra da dedi ki, onsuz da pririvdi, yığışın bura, sizin üçün asobu bir konsert verəcəm.

Sonra keçdi kafeyə, küncdəki təzə rəngli televizora baxdı, hansısa serial gedirdi. Güldü:

- Ə, nemes, sən öl, arvaddar bu kafeni bizdən alajaxlar. Hamısı tökülüf Santa Barbaraya baxajaxlar, sonra da ordakı yaraşıxlı kişiləri görüf gejə bizi yaxına buraxmeyjaxlar.

Bu vaxt serial kəsildi, reklam başladı. "Teksun" yağını reklam edirdilər. Reklam edən deyirdi: ""Teksun" ən yeməli yağ. "Teksun" yeyin, mehriban olun!"

Şakir:

- Bunu düz deyir, bu yağ adamları mehriban edir. Teksun yeyənnən arvadla bajı-qardaş olmuşux.

"Teksun"un reklamından sonra dərman reklamları başladı.

Şakir:

- Hə də, dünyada nə qədər zir-zibil var sırıyın bizə. Kənddə bizi Müslüm baba otnan-penjərnən sağaldırdı, hamımız da tırf kimiydik. İndi başağrı dərmanı atırsan başının ağrısı kəsir, qarnın ağrıyır. Qarın ağrısı dərmanı atırsan, qarnının ağrısı kəsir ürəyin bulanır.

Market Vəliş:

- Ə, sən də az gileylən. Onu reklam edənlər səndən az bilir?

Market Vəliş:

- Onun elə arıq olduğuna baxma, qurd ürəyi yeyib. Çox cəsarətli oğlandı.

Şakir başını bulayıb dedi:

- Qurd ürəyi yiyənnər şeyir yazmıllar ey, müharibədə dör-dör dyüşüllər. Qurd ürəyi Əbil kişi yemişdi, oğlannarı yemişdi, qardaşı oğlannarı yemişdi. Yadına düşür də, Əbil kişi ermənilərlə bajı-qardaş olan vaxt bir erməni vuruf öldürmüşdü, bizim müstəntiqlər onu vəhşi kimi göstərmək üçün vurduğu canavarların ürəyini çıxardıf kabaf eliyif uşaqlarına, qardaşı uşaqlarına, nəsillərindəki bütün oğlanlara yedirtdiyini də cinayət işinə əlavə eləmişdilər.

- Yaxşı yadımdadı, gözəl ovçu idi. Altmış dörd dənə canavar vurmuşdu, hamısının da ürəyini sən dediyin kimi, kabab eləyib uşaqlarına, kənddəki ipə-sapa yatmayan uşaqlara yedirtmişdi. Onlar da canavara oxşayırdı. Heyf ondan. Hadisələr başlayanda getdi erməni kəndinə ki nə qələt eləyirsiniz, dava salmışdı. Ermənilər də öldürüb meşədə basdırmışdı.

Şakir:

- Qurd ürəyi yiyən oğlannarı, qardaşı oğlannarı qanını yerdə qoymadılar, getdilər neçə erməni öldürdülər. Əbil kişinin meyitini də çıxarıf gətirif kənttə basdırdılar. Qurd ürəyini onnar yemişdi ey, yoxsa Qulu Ağsəs, yox bir Avdal Qəhrəman.

- Şakir, sən də sir-sifətdən canavara oxşayırsan ey. Əbil kişi qonşunuz idi, bəlkə sənə də yedirdib?

də rədd olunu evinizə;- yenə üzünü tutdu Market Vəlişə: - Ə, nemes, o köhnə başıqapazdı tilvizeri ver qoysunnar yataxxanada dəhlizə, nə qədər isdiyillər baxsınnar; - sonra kafedən çıxdı çölə, bayırdakı kişiləri süzüb dedi: - Kişi boynunuzu yerə soxum, ermənilər kəndinizi, arvaddar da kafenizi əlinizdən alıf.

Bayırdakı kişilər hamısı başını saldı aşağı. Kafedəki arvadlar da dinməz-söyləməz çıxıb dağıldılar olmayan evlərinə. Kişilər də tez doluşdular kafeyə. Şakir də kənardakı stolların birinin arxasında oturdu və Market Vəlişdən soruşdu:

- Ə, nemes, menyuda nə var?

- Piti var, baş soğanla.

- Bir dənə piti gətir, bir dənə də arax.

- Rəmişin içdiyi araqdan?

- Ə, yox, qaşqınnarın işdiyi araxdan. O tilvizerdə də elə yeri tut xəbərlərə baxım.

Market Vəliş kanalı dəyişdi, gördü ki, Mübariz Əhmədoğlu yenə mətbuat konfransı keçirir, özündən çıxdı:

- Ə, sən öl, məni erməni öldürə bilmədi, bu çərrədif öldürəjəh. Nə uçana majal verir, nə qaçana. Adam nə qədər jurnalistdəri başına yığıf konfrans keçirər. Jurnalistdərdə də abır-həya yoxdu ey. Nə bilim, bəlkə onnar da mənim kimi məzə tutmağa gedillər. Söndür o tilvizeri. - sonra üzünü tutdu domino oynayanlara; - Ə, durun gəlin bəri, bir az arax içəh.

Domino oynayanlar da elə bil bu himə bənd idilər. Hamı stullarını götürüb yığışdılar Şakirin başına.

- Ə, nemes, bunnara da piti ver, araq da.

***Aqil ABBAS***

# ÇAY QIRAĞINDA BİTİB, SUSUZ QALAN AĞACLARIN SAĞLIĞINA...

## (Abdal-Gülablı Şakirin xatirəsinə)

**(povestdən bir parça)**

- Şakir, Cənab Başçı da Rəmişin dostudu.

Şakir:

- Rəmişin dostudusa, bu başqa məsələ. Amma özünü başçı kimi aparmasın də, Rəmişin dostu kimi aparsın. Heş o boyda Ağdamın başçısı Həsən Sarıyev özünü belə aparmır.

Cənab Başçı:

- Yaxşı, indi çalırsan, yoxsa yox?

Şakir:

- Rəmişin dostdarıyçün çalıram; - dedi, sonra üzünü tutdu Market Vəlişə: - Ə, nemes, bir adam göndər evdən qarmonu gətirsin.

Kimsə qaçıb evdən qarmonu gətirdi. Şakir qarmonu aldı qucağına, bir az əzizlədi, öpdü, sonra dizinin üstə qoyub sıxdı sinəsinə. Və başladı qarmonun dillərini barmaqlamağa. Xoş günlərini xatırlamaq istədi. Gözünün qabağına səfalı kəndlərinin göz yaşı kimi təmiz kəhrizlərini, sanatoriyanın həyətindəki uca, qollu-budaqlı palıd ağacını, o palıd ağacının altında Katibin Bakıdan gələn qonaqlarına çəkdiyi kababı, moruq arağını, Bəxtiyar müəllimlə, Xudu Məmmədovla, Nurəddin doktorla qaldırdığı badəni və dediyi sağlığı gətirmək istədi, amma nə qədər elədi gözünün qabağına yanan kəndləri gəldi, erməni gülləsindən partlaya-partlaya ölən Qurdbasarı gəldi, üzüaşağı qaçan arvad-uşağı gəldi, Vanyanın yanan tankı gəldi. Qaldırdığı badədə moruq arağı yox, irin-qan vardı.

Barmaqları sözünə baxmırdı. O xoş günləri xatırlayıb "Şur" çalmaq istəyirdi, barmaqlar "Segah" çalırdı. Onun üçün həyatı da, kəndləri də, qaldıqları yataqxana da, yaşadığı ölkə də və bütün dünya da "Segah"a bələnmişdi.

Həyatı da, kəndləri də, qaldıqları yataqxana da, yaşadığı ölkə də və elə bütün dünya da başdan-ayağa "Segah" idi. Yedditaxtalı tuman geyinmiş bir ana lazım idi bütün bunlara üz-gözünü cıraraq yas saxlasın, ağı desin. Özünün anası çoxdan ölmüşdü, dünyanın da anası yox idi. Bu dəqiqə dünyanın anası elə onun özü idi, barmaqları idi.

Və nəhayət, ürəyini boşaltdı.

Cənab Başçı:

- Bu qarabağlılar segahda nə görüblər ey?

Şakir:

- Neyniyək, ömrümüz segahdı də. Ermənilər şur üstündə köklənməyə qoymadılar, həyatımızı segaha çevirdilər.

Cənab Başçı:

- Gözəl çalırsan, bir az da davam eləsəydin məni də ağladacaqdın. Məndən bir istəyin varmı?

- Sağ ol, məllim. Bir də sizə desələr ki, qaşqınlar mitinq eliyir, inanmıyın. Bizdə mitinq eləməyə dal nəəzir?

Cənab Başçı:

- Hər halda ictimai asayişi pozmayın da, ictimaiyyəti narahat etməyin.

- Rəhmətdiyin oğlu, burda ictimayyət nəəzir, qaşqın hara, ictimayyət hara? Bizim asayişimizi pozanlar elə pozuf ki, fələh də gəlsə, düzəldə bilməz.

Cənab Başçı:

- İndi mən Bəxtiyar müəllimə nə deyim, onun könlünü necə alım? Verdiyim işi də bəyənmədin. Bəlkə sənə qəsəbədə ikiotaqlı bir ev bağışlayım?

- Sağ olun, mən camahatımdan ayrı yaşıya bilmərəm. Mən özümü bu adamların arasında az-çox xoşbəxt sayıram. Bəxtiyar məllimə də deyərsən ki, mənə musiqi məktəvində iş düzəltmisiz.

Cənab Başçı üzünü tutdu rəisə:

- Mən gedirəm, hərdən məclisiniz olanda məni də çağırın. Şakirdən xoşum gəldi, həm çalmağından, həm də özündən. Yaxşı kişidi. - sonra Şakirə tərəf baxıb dedi: - Darıxmayın, tezliklə öz kəndinizə qayıdacaqsınız. Məni də qonaq çağırarsınız, bir bulağın başında qəşəng bir quzu kəsərsən yeyib-içərik, sonra da bir şur çalarsan.

Şakir də, qaçqınlar da bir ağızdan dedilər:

- Allah ağzından eşitsin.

Cənab Başçı maşınına minib getdi, ardınca da rəislə dostları. Gedəndə rəis dedi:

- Şakir kişi, görüşərik. Nə problemin də olsa qapım üzünə cənnətin qapısı kimi açıqdı.

- Rəyis, sən biləsən də, bütün qaşqınlar, hətta ən oğraşı da cənnətə gedəjəh.

- Niyə?

- Allah böyüh və adildir, öz bəndəsinə iki dəfə cəhənnəm əzabı yaşatmaz. Biz cəhənnəmi bu dünyada yaşamışıx dana.

***

Səhər tezdən Şakir yuxudan səs-küyə ayıldı. Düşdü həyətə, həyətdə az qala bir batalyon fəhlə vardı, yataqxanaları təmirə gəlmişdilər. Şakir hamısı ilə görüşdü, yorulmayasınız dedi, sonra da üzünü tutdu Market Vəlişə:

- Ə, nemes, günorta bunnarın çayın-suyun verərsən.

Fəhlələrin briqadiri dedi:

- Sağ olun. Yemək-içməyimizi günorta göndərəcəklər, narahat olmayın.

Şakir qarmonunu götürdü, Turac arvadın yetimçəsini də çağırdı, oturdu Surenin "Moskviç"inə və getdilər məktəbə.

- Çox bilir deyin hamımız xəstəyik də. Sən öl, bu reklamlar hamısı pul tələsidi. Öyün arvadın qızdırması qalxmışdı, getdim reklam olunan qızdırma dərmanını alıf gətirdim, arvad işdi qızdırması düşdü, təzyiqi nətəər qalxdısa skorı pomuş çağırdıx. Sən öl, həkim gəlməsəydi arvadın tapılmadığı bir vaxtda arvad əldən getmişdi.

Market Vəliş:

- Şakir, bilirsən də böyük oğlum orduda qulluq edir, on-on beş günə məzuniyyətə gələcək. İstəyirik evləndirək, qız da tapmışıq. Toy sənlikdi, Rəmişi də gətirərsən.

- Bəlkə Arif Babayevi də gətirim?

- Pis olmaz. Qaçqının toyunu qaçqınlar eləməlidi də.

- Qız kimlərdəndi?

- Qardaşımnəvəsidi.

- Day deynən dünyanın gözünü kor qoymusuz ki. Ə, qaşqın olmuyanla evləndirəydin dana. Heş olmasa yazıx bir gün görəydi.

- Qaçqın olmayanlar qaçqına ərə getmir axı.

Şakir:

- Ə, nemes, gördün də kafeni necə məşhurlaşdırdım? Gərək mənlə şərik olasan. Özü də bu kafe döyül, üstünə yazmısan Avdal-Gülaflı restoranı. Mən bir-iki dəfə restoranda olmuşam, restorannarda menyu olur, amma sənin menyun yoxdu. Ona görə də bir dəftər gətir saa menyu tutaq, gələn qonaxlar da bilsin nəyin var, nəyin yox.

- Yenə məni dolayırsan?

- Ə, sən öl, yox. Elə lağlağıya bir dəftər gətir, menyu tutajam saa.

- Ə, bura məktəb deyil ki, dəftərim ola. Bir dəftərim var, o da nisyə dəftəridi.

Şakir domino oynayanlardan birini göndərdi evə ki, bir təzə dəftər gətirsin. Dəftər gəlib çıxdı. Şakir Market Vəlişə dedi ki, indi gəl otur, menyunu tutaq. Nisyə yazan qələmini də gətir.

Market Vəliş:

- Məzələnməyindən qalmırsan da. - dedi, sonra da nisyə yazan qələmini götürüb gəldi oturdu Şakirlə üzbəüz, domino oynayanlar da yığışdılar onların başına.

Şakir dəftəri açdı:

- Ə, indi deynən zavtrıkda nəyin olur?

Market Vəliş başladı sadalamağa. O, sadaladıqca Şakir də qeyd edirdi:

- Zavtrık: soyutma yumurta, ilıq yumurta, qayqanaq, pamidor-yumurta, şirin çay, pendir-çörək, smetan.

Market Vəliş:

- Smetanı poz, xaş yaz.

- Ə, Qarabağda xaş yemillər, kəlləpaça yeyillər.

- Yaxşı, yaz kəlləpaça.

Şakir smetan sözünü pozub, kəlləpaça yazdı.

Nahar: sosiska, kolbasa, qızardılmış sosiska, qızardılmış kolbasa, üstünə yumurta vurulmuş qızardılmış sosiska, üstünə yumurta vurulmuş qızardılmış kolbasa, dünəndən qalma piti.

Şam: sosiska, kolbasa, qızardılmış sosiska, qızardılmış kolbasa, üstünə yumurta vurulmuş qızardılmış sosiska, üstünə yumurta vurulmuş qızardılmış kolbasa, yenə piti hövsan soğanıyla.

İçkilər: çay, sirab, limonad, fanta.

Spirtli içkilər: vodka Bakı vinzavod bir, vodka Bakı vinzavod iki, vodka şampan zavod, Göyçay konyakı, şərablar İvanovka, Tovuz şərabı, Şamaxı şərabı - Mədrəsə.

Bütün qiymətlər razılaşma yolu ilə.

Ötən ay nisyəsini bağlamayana nisyə verilmir.

Şakir sonra Market Vəlişə dedi:

- İndi axşam uşaxlara tapşırajam bunu vatman kağızına tujla yazıf vursunnar girəjəhdə şüşəyə. Onu da əlavə etsinnər ki, telefon oynuyannarın çaypulunu uduzan tərəf verəjəh.

Domino oynayanlar səs-küy saldılar:

- Şaka, bu ədalətli olmadı, axı. Həm uduzaq, həm də çaypulu verək?

Şakir güldü:

- Yaxşı, siz diyən olsun. Udannar versin; - sonra Market Vəlişə dedi: - Bir-iki dənə də Rəmişin işdiyi araxdan al,ola bilər hörmətdi qonaxlar gələr.

***

Market Vəliş:

- Kefsən ey, başdan-ayağa, kinoçəkənlərin səndən xəbəri yoxdu. Gərək Abdal Qəhrəmana deyəm, o şair var ey rəhmətlik Ağsəs kişinin oğlu Qulu, onu tapıb gətirsin, qoy səndən bir yazı yazıb məşhurlaşdırsın. Bəlkə ondan sonra üstünə gün doğdu.

- Tanıyıram. Deyillər, Aşıq Valehdən sonra kəndimizdən çıxan ən böyük şairdi. Amma hələ uşaxdı. Telefonunu bilsəydim zəng edif bir qəşəng məzələnərdim. Bir-iki dəfə tilvizerdə görmüşəm, o da yaxşı məzə tutandı. Bir dəfə tapıf çağırarıx, elə Avdal Qəhrəmana deyərsən tapıf gətirər, bir az deyişərik. Sonra da onunçün yaxşı bir qarmon çalaram. Dədəsi rəhməddik yaxşı kişi idi. Amma yazıx çox arıxıdı ey, bərk küləy əssə götürüf atajax dənizə.

- Ə, sarsax-sarsax danışma. Qurd ürəyi yemiş olseydim ev-eşiyimi qoyub qaçıf gəlif burda sülənməzdim...

... Gün gələcəkdi Böyük Vətən Müharibəsi başlayacaqdı, Ovçu Əbilin oğlanları da, qardaşı oğlanları da, qurd ürəyi yedirtdiyi kəndin say-seçmə oğulları da könüllü döyüşə gedəcəkdilər. Qardaşı oğlu Müşfiq Abbasov iki oğlu ilə birlikdə çiyin-çiyinə vuruşacaqdı Qarabağda, özü də şəhid olacaqdı. Eyni kökdən, eyni nəsildən olan qurd ürəyi yedirtdiyi Yaşar Hüseynov Şuşaya ilk Azərbaycan bayrağı sancacaqdı. O günə hələ çox vardı. Hələ Şakir Lökbatanda yataqxanada yaşayırdı. Hələ abdal-gülablılar o günü arzulaya-arzulaya və o günün həsrətiylə dünyadan köçürdülər...

... Bu vaxt Turac arvad girdi kafeyə, gəlib oturdu Şakirin qabağında.

- Şakir, dədəm-nənəm saa qurvan.

- Ay arvad, dədənnən nəneyin sümüyü də çürüyüf, maa nətəər qurvan ola biləllər?

- Yaxşı, dədəm-nənəm yox, mən xalan qurvan. Uşax evdə özünü öldürür, deyir məktəfdə məndən başqa hamının qarmonu var. Sən dedeyin Mazdoxdakı goru, o uşağa bir qarmon al ver.

- Ay Sağsağan xala, heş bilirsən qarmon neçiyədi? Mən də sənin kimi qaşqınam, pulum nəəzir? Uşaxlar göy-göyərti yeməhdən gömgöy göyəriflər.

Turac arvad girdi Şakirin qılığına:

- Şakir, mən sənin nəneyin ən əziz adamıydım. Uşax vaxtı o qədər dalını yumuşam. Yadına düşür, nənən su tökürdü, mən də səni çimizdirirdim; - dedi sonra da əliylə çeçələ barmağını göstərdi, - bu boyda da lülüşün vardı.

Kafedəkiləri gülmək tutdu, Şakir pərt oldu.

Turac arvad yenə dediyini dedi:

- Həə, nənən su tökürdü, mən də səni çimdirirdim; - və yenə çeçələ barmağıyla göstərdi- bu boyda da lülüşün vardı.

Kafedəkilər yenə qəh-qəhə səkdilər, day Şakiri saxlamaq olardı:

- Sağsağan xala, indi görəsən ey.

Elə bil arvadı ilan çaldı. Yerindən qalxıb tüpürdü:

- Tu sənin üzünə, abırsızın biri abırsız.

Şakir ilk dəfə dediyi sözdən peşman oldu.

- Yaxşı, ay xala, - bu dəfə Sağsağan demədi, - məni tanıyırsan dana, özümnən asılı olmadı. Uşax haqqında bir şey fikirrəşərəm, görüm hardan ona qarmon taparam.

Qarmon sözünü eşidən kimi Turac arvad yumşaldı:

- Dədeyin Mazdoxdakı goruna qurvan olum. Bilirəm, sən istəsən taparsan. Sənin də Rəmiş kimi dünyaynan bir ad-sanın var.

- Ay xala, mənim ad-sanım Ağdamdaydı, elə Ağdamda da qaldı. Burda məni it yerinə qoyan da yoxdu.

- Niyə heylə diyirsən, başına dönüm. Dünən buranın böyüklərinin hamısı tökülüf ayağına gəlməmişdi? Bu fəhlələri bura sənin sözüynən tökmüyüflər?

Şakir durub Turac arvadı qucaqlayıb öpdü və dedi:

- Yaxşı, get, sənin o yetimçənə bir qarmon tapıf verəjəm.

Turac arvad sevinə-sevinə kafedən çıxdı.

Market Vəliş:

- Ə, abırsız, o nə sözüydü ağbirçək arvada dedin?

- Ə, nemes, bilmirsən mənim ağzımın qaytanı yoxdu? Ağbirçək özünü ağbirçək kimi aparsın də, yoxsa lülüşün elə gəldi, belə getdi.

***

Şakir məktəbdən çox gec qayıtdı. İt kimi yorulmuşdu. Girdi olmayan evinə, qarmonu atdı bir tərəfə. Oğlanları şahmat oynayırdı. Arvad evdə yox idi, soruşdu:

- Ə, nənəniz hanı?

Uşaqlar bir ağızdan:

- Qağa, kafedədi.

Şakir təəccüblə:

- Harda?

- Kafedə.

- Orda nəəzir, ə?

- Bütün arvadlar ordadı, o da gedib.

- Kimsə ölüf?

- Yox.

- Deyəsən televizora baxırlar.

Şakir yendi həyətə, gəldi kafeyə. Kafe arvadlarla dolu idi. Elə bil Kino Fazil kəndə hind filmi göndərmişdi, kəndin arvadları da adama iki dəsmal götürüb yığışmışdılar kluba.

Televizorda "Santa Barbara" gedirdi. Rəngli televizor, bərli-bəzəkli xanımlar, şux geyinmiş kişilər, bircə arvadların əlində nəinki iki dəsmal, heç bir dəsmal da yox idi. Oturub marıtlamışdılar televizora.

Şakir maddım-maddım bir arvadlara baxdı, bir televizora, bir də əli qoynunda küncdə dayanmış Market Vəlişə, dedi:

- Ə, nemes, saa demədim arvaddar buranı işğal eliyəjəh? Di ala. Kino qurtarannan sonra domino da verərsən oynuyallar, biz də gedif yeməh bişirərih.

Kafedəki arvadlar Şakirin səsini eşidən kimi hamısı qorxudan durdu ayağa. Şakir üzünü tutdu arvadına:

- Aaz, sürüy evə, elə bircə santabarbaran çatmır. Siz

- Nisyə?

- Ə, yox, qorxma, pulunu verəjəm. Buyün mayış almışam.

Stəkanlar doldu, sağlığlar başladı. Yox, çay qırağında bitib, susuz qalan ağaclarına sağlığına içilmədi, çünki burda həmin sağlığı başa düşən nə Xudu Məmmədov vardı, nə Nurəddin doktor, nə də Bəxtiyar müəllim. Hamısı cır-cındırından cin hürkən qaçqınlar idi.

İstədilər Şakirin sağlığına içsinlər, Şakir razı olmadı:

- Ə, yaltaxlanmıyın, hamınızın sağlığına, bütün qaşqınların sağlığına. Kəndimizin sağlığına. Kəndimizə gedəjəyimiz günün sağlığına. Bizi kəndimizə aparajax kişinin sağlığına.

Stəkanlar yenidən doldu, kimsə sağlıq demək üçün ayağa qalxdı. Şakir:

- Ə, day sağlıx qurtardı də.

Sağlıq demək istəyən əl çəkmədi:

- Şaka, sən dədənin Mazdokdakı goru, sözümü kəsmə, yaltaqlanmıram da. Allah haqqı, düz sözümdü, sən burdasan elə bilirik kəndimizdəyik. Allah səni başımızın üstündən əksik eləməsin.

Şakir güldü, arağı çəkdi başına və dedi:

- Allah sizi də məim altımnan əskiy eləməsin.

Yedilər-içdilər, Şakir Market Vəlişə dedi:

- Ə, indi o tilvizeri aç, urus kanallarını tut görəh nə yeyillər.

Market Vəliş tilvizeri açdı və Rusiyanın bir nömrəli kanalını tutdu, Xankəndindən reportaj göstərirdilər. Boylu-buxunlu, sinəsində avtomat bir erməni əsgəri müsahibə verirdi. Şakanın gözü dörd oldu. Tilvizerə bir az da yaxın gəldi, erməni əsgərinə diqqətlə baxıb iki əli ilə başına bir qapaz saldı və çığırdı:

- Ayə, vurun məni öldürün, ayə. O budulkanı vurun mən oğraşın başına, belə kişilik olar, belə oğraşdıx olar? - və başladı ağlamağa.

Kafedəkilər hamısı təəccüblə Şakaya baxırdı. Market Vəliş soruşdu:

- Ə, noldu, ə?

Şakir yenə bağıra-bağıra:

- Canıma dərd oldu, azar oldu. Ə, vurun məni öldürün dana.

Yer-yerdən dedilər:

- Ə, niyə axı?

- Ə, danışan ermənini görmürsüz?

- Nolsun?

- Ə, gomürsüz kimdi danışan?

Market Vəliş:

- Ə, nədi, bəlkə ermənidən olan oğlundu?

- Ə, sarsax-sarsax danışma, bax də.

Hamı yığışdı televizorun başına.

Market Vəliş:

- Boy, ə, bu Surenin oğlu deyil? Toyunu da sən eləmişdin, biz də yığışıb getmişdik, yaxşı da yeyib-içdik. Kino Fazil də yaxşı bir sağlıq dedi. O vaxt bizimkilər əsir götürəndə sən qoymadın də öldürməyə, uşaqların əlindən alıb buraxmışdın.

- Hə, mən oğraş bunu buraxdırmışdım. Ə, vurun məni öldürün, ə. O vaxt it şeyi kimi əsirdi, indi nətəər yekə-yekə danışır. Vay sənin ananı. Vay sənin damavoy knijkanı...

Dişinin dibindən çıxanları həm Surenin oğluna, həm də özünə dedi və başladı hönkür-hönkür ağlamağa...

... Suren Şakirin evinin eyvanında oturub qabağında çay televizora baxırdı. Ermənilər Abdal-Gülablını alandan sonra Suren gəlib yığışmışdı Şakirin evinə ki yandırmasınlar. O da rus kanallarına baxırdı ki, görsün ruslar nə deyir. Və o da gördü ki, oğlu sinəsində avtomat danışır. Vurub stolun üstündəki çayı dağıtdı. Və necə qışqırdısa arvad evdə dik atıldı və qaçdı eyvana. Suren başını tutub bağırırdı:

- Ay qancıxın doğduğu, ay qeyrətsiz, mən səni İspanakertə oxumağa göndərmişdim, yoxsa əlinə avtomat alıb vuruşmağa? Ay qəhbənin oğlu, nəğayırdın, indi mən sabah Şakirə nə cavab verəjəm, Şakirin üzünə nejə çıxajam?

Arvadı Surenə:

- Ay kişi, uşağa niyə qarğış tökürsən?

- Ay itin qızı, onun qucağındakı avtomata bax. Şakir onu Əzrayılın əlinnən almışdı. İndi o avtomat götürüf əzrayıllıq edir, şandığa. Yox, day mən xəjələtimdən yaşaya bilmərəm. Sabah Şakir qayıdanda onun üzünə, bu kəndin camaatının üzünə nejə baxajam, xayxırıf sifətimizə tüpürəjəhlər? Toyunu da Şakir eləmişdi, Rəmişi də gətirmişdi. Toydan pul da götürmədi, dedi, mənim adımnan yaz nəmərə. İndi bu qurumsaq oğlu qurumsaq Şakirlə yediyim bir ton çörəyə tüpürdü. Yoox, mən buna dözə bilmərəm. Qoy bir evə gəlsin, Həzrət Abbas haqqı, ya onu öldürəjəm, ya özümü...

... Suren oğlunu öldürə bilməyəcəkdi. Surenin oğlunu Ovçu Əbilin qardaşı oğlu Müşfiq öldürəcəkdi. Hələ o günə vardı...

... Hələ Suren Şakirin evinin eyvanında başına qapaz salıb ağlaya-ağlaya bağırırdı, Şakir də Lökbatanda yataqxananın kafesində başına qapaz salıb ağlaya-ağlaya söyürdü - həm özünü, həm də Sureni. Şakiri sakitləşdirə bilmirdilər, vurub stol-stulu da aşırtdı, sonra da kafedən çıxdı.

**(Ardı olacaq.**

**Özü də Rasim Müzəffərlinin xətrinə)**

## *NATO Asiyada da mübaqişə yaranacağını düşünür*

**NATO-nun baş katibi Yens Stoltenberq bəyan edib ki, Çinin günahı ucbatından Asiyada da münaqişə yarana bilər.**

ABŞ-ın dövlət katibi Entoni Blinkenlə birgə keçirdiyi mətbuat konfransında Stoltenberq, Asiyada da Ukrayna variantında münaqişə yarana biləcəyini bildirib. "Bu gün Avropada baş verənlər, sabah Asiyada da təkrarlana bilər"-deyə alyansın rəhbəri bildirib. "Çin Ukrayna böhranını izləyir və gələcəkdə bundan nəticə çıxarmağa çalışır"- deyə Stoltenberq əlavə edib.

Stoltenberq qeyd edib ki, NATO üzvləri, ABŞ -da keçirilən görüşdə Asiyadakı vəziyyətdən "real narahatlıq" keçirirduklərini bildiriblər. Baş katib vurğulayıb ki, Çin nüvə silahları da daxil olmaqla, hərbi gücünü artırmaqdadır. "Çin Cənubi-Çin dənizində nəzarətini gücləndirməyə çalışır və Tayvanı təhdid edir, kritik infrastrukturlara, o cümlədən NATO dövlətlərində də nəzarəti əlinə almaqla, öz ölkəsində əhalini sıxışdırır, insan hüquqlarını pozur və Moskvayla əlaqələrini genişləndirir"- deyə Stoltenberq çıxışını tamamlayıb. Çinin öz maraqlarını qorumaq üçün atdığı addımlardan narahat olan NATO-nun baş katibi, həmçinində ABŞ, dünyanın bütün qaynaq nöqtələrində, əsasən də hazlrda ən qaynar nöqtə sayılan Rusiya - Ukrayna müharibəsində "baş rolda" olduğunu dilə gətirmək istəmir. Stoltenverqi dindirəndə də bəyan edir ki, "Ukraynaya göstərilən hərbi dəstək, sülh yaradılmasına şərait yaradacaq". ???

Rusiya-Ukrayna müharibəsinin başlmasından bir ilə yaxın vaxt keçir, hələ Türkiyə istisna olaraq, ABŞ və NATO-ya üzv dövlətlərin heç birinin müharibənin dayandırılması üçün hansısa addımlar atdığının şahidi olunmayıb. Əksinə, Türkiyə prezidenti Rəcəb Tayib Ərdoğanın dəfələrlə tərəfləri danışıqlar masasına oturtmaq təşəbbüslərinin qarşısını alıblar. "Sona qədər Ukraynaya istədikləri qədər silah-sursat göndərəcəyik"- deyə bildirən, ilin yekunları ilə bağlı Konqressə hesabat verən ABŞ prezidenti Co Baydenin, Ukrayna ilə Rusiya arasında sülhə neçə nail ola biləcəyi başa düşülmür.

**Rüstəm Hacıyev**

## *Bəşəriyyətin görünməz əli - Zəlzələlər*

**Zəlzələləri bilavasitə bilən qədim İnklar öz daş konstruksiyalarını elə inşa edirdilər ki, istənilən, hətta ən dağıdıcı zəlzələlərə də dözə bilsinlər.**

Müşahidələr tarixində ən güclü zəlzələ 1960-cı ildə Çilidə baş verib. Onun gücü Rixter şkalası ilə 9,5 bal idi və 10 min kilometrə qədər uzanan sunami dalğası yaratdı.

Yaponiyada hər il təxminən 1500 zəlzələ baş verir. Çilidə - təxminən eyni.

Zəlzələlər təkcə Yerdə deyil - məsələn, Ayda da baş verir, lakin onlara adətən ay zəlzələləri deyilir (Ay haqqında maraqlı faktlar).



1811-ci ildə ABŞ-da baş verən güclü zəlzələ bir müddət nəhəng Missisipi çayının axınını dəyişdirdi.

2015-ci ildə Nepalda daha bir güclü zəlzələ baş verdi ki, bu da ölkənin paytaxtı Katmandu şəhərini dağıdıb. Dünyanın ən böyük zirvəsi olan Everestin hündürlüyü bu zəlzələ nəticəsində iki santimetr yarım azalıb. İlk seysmoqraf 132-ci ildə qədim Çində yaradılıb. Hər il Yer kürəsi yarım milyona yaxın zəlzələ ilə sarsılır, lakin onlardan yalnız yüz mini hiss oluna bilir və yüzə yaxını hər hansı bir ziyana səbəb olur (Yer haqqında maraqlı faktlar).

Bütün böyük zəlzələlərin 10-dan 8-i Sakit okean alov halqasında baş verir.

Bəşər sivilizasiyası tarixində ən ölümcül zəlzələ eramızın 1201-ci ildə Aralıq dənizini silkələyən və birdən çox insanın həyatına son qoyan zəlzələ olub. milyon insan. Güclü zəlzələ zamanı orta atom bombasının partlamasından dəfələrlə çox yüzlərlə və minlərlə enerji ayrılır.

Təxminən on dəqiqə davam edən ən uzun zəlzələ, 2004-cü ildə Hind okeanının altında baş verib.

ABŞ-da, Kaliforniyanın Parkfild şəhərində hər iki ucunun müxtəlif tektonik plitələr üzərində dayanması ilə diqqət çəkən bir körpü var.

Cənub yarımkürəsində Planetimizdə zəlzələlər Şimaldakından daha az baş verir.

Zərbələr nəticəsində yeraltı dalğalar saatda 350-360 kilometrə qədər sürətlə hərəkət edə bilir. Daha sürətli dalğalar, ən azı, hələ müşahidə olunmayıb. Xoşbəxtlikdən.

**2010-cu ildə baş verən güclü zəlzələ Çilinin Konsepsyon şəhərinin 3 metr kənara doğru hərəkət etməsinə səbəb oldu.**

**Emin**



*Əbülfət MƏDƏTOĞLU*

# Vüsalda da, həsrətdə də göz yaşı qoxusu var

*Elnur Aslanbəyli ilə etdiyim söhbətdən*

**Ədəbiyyatımızın elə bir müstəvisi, elə bir məkanı yoxdu ki, orda işıqlı söz, ümidli söz, yaşadan və yaşayan söz olmasın. İstər folklor, istər klassika, istər bugünümüzün ədəbi müstəvisi mütləq mənada işıqla, nurla fərqli və yaddaşa hopmuş fikirlərlə zəngindi. Ona görə də hansı istiqamətə, hansı dövrə üz tutsaq, orada mütləq işıqlı bir sözlə, fikirlə, bədii yaradıcılıq nümunəsi ilə qarşılaşacağıq. Bax, bu mənada mən nə vaxtdan bəri davam etdirdiyim "Bir şairin bir şeiri" layihəmdə müxtəlif zamanların, həmçinin müxtəlif yazı üslublu söz adamlarının qapısını döyürəm. Onların arasında xalq şairləri də var, haqq dünyasına qovuşanlar da, bu gün yazıb-yaradanlar da. Bu mənada mən kiminsə hansısa dövrdə yazdığını yox, mənim ruhuma doğma olan, məni çəkən şeirlərin dalınca gedirəm. Yol boyu da qarşılaşdığım hər işıqlı söz məni dayandırır və mən onunla həmsöhbət oluram...**

Bu gün könlüm Elnur Aslanbəylini istədi. Necə deyərlər, ötən günlərin xatirələri çəkdi məni özünə. Buradaca qeyd edim ki, Elnur Aslanbəyli müəyyən bir zaman kəsiyində "Ədalət" qəzetində çalışdı və biz demək olar ki, bir otaqda çox səmimi bir mühitin içərisində fikirlərimizi bölüşdük, bir-birimizin sözünə münasibət bildirdik. Hətta Elnur Aslanbəyli mənim kitablarımdan birinin redaktoru oldu. Bunların mövzuya dəxli olmasa da, amma ötənləri xatırlamaq baxımından könlümdən gəlib keçdi və yazdım. Həm də ona görə yazdım ki, oxucular mənim, Elnurun yaradıcılığına yaxından bələd olduğumu bilsin...



Bəli, hər söz adamı öz ruhunun səsini yazıya çevirir, öz ürəyinin döyüntüsünü misralayır və nəticədə də oxucu təkcə bədii nümunə oxumur, o, həm də bir ruhun, bir ürəyin özü ilə həmsöhbət olur. Bu mənada Elnur Aslanbəylinin "Almadan küsən" kitabını vərəqləyəndə şəxsən mən onun ovqatına köklənirəm, özümü onunla həmsöhbət görürəm. Əl içi boyda olan bu kitabda Elnur bir-birindən maraqlı misraları, fikirləri və şeirləri ilə oxucu könlünü oxşayır, onun nəğmə adlı şeirini təkrar-təkrar oxudum və bir də gördüm ki, o şeir məni çox-çox uzaqlara çəkib aparıb. Özü də pıçıltı ilə danışa-danışa:

***ağlayıb uyuyur pərim***
***yuxusunda göz yaşı var***
***bürüşüb atlas qoftası***
***yaxasında göz yaşı var.***

Bəli, mənzərəni yəqin ki, gözünüzün önünə gətirdiz və bu pərinin niyə ağladığı, bu gözəlin niyə koftasının büzüşüb göz yaşına batdığını təxmin etdiniz. Əgər etmədinizsə, onda mütləq şeiri təkrar oxuyun və sevgi mənzərəsi sizə də köklənsin, sizdə də həmin ovqatı yaratsın. Mən kökləndiyim ovqatda həmin o sevginin işığını da gördüm. Deyə bilərsiniz ki, göz yaşında işıqmı var? Bəli, var . O sevgi üçün süzülübsə, yanaqda da, kiprikdə də ulduz kimi parıldayacaq. Mən həmin parıltını ən gur işıq sayıram. Ona görə də yazmışam ki:

***qaranlıqlar keçirəm***
***gözünün işığında***
***dərdi bal tək içirəm -***
***sözünün işığında...***

Hə, gördünüzmü, o işıqda necə yol getmək, hətta dərdi bal kimi nuş etmək də mümkündür. Hər zaman vurğuladığım məntiqi gerçəyi, yəni sevgini burda qabartmasan olmaz. Və siz də o sevgiylə öz dünyanızı, öz çevrənizi, rahatlıq tapdığınız məkanı düşünə-düşünə qaranlıqları yarıb keçəcəksiniz. Yol boyu da Elnurun "Nəğmə" şeirinin növbəti bəndi sizi müşayiət edəcəkdir. O səs, daha doğrusu bənd belədir:

***gördüm yarımın boyunu***
***gəzdim pərimin qoynunu***
***bənövşə büküb boynunu***
***qoxusunda göz yaşı var.***

Sevginin hər tövrünü, hər halını anlamaq, hiss etmək və yaşamaq mənə görə daha çox duyğusal insanlara məxsus haldır. Onlar ürəkləriylə, ruhlarıyla, izlədikləri hərəkətlərlə, hətta küləyin oynatdığı saçın havada cızdığı trayektoriyaya baxmaqla da sevginin, hansısa bir nöqtəsini, vergülünü, nidasını, sualını, bütövlükdə isə, cizgilərindən birini özü üçün kəşf edir. Ona görə də boynu bükük bənövşənin də, qoynunu gəzib-dolandığın pərinin də qoxusu, ətri, nəfəsi sənə uzaqda olanda göz yaşını da xatırladır. Arxanca, ardınca səpilən göz yaşını. Bu, həsrətin nişanəsi, bu, həsrətin görüntüsüdür. Amma onun içindəki işıq yola düşür, dönmək istədiyi yola. Onda da mən hər anın nə qədər dəyərli olduğunu daha çox hiss edirəm. Bu hislər də mənə şeirimin növbəti bəndini pıçıldayır:

***günü günə hörürəm***
***aya, ilə bölürəm.***
***günəşi də görürəm -***
***özünün işığında.***

Bəli, həqiqətən də sənin varlığın özü günəşin işığını kölgələyən, onu arxa plana keçirən elə bir nurdu ki, o başqa heç kimdə, heç yerdə, heç nədə, heç harda yoxdur. Bunu isə bir Allah görür, bir də mən. Təbii ki, görmək təkcə hər şey deyil. Görüb dərk etmək, üstəgəl, görüb dərk edib yaşamaq artıq hər şeydir. Demək istəyirəm ki, günəş işığını üstələyən sənin işığını görmək, dərk etmək və o işığın içində yaşamaq özü bir xoşbəxtlikdir. O ana qədər ki, sən yer üzünün yalnız o işıqdan ibarət olduğunu özünə hakim edəsən. Bax, onda xoşbəxtliyin ölçüsü də, çəkisi də, dərəcəsi də miqyassız olacaqdı.

Bütün bu fikirlərimin bir qatında bir az öncə vurğuladığım həsrətin nişanəsi olan göz yaşının da izi var, yeri var. Həmin o göz yaşından qaynaqlanan həsrət əsl sevənlərin ən böyük düşmənidi. Ən böyük acı yaşadanın əzab verənidi. Lakin bu, ən böyük düşmən, həm də əsl sevənlərə güc verir, iradə verir, dözüm verir. Mübarizə aparmaq, qovuşmaq qətiyyəti və amacı bağışlayır. Deməli, həsrətin özündə də sevənlərin əlindən tutmaq, onlara dayaq olmaq imkanı, fürsəti və bəlkə də istəyi var. Lakin biz həsrəti o qədər qınayırıq ki, hərdən o dediklərim məqamlar unudulur. Elnur isə onu unutmur, onu bir az da özünəməxsus şəkildə yaşayır və ayrılığı, həsrəti göz yaşının qoxusu ilə bələyir. Bu da o deməkdir ki, kipriyin ucunda donan göz yaşı öz işığını o həsrətin vüsala çevriləcəyi ana qədər gözün dibində, ürəyin özəyində və ümumiyyətlə, varlığında yaşadacaqdır. Elnur yazır ki:

***ərən-pirlərdən sayılmaq***
***eşqin duşundan ayılmaq***
***ah, bu gecənin ayrılmaq***
***qorxusunda göz yaşı var.***

Zənnimcə, bir ömrün ayrılığının bir gecənin ayrılığı ilə yaxınlaşması bir poetik uğurdu. Çünki çəkilən ah bir ömürdə də ürəyi ağrıdır, bir gecə də. Deməli, ayrılığın zaman məsafəsi mənə görə sevginin özü boydadı. Həsrət o zamanı öz əlinə keçirirsə, onu zəbt edirsə, bax, onda illərin də, bir anın da fərqi olmur. Çünki hər ikisinin adı ayrılıq, hər ikisinin də qoxusu göz yaşıdı. Bilmirəm, bu yozumumda, bu fikirlərimdə nə qədər haqlıyam. Amma tam səmimiyyətlə etiraf edirəm ki, mən sevgini bu cür görürəm, bu cür dəyərləndirirəm. Ona görə də sonuncu bənddə fikrimi dediyim notun üzərində kökləmişəm:

***sevincim aşıb-daşır***
***çiçəyim qanad açır***
***izim də qoşalaşır -***
***izinin işığında...***

Hə, bax, bu da Elnur Aslanbəyliylə etdiyim qısa bir söhbətin yazıya köçürülən variantı. Necə deyərlər, Elnurun şeiri danışdı, mənim də şeirim onun səsinə səs verdi. Beləcə iki şeir paralelləşib bir mövzu oldu. Adı da:

- Vüsalda da, həsrətdə də göz yaşı qoxusu var.

**Bura qədər... Siz də bundan sonrasını özünüz öz ruhunuzun, öz sevginizin, öz ürəyinizin, öz vüsalınızın və öz həsrətinizin qoxusunu duya-duya öz içinizdə yazıya alın.**

# Rasim Nəbioğlunun ədəbi düşüncələri



*Vaqif Yusifli yazır*

**Rasim Nəbioğlunun "Mədəniyyət, incəsənət, ədəbiyyat"adlı iki kitabdan ibarət məqalələr toplusu qarşımızdadır - təxminən 640 səhifəlik bu iki kitabda biz filologiya elmləri namizədi Rasim Nəbioğlunun 40 illik tədqiqatçı - ədəbiyyatşünas obrazını görə bilərikmi? Bu sətirləri həmin iki kitabı oxumamışdan öncə yazmışdıq. İndi isə mütaliəmiz başa çatdı.**

Öncə oxuculara Rasim Nəbioğlunun kimliyi barədə bir neçə kəlmə.

Rasim Nəbioğlu Siyəzəndə doğulub. Elə orta məktəb illərində qət edib ki, gələcək həyatını ədəbiyyata həsr etsin. Çünki Hüseyn Cavidin əsərlərini məktəbli ikən oxumağa başlayıb. Sonralar elm aləminə gələndə namizədlik dissertasiyasını da Hüseyn Cavid yaradıcılığından yazıb. Rasim Xarici dillər Universitetinin ingilis dili fakultəsini bitirib, ingilis ədəbiyyatından tərcüməəri də var. 1982-ci ildən ta bu günə qədər AMEA-nın taleyini Ədəbiyyat İnstitutu ilə bağlayıb. Onun bir ədəbiyyatşünas-tənqidçi kimi səciyyələndiririk. Hər iki kitabda o, həm ədəbi-tənqidi yazılarıyla həm də ədəbiyyatşünaslıq məqalələri ilə diqqəti cəlb edir. Əlbəttə, burda ayrı seçkilik salmırıq, əslində, hər iki yaradıcılıq sahəsinin bir obyekti var: ədəbiyyat, ədəbi əsərləri təhlil etmək, onların mahiyyətini açıqlamaq, bədii dəyərini üzə çıxarmaq.

Rasim Nəbioğlu üçün mövzu məhdudluğu yoxdur. O, klassik ədəbiyyatdan da yazır, müasir ədəbiyyatdan da, folklordan da, estetikadan da, mədəniyyət və incəsənətin müxtəlif problemlərindən ayrı-ayrı sənətkarların həyat və yaradıcılığından, teatr tamaşalarından da qələm çalır. Bu onu göstərir ki, Rasim Nəbioğlu hərtərəfli tənqidçi-ədəbiyyatşünasdır. Onun "Klassika və müasirliyin ədəbi-elmi qovşağında" məqaləsi ilə söhbətə başlayarq.

Bu yazı böyül Azərbaycan tənqidçisi Məmməd Arifə həsr edilib. Rasim Nəbioğlunun portret yazılarına xas olan bir cəhət: əvvəlcə haqqında söz açdığı sənətkarın həyat yolu ilə bağlı müxtəsər məlumat gəlir, sonra isə onun ədəbi ya tənqidi fəaliyyətinin başlıca məqamlarına diqqət yetirilir daha sonra isə bu sənətkarın yaradıcılıq dünyası araşdırılır. Və sonda sənətkar haqqında ümumiləşdirici bir fikir: "Məmməd Arif yaradıcılığa M.F.Axundovdan başlayaraq F. Köçərliyə qədər və ondan XX əsrin 20-30-cu illərinə qədər təşəkkül tapıb inkişaf etmiş müasir Qərb tipli tənqid və ədəbi-nəzəri fikirlərimizin bu günlərə qədər gəlib çatmış ən yüksək nailiyyətlərinin bünövrəsini təşkil edir. Bu baxımdan Arif müəllim XIX-XX əsrlərin ədəbi-estetik ənənə və varisliyini təmin etmiş böyük mədəniyyət xadimidir. Görkəmli şairimiz Rəsul Rza olduqca dəqiq qeyd etmişdir ki, müasir ədəbiyyatımizin genuş üfüqlərdə qanad açmasında, məhəlli məhdudluq bəlasından azad olmasında Məmməd Arifion müstəsna rolu olmuşdur".

Hər iki kitabda klassik ədəbiyyatla bağlı maraqlı, düşündürücü yazılarla qarşılaşırıq. Məsələn, "Füzuli lirikasında kamillik idealı" - bu yazı müəllifin qeyd etdiyi kimi Asif Əfəndiyev sayağı yazılmışdır. Yazıda kamillik idealı nə deməkdir sualına cavablar verili; həm də elə Asif Əfəndiyev sayağı... "Məcnun təkdir. Məcnun təkliyi kamil insanın qeyri - kamil dünyadakı təkliyidir. Məcnun bu dünyaya yaddır! Məcnun yadlığa qeyri-adiliyin adilikdəki yadigarıdır. Qeyslər çoxdur. Məcnun isə tək".

Rasim Nəbioğlunun ən çox sevdiyi sənətkarlar var. Əlbəttə, lap başda Hüseyn Cavid dayanır. O, H.Cavidi təkcə Azərbaycan romantik dramaturgiyasının öncül nümayəndələrindən biri sayılır. Cavidin böyük türk istiqlal şairi Mehmed Akif Ersoy sənəti ilə müəyyən problemlərdə müştərəkliyi maraqlı bir yazıda əks olunur. "Mehmed Akif Ersoy türk ədəbiyyatında bir əxlaq və fəzilət timsalı, bir dini iman sənətkarı və bir milli həyəcan şairi kimi tanınmışdı. M.Arif yalnız şeirinin deyil, bəlkə dünya şeirinin ən üstün bir neçə mənzuməsini söyləyən şairdir".

Bəs onun H.Cavidlə hansı ədəbi bağlılıqlar birləşdirir? Rasim Nəbioğlu yazır ki, H.Cavid də "Maral", "Şeyx Sənan", "Topal Teymur", "Peyğəmbər" kimi pyeslərində türk-islam ideologiyasını, turançılığı bədi-fəlsəfi cəhətdən obraz və lövhələrdə təqdim edirdi".

Rasim Nəbioğlunun yazıları janr baxımından da diqqət çəkir. İcmal yazılar, məqalələr, poeziyyalar üstünlük təşkil edir. O, çap olunmuş elmi kitablar, həmçinin şeir və nəsr topluları haqda xeyli yazılar yazılmışdır.

Buraya onun yubiley yazılarını da əlavə etmək olar. Xalq yazıçısı Hüseyn Abbaszadənin "Çəmbərənkənd balladası", Sabir Süleymanovun "Çinar kəhrizinin suyu", "İslam Kərimin şeir dünyası" ("Gözündən üşüyən dodaqlar" kitabları haqqında) , və s. resenziyaları janrın tələblərinə uyğundur.

Mənim fikrimcə Rasim Nəbioğlunun ayrı-ayrı sənətkarlara həsr etdiyi yazılar daha maraqlı təsir bağışlayır. Onun Cəfər Cabbarlıya, Mikayıl Müşfiqə, Ələkbər Salahzadəyə, Musa Yaquba, Fikrət Sadığa, prosessor Məhərrəm Qasımlıya həsr etdiyi portret yazılar həm üslubi baxımdan, həm də mövzunu əhatə etmək nöqteyi-nəzərindən diqqəti cəlb edir. Xalq şairi Cabir Novruzla bağlı yazıya portret janrının gözəl nümunəsi kimi yanaşırıq. Oxuyaq: "Cabir Novruzun poetik istedadı dünyanı və insanı bütün rəngarəngliyi və ziddiyyətləri ilə diymağa, qavramağa və dərk etməyə qadirdir. Onun yaradıcılığında biz tez-tez təmizlik, mərdlik, yaxşılıq, düzlük bütövlük və s. bu kimi fəlsəfi -estetik anlayışlarla üzləşirik.

Şair bu anlayışları mücərrədlikdən çıxararaq onların konkret - hissi obrazını yaradır və həyat, onun mənası, insan ömrü və onun dəyəri, bəşəriyyətin taleyi, insan və cəmiyyət, şəxsiyyət, zaman və c. problemlər üzərində oxucunu düşüncələrə sövq edir".

Əlbətdə, Rasim Nəbioğlunun ədəbi düşüncələrini əks etdirən daha neçə yazıdan söz açmaq olar. Bir tənqidçi-ədəbiyyatşünas kimi ədəbi ictimaiyyətə də yaxşı tanışdır.

Təbii ki, bu iki kitabla bağlı iradım da var. Rasim Nəbioğlu ən kiçik, həm də məlumat xarakterli neçə-neçə yazılarına da bu kitabları daxil edib. Bəzi yazılarının isə "Mədəniyyəy, İncəsənət, Ədəbiyyat" kitablarına heç bir dəxli yoxdur.

**Rasim sənə uğurlar arzulayıram. Yaz, yarat, yorulma!**

*Qərib MEHDİ*

# BİR UŞAQ AĞLAYIRDI...

**(esse)**

**Ukraynaya qarşı Rusiya işğalı hələ də davam etməkdədir.**

**Müəllif.**

Ata-anasını itirmiş, doğma yuvası qəddar düşmən tərəfindən yerlə yeksan edilmiş; vaxtilə gəzdiyi, seyr etdiyi, qürur duyduğu şəhər(lər) tank, top, raket zərbələrinə, bomba atan təyyarələrin hücumlarına məruz qalmış bir uşaq ağlayırdı. Onun yaşadığı Vətən, Ağ ayıların dolaşdığı düşmən tərəfindən "cəzalandırılırdı". Görəsən, səbəbi, "günahı" nədən ibarətiydi? Sən demə, çox sadə: vətəndaşı olduğu azad bir ölkə seçdiyi yol ilə getmək, müstəqilliyini, ərazi bütövlüyünü qorumaq istəyirdi. Bu uşağın adı Buça idi.

Bu uşağın yaralarından qan, gözlərindən yaş axırdı. Ətraf onu müxtəlif hisslərlə süzüb, təsirlənib, təsəlli verib keçməklə kifayətlənirdi. Onun isə köməyə ehtiyacı vardı. Şəfa tapmaq, özünü ayaqda saxlamaq üçün ətrafdakılardan yaralarına məlhəm umurdu. Bunlar öz yerində. Əsas umacağı cinayətkarın adının qarşı tərəfdən səsləndirilməsi idi. Təsirlənmələr, təəssüflənmələr bəs eləmirdi. Təəssüf ki, Ağ ayıdan qorxanlar ehtiyatlı hərəkət edir, baş verənlərə siyasi diaqnoz qoymaqdan yayınırdılar. Olanı öz adı ilə çağırmağa cəsarətləri çatmırdı.

Biri ağlayan uşağın göz yaşlarına dözmədi:

- Mən bu günahsız göz yaşları barədə bir poema yazacağam!..

Uşaq şairin sözlərinə cavab vermədi. O, şairdən gözlədiyini eşidə bilmədi. Ona görə ağlamağında davam etdi.

İkincisi ağlayan uşağın könlünü ovundurmağa üstünlük verdi:

- Mən bu günahsız uşağın portretini çəkib sosial şəbəkələrdə paylaşacağam. Qoy dünya bilsin ki...

Uşaq rəssamın da canıyanarlığına əhəmiyyət vermədi. Yenə ağlamağında davam etdi.

Üçüncü kəs hüquqşünas, ədalət arayıcısı idi. Özünü arxaya çəkib BMT-ni irəli verdi:

- Hara baxır Birləşmiş Millətlər Təşkilatı?!

Bu vecsiz harayçılıq da uşağın göz yaşlarına məlhəm olmadı. Zərbə almış zavallı ağlamağına ara vermədi.

Dördüncü seyrçi ehtiyatla ətrafına boylanıb ağlayan uşağın qulağına astaca dedi:

- Mən biznesmenəm. Ehtiyacını qismən ödəmək üçün sənə yardım edə bilərəm. Ünvanını mənə de. Ancaq, xahiş edirəm, bu yardımdan heç kim xəbər tutmasın.

Uşaq maddi yardımçıya da məhəl qoymadı. Onun aradığı başqa şey idi. Ona görə də ağlamağına davam etdi.

Dördüncüsü qınayıcı bir nəzərlə uşağa çəmkirdi:

- Eşitməmisənmi böyüyün sözündən çıxan böyürə-böyürə qalar? Gərək öz yolunla gedəsən? Bax inad eləyənin, "mən də varam" deyənin axırı bu günə qalır. Yaxşı olar ki, heç olmasa, bundan sonra yoluna düzələsən.

Uşaq onu "ziyanlı yol"un yarısından qaytarmağa cəhd edənə də reaksiya vermədi. Olanı adı ilə çağırmaq əvəzinə, ona gərəksiz nəsihət verilirdi. Uşaq əvvəlki kimi ağlamağına davam etdi.

Getdikcə "məsləhətçilər"in sayı artırdı. Ancaq uşağın vəziyyətində heç bir dönüş əmələ gəlmirdi. Yəqin ona lazım olanı heç kimdən nə ala, nə də eşidə bilirdi. Onun göz yaşları yaralarını yumaqdaydı.

Uşağının əlindən tutan bir ana da aralıdan keçmək istəyirdi. Elə bu an əli ilə anasına bağlanan uşaq ağlayan uşağı gördü. O, dərhal əlini anasının əlindən üzüb ağlayan uşağa doğru yüyürdü. Ona çatan kimi həyəcanla soruşdu:

- Səni kim vurdu?

Bu sorğu ünvan arayırdı. Nəhayət, ağlayan yaralı uşaq gözlədiyini eşidə bildi. O, başını qaldırdı, minnətdarlıqla yaşdaşının üzünə baxdı və əlinin arxası ilə axan göz yaşını silib dedi:

- Sağ ol! Nəhayət, aradığımı səndə buldum. Gəl tanış olaq: mənim adım Buçadır. Bilmək istəyirəm, sən kimsən? - deyə əlini həmdərdinə uzatdı. Haraya yetən uşaq ona sarı uzanan əli havada tutdu. Həmyaşıdının göz yaşına bənzəyən acı göz yaşları yanağını yandırdı. Qəzəbli qəhər içində sorğunu cavablandırdı:

- Mənimsə adım Xocalıdır…

Qələbənin yolu hədəfi tanımaqdan keçir.

# İSMAYIL İMANZADƏ: "MƏNİM ƏMƏLİ FƏAYİYYƏTİMDƏ, "MƏN" KƏLMƏSİ, "BİZ" DEYİMİNDƏN AXIRDA GƏLİR..."

***(Müsahibim Azərbaycam Yazıçılar Birliyi Mingəçevir bölməsinin sədri, şair-publisist İsmayıl Mərcanlı İmanzadədir)***

**- İsmayıl müəllim, Sizinlə müsahibəyə birbaşa rəhbəri olduğunuz bölmə ilə bağlı başlamaq istəyirəm. Sualım da belədir: - Ötən ili Mingəçevir bölməsi üçün necə xarakterizə edə bilərsiniz?**

- Başqalarını deyə bilmərəm, ancaq adətən mən sevincini-fərəhini yaşayıb, qəminə-qüssəsinə sinə gərdiyim il sona çatanda, arxaya qanrılıb, 365 gün ərzində gördüyüm işləri bir daha nəzərdən keçirməklə, təzə ilin "ab-havası" üstə köklənməyə çalışıram. Bu prizmadan baxdıqda, ilk növbədə AYB Mingəçevir bölməsinin son bir il ərzində gördüyü işlərin bir qismini xatırlatmaq istəyirəm:

Yazarlarımızla təzədən bir araya gəlməklə bir neçə il ərzində bizləri sillkələyən pandemiya xofunu dəf etməyə nail olduq. Əvvəllər olduğu kimi yenə də hər ayın 15-də yazarların yaradıcılıq məşğələsi keçirildi. Hər ayın sonuncu bazar günlərində isə bölmənin nəzdindəki "Palitra" Ədəbi Klubunda yazarları bir araya gətirdik. Tanınmış şair Elşən Əzimin Prezident təqaüdünə layiq görülməsi və onun Şuşaya-Vaqif Poeziya günlərinə qatılması sevincini birlikdə yaşadıq.

AYB Mingəçevir bölməsinin rəhbəri qismində bölmənin fəaliyyəti ilə ilgili müsahibə (Yeri gəlmişkən, müsahibəyə görə qəzetinizin Baş redaktoru İradə Tuncaya və yazının müəllifi kimi sizə minnətdarlığımı bildirirəm) əvvəlcə "Ədalət"də sonra isə, "Yenisəs.az", "Manera.az" və bir sıra onlayn dərgilərdə oxuculara təqdim olundu.

Mart ayının əvvəllərində mənim xeyir-duam və təqdimatımla "Ədəbiyyat qəzeti"nin 2 səhifəsində 13 yazarımızın şeir və nəsr əsərləri yer aldı. May ayının əvvəllərində tanınmış şair, AYB-nin üzvü Məhyəddin Məhərrəmoğlunun 80 illik yubileyi keçirildi. May ayını sonlarında çapdan çıxan "Ruhumuzun yaz havası" adlı almanaxımızın iyun 9-da Mingəçevirdə, noyabrın 22-də isə AYB-nin Natəvan klubunda təqdimat mərasimləri keçirildi...

Ötən ilki ən önəmli işlərimizdən biri də payızda XIX əsrin görkəmli klassik Azərbaycan şairi Xurşidbanu Natəvanın ahadan olmasının 190 illiyinə həsr olunmuş yubiley gecəsini keçirməyimizdir. Ümümən, belə demək caizsə, bölmənin ötən ilki fəaliyyəti yaddaqalan olub...

**- Şəxsi yaradıcılığınızda 2022-inin yeri?**

- Bir az qəribə səslənsə də deyəcəyəm,-ömrüm boyu-illah da gənclik illərim arxada qalandan sonra,-axşamlar yatağıma uzanan kimi gün ərzində atdığım addımlarımı təhlil edir, bir növ özüm-özümə hesabat veririb, ictimaiyyət qarşısında məsuliyyət daşıdığımı özümə dönə-dönə təlqin edirəm.

İl ərzində xeyli sayda şeirlər yazmış, "Mən də belə avamam", "Qəzetlər yalanımı necə ifşa etdi" adlı iki sənədli hekayəm, 1978-1993-cü illər aralığında Cəbrayıl rayonunda rəhbərlik etdiyim "Ümid" Ədəbi Klubu ilə ilgili "Ümid" Ədəbi Klubu Cəbrayılın ədəbi simvolu idi" və "Xudafərin" qəzetinin 90 illik fəaliyyəti ilə bağlı "Mənim sevimli qəzetim" adlı publisistik yazılarım həm "Kredo", həm də "Xudafərin" qəzetlərində dərc edilib.

Yanvar ayınında "Azərbaycan" jurnalının 5 səhifəsində, "Azad qələm" jurnalının isə 2 səhifəsində, mart və sentyabr aylarında "Ədəbiyyat qəzeti"ndə (hər dəfə bütöv səhifədə), aprel ayında




"Ədalət"də, mayda "Kredo"da, oktyabr ayında isə "525-ci qəzet"də xeyli sayda şeirim oxuculara təqdim olunub. "Azərbaycan" jurnalının ötənilki iyul-avqust tarixli birgə sayında "Şuşa etüdləri" adlı lirik poemam işıq üzü görüb. "Manevr.az", "Sabaha-inamla.az", "Yenisəs.az", "Kulis.az", "Manera.az", "Dəlidağ.az", "Kultura.az", Yenixəbər.org"... onlayın saytlarında və dərgilərində xeyli sayda şeirlərim, publisistik yazılarım oxucuların diqqətinə çatdırılıb.

**- Vaqif poeziya günlərinin yaradıcılığınızda və bölmənin həyatında yeri, izi?**

- Ana Vətənimizin qeyrət alası, gözəllik tacı Şuşanı 1989-cu ildən sonra təzədən ziyarət etməyim (sovetlər dönəmində bu əsrarəngiz gözəliyi ilə hamını heyran edən şəhərdə 5 dəfə olmuşdum) və xalqımızın qalibiyyəti ilə sona çatan II Qarabağ Müharibəsindən sonra Vaqif Poeziya günlərində iştirakım yaddaşımda əbədi olaraq iz salıb. 2021-ci Ildə Şuşaya gedib qayıdan kimi yol qeydlərimi və yuxarıda bəhs etdiyim "Şuşa etüdləri" adlı lirik poemamı yazıb mətbuatda dərc etdirmişəm. Qədim mədəniyyət mərkəzi olan Şuşa Qarabağın döyünən ürəyidir və bu möhtəşəm qala-şəhər yurd sevgimin bir parçasıdır!..

**-Uzun müdət müzakirə mövzusu olan AYB- nin qurultayı artıq tarixdi, Bu tarix, yəni Qurultay və onun barəsində fikirlərinizi bilmək maraqlıdır...**

- Azərbaycan Yazıçılar Birliyinin XIII qurultayı yazarlarımızın ali məclisidir və tədbirin axırlarında və sonrakı günlərdə davam etdirilən yersiz söz-söhbətlər mənim fikrimcə, xoşagələn hal sayıla bilməz. Hər bir yazarın qabiliyyəti ortaya qoyduğu əsərlərlə ilgilidir, başqalarını qaralamaq hesabına hansısa vəzifəyə can atmaq istedadlı söz adamlarına xas olmamalıdır. Mənim həyatımda, ədəbi yaradıcılığımda, son 22 il ərzində rəhbərlik etdiyim bölmədə "mən" kəlməsi "biz" sözündən axırda gəlir...

Yeri gəlmişkən, qurultayın sonunda rəhbər orqanların seçim vaxtı komissiyaların birində təmsil olunmağım, təkcə bölmə rəhbəri kimi mənə yox, həm də mingəçevirli yazarlara yönəlik ehtiram hissinin ən bariz nümunələrindən biri idi...

**- Bir az şablon səslənsə də bu ilin yaradıcılıq proqramınızla bağlı - Şəxsi və Bölmə müstəvisində nə deyə bilərsiniz?**

- Yeni ilin elə ilk günlərindən əməli fəaliyyətimizi davam etdirməkdəyik. Yanvarın 15-də və ayın sonuncu bazar günündə yazarlarımızla yenidən bir araya gəldik. Şair-publisist Məmməd Mərzilinin I Qarabağ Müharibəsində şəhid olmuş ərənlərdən və Ağdam bölgəsində düşmənlə ölüm-dirim savaşına qatılan əsgər və zabitlərin. döyüş hünərlərindən bəhs edən "845" adlı kitabının təqdimat mərasimini keçirdik. AYB Mingəçevir bölməsinin "bar çiçəkləri" adlandırdığımız gənc yazarlarımızdan Ayşən Rəhim, Elçin Məhərrəmli və Xəqani Hunalpın yaradıcılıq hesabatlarını dinləyərək, onlara tövsiyyələrimizi verdik. Mingəçevir Dövlət Dram Teatrının direktoru İntiqam Soltanın dəvəti ilə 10 nəfər yazarımız və teatrın rəhbər heyəti "Dəyirmi masa" arxasına əyləşməklə yaradıcılıq mübadilələri etdik.

Şəhər İcra Hakimiyyətinin mənəvi dəstəyi ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibəti ilə iki nominasiya üzrə müsabiqə keçirmək istəyimizi reallaşdırdıq. Müsabiqənin yekununda,-aprel ayının ikinci ongünlüyündə Mingəçevirdə Poeziya gecəsi keçirməyi də planlaşdırdıq.



Özümlə bağlı qeyd etmək istəyirəm ki İnşallah, vaxt məhduiyyətinə baxmayaraq, yeni şeirlər yazıb ortaya çıxaracaq, bölmə üzvlərinin,-illah da ədəbi aləmdə ilk uğurlu addımlarını atan gənc şair və yazıçılarımızın ən yaxşı əsərlərinin mətbuat səhifələrində, onlayın qəzet və dərgilərində dərc olunmasına yardımçı olacağam. Ötən il uşaqlar üçün yazdığım şeirlərin az olmasına rəşmən, bu il çalışacağam ki balalara borclu qalmayam...

**- İsmayıl müəllif, Böyük Zəfərimizdən sonra Qarabağa, təbii ki, həm də Cəbrayıla qayıdış artıq xəyaldan reallığa çevrilib.Bu mənada şair İsmayıl İmanzadə Cəbrayıla qayıdış istəyini yaradıcılığında , eləcə də əməli işin də gerçəkləşdirmək bağlı nə düşünür? Konkret bir planınız varmı?**

- İnsan yaşlandıqca öz doğma elinə-obasına daha çox can atmağa çalışır. Son otuz ilə yaxın zaman kəsimində doğulub, boya-başa çatdığım, uşaqlıq, yeniyetmlik və gənclik illərimin şahidi olan Cəbrayıla təzədən qayıdaraq, dünyaya göz açdığım Böyük Mərcanlıda yaşamaq ən ülvi arzularımdan biridir. İllər boyu köçkünlüyün ən sərt üzü ilə rastlaşmış, niskilimi, yurd həsrətimi qələmə aldığım şeirlərimdə, arzularımda, xəyallarmda yüz dəfələrlə "getdiyim" hər qarış torpağını, daşını-kəsəyini bağrıma basdığım bu ulu məkan sabahkı günlərimin yelkəni, ümidlərimin közərtisidir. İnşallah, ömür möhlət versə Cəbrayılda ədəbiyyatımıza sidq-ürəkdən xidmət etməyə çalışacaq, yazarlarımızı 70-80-cı illərdə olduğu kimi yenidən bir araya gətirəcəyəm...

**-İsmayıl İmanzadəyə AYB-nin üst qurumu və çevrəsi Mingəçevirdən necə görünür?**

- AYB-nin rəhbərliyi ilə münasibətlərimiz qarşılıqlı hörmət və ehtiram hissinə söykənir. Heç bir göstəriş və işimizə müdaxilə olmadan fəaliyyətimizi davam etdiririk. Sağ olsunlar, bölmə rəhbəri kimi əməli fəaliyyətimdən razı qalmaları, bununla bağlı yeri gələndə ünvanıma yönəlik səmimi kəlmələri hərdən gəlib mənə də çatır. Ancaq AYB-nin xəttiylə düzənlənən layihələrdən bəzən uzaqda qalmağımızı müsbət hal hesab etmirəm. Konkret olaraq 44 günlük II Qarabağ Müharibəsindən sonra AYB-nin xəttiylə nəşr edilən kitabdan kənarda qalmağımız (hansı ki mənim və bölmə üzvlərindən bəzilərinin şəhidlik mövzusunda qələmə aldıqları əsərlər, tarixi düşmənlərimiz üzərində qazanılan Zəfər sevincimizi tərənnüm edən xeyli sayda şeirlərimiz də mövcuddur...) təəssüf doğurur.

Yeri gəlmişkən, tanınmış ədəbiyyatşünas alimlərin, tele-kanalların, yersiz təriflərin hesabına özlərini "yepyekə" yazar hesab edən bəzi şair və yazıçı "dostlarımın" əyalətlərdə yaşayan söz adamlarına üstən aşağı baxmaları ilə razılaşa bilmirəm. Belələri anlamır və anlamaq istəmirlər ki, bölgələrdə yaşayan istedadlı qələm sahibləri onlardan nəinki əskik, bəlkə də hardasa bir boy üstündürlər...

Sonda şahidi olduğum bir qəribə hadisədən müfəssəl şəkildə bəhs etməklə fikrimi sonuclamaq istəyirəm. 2021-c ildə bölgələrdəki ədəbi aləmdən söz açan bir xanım yazarın "Ədəbiyyat qəzeti"ndə dərc edilmiş hesabat xarakterli yazısını oxuyanda çox məyus oldum. Yazının müəllifi sıradan biri yox, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitunun məsul elmi işçisi idi.

Onun yazısında bölgələrdə fəaliyyət göstərən AYB bölmələrindən yalnız bir neçəsindən bəhs edilsə də, Mingəçevir və digər bölmələrə etinadsızlıq ön planda gəlirdi. Nəinki bölmənin, heç yazarlarımızdan birinin də olsa adı çəkilmirdi. Sonradan məlum oldu ki məqalə müəllifi zəhmətə qatlaşıb, araşdırmalar aparmaq əvəzinə sosial şəbəkədə (feysbuq) "dostluğunda" olan əksər cızmaqaraçıların "yaradıcılığından" bəh-bəhlə söz açmağı öz aləmində daha yetərli hesab edib...

Məni yaxından tanıyanlar bilirlər ki nə qədər səbrli-təmkinli şəxs olsam da haqsızlıq görəndə səsimi içimdə boğan adam olmamışam. Həmin günlərdə iradlarımı əvvəlcə şifahi şəkildə institutun şöbə müdirinə, giley-güzarımı bir professor dostuma telefon vasitəsiylə bildirdim. Sonra isə məsələ ilə ilgili etirazımı o vaxtlar institun direktoru, akademik İsa Həbibbəyliyə rəsmi məktub vasitəsiylə çatdırdım...

Şəxsi qənaətimə görə, bilə-bilə, özü də şüurlu şəkildə görülən önəmli işləri göz ardına vurmaq ən azından etinasızlıq və tapşırılan işə məsuliyyətsiz yanaşmaqdır... Eybi yoxdur, keçmiş olsun! Onsuz da mən tərif aludəsi, gördüyüm işləri reklam etmək fikrindən uzaq adamam!..

**Müsahibəni qələmə alan:**
**Əbülfət Mədətoğlu**

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi**

**№ 6 (2330) 11 fevral 2023-cü il**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycan dünya inteqrasiyasında

**Heç kəsə sirr deyil ki, bu gün dünyanın qabaqcıl iqtisadi inkişaf modelini öyrənmədən və mənimsəmədən yüksək tərəqqiyə nail olmaq mümkün deyil. Ən azından ona görə ki,ölkəmiz gec- tez inkişaf etmək üçün bu mərhələni keçməlidir. Təbii ki, bu mərhələni keçmək də bir o qədər asan və sadə deyildir. Bunun üçün hər bir ölkənin itisadi inkişaf strategiyası olmaqla yanaşı, onun Dünya və Avropa iqtisadi strategiyasına da keçmək və tərəqqi etmək qüvvəsi olmalıdır.**

Bu gün demokratik və azad dövlətlərin möhkəm birliyi kimi Avropa faktiki olaraq vahid iqtisadiyyat sisteminə, müasir dünyanın əsas investisiya mərkəzinə, balanslaşdırılmış sosial siyasətə malik olmaqla beynəlxalq münasibətlrədə çox mühim rol oyanyır.

Avropa Komissiyasının sədri J.M.Barrozu bu barədə deyib: " Avropanın formalaşmaqda olan yeni dünyada rolu barədə mən belə düşünürəm: birincisi, AB şübhəsiz ki, qlobal subeyektdir, ikincisi, AB özünün spestik siyasətini həyata keçirir. Mən bunu səmərəli, çoxtərəfli yanaşma adlandırıram.

Üçüncüsü, öz spestik təbiəti sayəsində AB ən müxtəlif mənbə və xarakterini çağırışlara cavab verə bilən çoxsahəli xarici siyasət mexanizmlərinə malikdir. AB dünyada ən böyük ümumi bazara ÜDM-a malikdir".

Göründüyü kimi Avropada dünya iqtisadiyyasına inteqrasiya olunmaq o qədər də asan deyildir. Amma bütün bunlara baxmayaraq, Azərbaycan zaman- zaman öz milli, iqtisadi xəttini müəyyənləşdirməklə yanaşı, Avropa və Dünya iqtisadiyyatına inetqrasiya olunmaq üçün ciddi addımlar atıb və bu sahədə deyə bilərik ki, böyük uğurlar da əldə edib. Əlbəttə, müstəqillik dövründə hər bir ölkə köhnə iqtisadi sistemdən uzaqlaşmaqla yanaşı, yeni bir sistem də qurmağı bacarmalıdır. Bayaq dediyimiz kimi bu sistem heç də asanlıqla həyata keçirilmir. Ulu Öndər Heydər Əliyevin hakimiyyəti dövründə, eləcə ə Prezident İlham Əliyevin fəaliyyət göstərdiyi zaman kəsiyində çox fərəhlə deyə bilərik ki, Azərbaycan Cənubi Qafqazda Avropada dünya iqtisadiyyatına inteqrasiya olunan qabaqcıl ölkədir.

Təkcə bir faktı qeyd edə bilərik ki, Bakı-Ceyhan neft kəmərinin çəklişi ilə əsrin müqaviləsi gerçəkləşdi və ölkəmiz Avropanı neftlə təmin etməyə başladı.

Üstəlik, təbii qazın Avropaya ixracı da Azərbyacanın Avropa və dünyada iqtisadi nüfuzunu və siyası mövqeyini daha da gücləndirdi. Avropa bir daha yaxşı anladı ki, Cənubi Qafqazda nə Ermənistandan, nə də Gürcüstandan iqtisadi kömək gözləmək sadövlük olardı. Çünki, qısa zaman kəsiyində ölkəmizin Avropanın neçə- neçə ölkəsini neft və qazla təmin etməsi bir daha təsdiq etdi ki, artıq məmləkətimiz dünya iqtisadiyyatına çox sürətlə daxil olur.

Ölkəmizin Türkiyə, Rusiya, və eləcə də Qazaxstan, Türkmənistan, Qırğızstan, Tacikstan, Belarusiya ilə bununla yanaşı, digər MDB dövlətləri ilə iqtisadi və siyasi əlaqələrin yeni model üzərində qurulması tərəqqimizi bir qədər də artırdı. Artıq Azərbaycanın Bolqarstanla, Rumuniya ilə, Macarstanla, Albaniya ilə, o cümlədən, başqa Avropa dövlətləri ilə sıx iqtisadi əlaqələri zaman- zaman ölkəmizin nüfuzunu bir qədər də möhkəmlətdi. Artıq nəinki Avropada, hətta dünyada ölkəmizin beynəlxalq inteqrasiyaya daxil olması bir fakt kimi qəbul edilib. Və bununla da həmin qurumlar Azərbaycanın demokratik, iqtisadi cəhətdən güclü dövlət olduğunu qəbul edirlər. Başqa cür də ola bilməz!




Bu gün Azərbaycan qardaş Türkiyədə, Rusiyada və eləcə də yuxarıda adını çəkdiyimiz ölkələrin iqtsadiyyatına sərmayələr qoyur. Çox uzağa getməyək, qonşu Gürcüstanın iqtisadiyyatının inkişaf etməsi üçün ölkəmiz milyonlarla manat vəsait xərcləyib. Üstəlik də bu gün Qars-Gürcüstan-Bakı dəmiryol xəttinin çəkilişi çox uğurla davam edir. Bununla yanaşı, dünya və Avropa iqtisadiyyatına böyük xeyir verəcək Zəngəzur- Naxçıvan dəhlizinin tikintisi sürətlə davam edir.

Həm Horadiz-Ağbənd dəmiryol xəttinin inşası, həm də avtomobil yolunun tikintisi paralel aparılır. Əgər bu dediyimiz layihələr həyata keçirilərsə, bu işdən qonşu ölkələr və eləcə də digər Avropa ölkələri milyardlarla qazanc əldə edə bilərlər.

Görünən odur ki, bu gün Azərbyacanın iqtisadi cəhətdən iri addımlarla irəliləməsi bir çox qonşu ölkələrin narahatlığına səbəb olur. Bu narahatlıq da ən çox İranda və Ermənistanda yaranır.

Hansı ki, Zəngəzur dəhlizinin açılışından ən böyük xeyri bu iki ölkə əldə edə bilər. Onsuz da nəyin bahasına olursa, olsun, bu iqtisadi dəhliz açılacaq. Bu dəhlizin açılması tək Azərbyacanın deyil, Türkiyənin Rusiyanın və Avropanın böyük maraq dairəsindədir.

İqtsadiyyatın sürətli inkişafı üçün hər ölkədə sabitlik tələb olunur. Azərbaycan da dünyanın ən təhlükəsiz və sabit məmləkətidir.

Çünki ölkəmizə dünya şöhrətli siyasətçi Prezident İlham Əliyev rəhbərlik edir. 44 günlük İkinci Qarabağ savaşında Azərbyacan öz ərazi bütövlüyünü 30 ildən sonra bərpa etdi. Yəni, işğal altında olan torpaqlarımız azad olundu. Təbii ki, BMT-nin 4 qətnaməsi 30 il icra olunmadı, ermənilər beynəlxalq təşkilatların çağırışlarına məhəl qoymadı və nəticədə Azərbyacan ordusu işğal altında olan torpaqlarımızı yağı düşməndən təmizlədi. Bu unikal və tarixi hadisədən sonra Avropa dövlətlərinin Azərbyacnla siyasi və iqtisadi əlaqələri daha da möhkəmləndi. Tarix bir daha təsdiq etdi ki, demokratik hüquqi dövlət olan Azərbaycan öz inkişaf yolunu düzgün seçib və bu sahədə uğurlu adddımlar atıb.

Onu da qeyd edək ki, Azərbyacanın iqtisadi potensialı çox güclüdür. Kiçik məmləkət olmasına baxmayaraq, Azərbyacan yerüstü və yeraltı sərvətlərlə zəngindir. Xəzər dənizində aparılmış geoloji kəşfiyyatlar, tətqiqatlar bir daha təsdiq edir ki, ölkəmizin çox zəngin neft və qaz yataqları var.

Bu neft və qaz yataqları məmləkətimizə yüz milyardlarla dollar dəyərində xeyir gətirə bilər.

Təsadüfi deyil ki, bu gün Azərbyacanda neftin çıxarılmasında və yeni yataqların kəşf edilməsində ən yeni texnologiyalar istifadə olunur. Bu işdə İngiltərənin "BİPİ" şirkəti çox böyük işlər görüb. Bizim İngiltərə ilə və həmin şirkətlə sıx əlaqələrimiz bir daha təsdiq edir ki, Azərbaycan dünya iqtsadiyyatına bu günün özündə də sürətlə inteqrasiya olunur. Düzdür, müəyyən ölkələrin özləri bizim inkişafımızı götürmür.

Amma bu onların istəyindən aslı deyil. Çünki Azərbyacanın Avropa ölkələri ilə və eləcə də dünyanın bir çox dövlətləri ilə uzun illərdir sıx iqtisadi əlaqəsi var.

Kim nə deyir desin, Azərbaycanın inteqrasiyasını Avropa iqtisadiyyatına və dünya iqtisadiyyatına heç bir qüvvə saxlaya bilməz.

Ona görə ki, Azərbaycan dövlətinin öz müstəqil siyasəti və müstəqil iqtsadi sistemi var. Bu sistem üzərində qurulan inkişaf zaman- zaman daha da tərəqqi edəcək, ölkəmizin beynəlxalq aləmdə nüfuznu yüksəldəcək, dayanıqlı iqtisadi tərəqqi ilə çox ölkələri geridə qoyacaqdır.

**Çünki Azərbyacan Prezidenti İlham Əliyev nəyi necə etməyi çox yaxşı bilir və bu yolda atdığı addımlar ölkəmizin siyasi və iqtisadi nüfuzunu daha da gücləndirir. Güclü Azərbyacan, həm də güclü iqtisadiyyat deməkdir!**

**Faiq QİSMƏTOĞLU**

**AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ**

# AĞRINI YAZMAĞIN AĞIRLIĞI



***VAQİF OSMANOV***

**Ağrının, dərdin ölçü vahidi ağırlıqdır. Ağrıların, dərdlərin ağırlığını Vətən, insan, millət, torpaq sevgililəri çəkir, daha yaxşı anlayır, duyur və yazırlar. Qazi şair, publisist, tərcüməçi, birinci Qarabağ müharibəsinin zabiti, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Rəsul Rza mükafatı laureatı Rəfail Tağızadə qismətinə belə ağır və ağrılı yükü daşımaq missiyası götürən vətəndaş, həm də Məmməd Araz təxəyyülünə söykənsək, Vətən daşıdır. Onun taleyinə 65 illik ömür yolunun yarısına Vətən ağrılarını yaşamaq və yazmaq düşüb. Rəfail Tağızadənin poeziyası ispan şairi Federik Qarsia Lorkanın təbirincə desək, danışan rəsmlərdir. Bu "rəsmlər"də həyatının ayrı-ayrı anlarını - poetik payızını, "su üzərində bahar"ını, ömrünün beşinci - sevgi fəslini, son otuz ilin acı "Qarabağ rüzgarları"nı, gecələri nurlandıran xəyallarını, Şopenin nöktürnünə köklənmiş ürəyini yaşadan şair tarın sarı simi kimi həmişə kövrək və duyğuludur. Qəlbinin tellərini ehtizaza gətirən Rəfail müəllimin ilhamı zamanın barometri kimi həssasdır - "muğam üstündə qara-qırmızı Xocalıya ağı" da oxuyur, polyak şair "Adam Mitskeviçin xatirəsinə on nəğmə" də "bəstələyir", "Qıç başdaşı" heykəli də "yonur". Bilir ki,**

***Bir not dəftəridi həyat -***
***insan ömrü***
***bir nöktürn qədər qısa.***

"Hər kəs eyni anda gecəni yaşayır, ancaq hər kəsin qaranlığı fərqlidir" düşünən La Edri sanki Rəfail Tağızadənin "gecə xəyalları"nı şairlə birgə yaşayır. Şairin poetik gecələrinin aydınlığında doğulan ilahi fikirlər anadilin şirin ləhcəli nəğmələri kimi könülləri ovsunlayır, sabaha körpü salır, ömür payına düşən gecələri "əllərinin içində sabaha daşıyır".

***Üstümə tökülən qəm damcıları***
***isladıb, isladıb boğacaq məni,***
***sevincə hamilə bildiyim gecə***
***yenə qəm içində doğacaq məni.***

Ağırdı... Çox ağırdı son otuz ilin ağrılarını yazmaq. Vətən və millət ağrılarını yaşamağı, yaşatmağı, çəkməyi və yazmağı Tanrı sevdiyi bəndələrinə tapşırıb. Rəfail Tağızadə "Qarabağ dərdinə ədəbi pasport verdi. Bu istər-istəməz insan ruhunu tərpədir... Onun şeirləri sakitdir, qəmlidir, hay-küysüzdür, mənalıdır, obrazlıdır, lakonik və yaddaqalandır" (Vaqif Bəhmənli). Bu misralar ağrının poetik heykəlidir:

***Əsgər paltarına bükülüb***
***basdırılan ayağın***
***bu gecə diksinəcək qəbir yatağında.***
***"Qalx!" - deyib,***
***qışqırıb qaldıracaq***
***yuxulu məzar qonşularını.***
***Silib-təmizləyib,***
***sonra da uzanıb yatağın küncünə***
***sahibini gözləyəcək.***
***Gedəcəksənmi?***
***Nə özün gedə bildin,***
***nə də apardılar səni.***
***Torpağı kimi qəbri bölünən, qardaş.***
***Özün qaçqın qəbiristanlığında***
***qıçın Qarabağda...***

Rəfail Tağızadə yetkinləşən, özünü anlayan gündən gələcəyinin, əqidə və amalının eskizlərini dəqiq cızıb: "Zaman zamanında deyilən sözləri sevir. Zamanın sözü olduğu kimi sözün də zamanı var. Mən zamanın sözünü yazmaq amacı ilə əlimə qələm alıram".

Rəfail müəllimin qənaətinə görə, "ən ağrılı ömür savaşda yaşanan ömürdü. Və bu ömürlərin ən şərəflisidir. Vətən üçün, torpaq üçün yaşanan ömür!"

Ömrünün son otuz ilində o, gecə-gündüz "Xəyali Şuşa"sına səyahət etdi, "Ağdamsızlıq"dan gözləri yollarda qaldı, Vətən havasından "Ağdamın iyi gəldiyini" duydu.

"Qəbri bölünən qardaş"ından, onun "Qıç başdaşı"ndan yazanda müəllifin ürəyindəki çatları görmək, duymaq üçün insana bir ürək, iki göz bəs eləməz. Bunu o anları görənlər, nəmli, qırovlu səngərdə gecələri dirigözlü açanlar, səngərdəki döyüş dostunun "qıçım harada idi, basdırdınız, yoxsa, elə ortalıqda qaldı?" sualı qarşısında aciz qalıb nitqi tutulanlar, "başdaşında, daş başında məmləkətin tarixi yazılanların" ruhu qarşısında sayğı sükutunda dayananlar - "Qarabağ Qazisi haqqında ballada" yazanlardan yaxşı kim anlayar?

Bizim uşaqlıq, yeniyetməlik, gənclik çağımızda dərsliklərdə, mütaliə etdiyimiz kitablarda tez-tez "barıt qoxulu sətirlər" bənzətməsinə rast gələrdik. Ancaq bu üç kəlmənin dərinliyinə varmağa beynimizin gücü çatmazdı. Biz elə bilirdik müharibə bizim taxta "avtomat"lı "döyüş"lərimizdə və kinolarda olur, gerçək həyatda insanlar can deyib, can eşidirlər. Ağlığımıza da gəlməzdi ki, illər keçəcək biz, övladlarımız, hətta nəvələrimiz barıt qoxulu səngərlərdə Vətənimizi xain, bədxah, başqasının torpağına tamah salan düşmənlərdən qoruyacağıq. Rəfail müəllimin, eləcə də onun həmyaşıdlarının taleyinə uşaqlığın taxta avtomatlı "döyüş"ləri də, qanlı-qadalı həqiqi döyüş yolu da, ölüm-itim də, döyüşlərdən yarımcan qayıtmaq da, sahibindən ayrı düşmüş ələ, qıça qəbir qazmaq da yazılıbmış.



Müharibə dağıntıdır, ölümdür, yoxluqdur. Ancaq "elə yoxluqlar var ki, onların işığı varlığın işığından çoxdur. Şəhidin işığı zülmətləri dəlib keçən işıq kimidir".

Blindajda köhnə, dəlik-deşikli hərbi gödəkcəsini üstünə atıb bir gözü açıq, o birisi yarıyumulu mürgüləyənlərdən (Allah kəssin belə yuxunu!), gödəkcəsinin nəmini, qırovunu qarlı, şaxtalı havada bəyaz don geyinən ağacın budaqlarından asıb "qurudan"lardan biri də Rəfail Tağızadədir. Belə paltar "qurutmaq" üsulunu ancaq həmin günləri, illəri yaşayanlar bilərlər.

"Qarabağ ağrısı"na "Qarabağ dərdim" deyən, "Qarabağın payızına payız gəldi"yindən kədərlənən, "Arzularının, xəyallarının yetkinlik yaşı"nda ürəyini Vətən ağrıları göynədən, "Yoxluqda var olan şəhər"ini xəyalında addım-addım, xatirə-xatirə gəzən, "Köhnə ünvana yazılan məktublar"ın çatıb-çatmaması nigarançılığı narahat ürəyinə dinclik verməyən, həmişə "Uzaqdakı doğma adam"ları gözləri axtaran, "Yolçusuz yolların yolçusu" kimi Qarabağın ot-ələf, kol-kos, toz-torpaq basmış yollarını, cığırlarını, çəhlimlərini, rizlərini "Ağır taxtalı kişi"lər kimi addımlayan, "Məmləkətin uğursuz kişiləri"nin dərdlərinə şərik olan, "Gözümüzdə, beynimizdə basdırdığımız ölülər"i təkcə adınasında, qırxında, ildönümündə, qara bayramlarda yox, həmişə ziyarət edən, "Payız taleli adam"lara Tanrıdan bahar ömrü arzulayan, ancaq arzusu ürəyində qalan, elin-obanın bənövşəsinin, qapılarındakı qızılgüllərin düşmənə hətta ətrini qıymadığından, "Doqquz qoz ağacı"nın yağılara məhsul vermədiyindən təsəlli tapan, Azərbaycanın hər guşəsində evlərin qarşısından keçəndə gözləri nəmlənə-nəmlənə "Eyvan həmin eyvan idi" düşünən Rəfail Tağızadə "Hər yerdə seçilənlər"dən, "Başqaları üçün yaşayanlar"dandır.

Onun "Kəlbəcər ucalığı", Şuşası "Bizim olmayan 8 may"da qalmışdı. "Millətin özünəqayıdış günü"ndən sonra "Şuşa zirvəsi" Zəfər zirvəsi, "Şuşada yaşananlar" ömrünün ən yaddaqalan, qürurlu günləri kimi unudulmaz oldu. Azərbaycan əsgər və zabitləri Rəfail müəllimin, bütün Azərbaycan xalqının üstündəki utancverici "məğlub adı"nı sildi.

Onu "İtirə-itirə getdiyi Mənəvi itkilər", "Adını bilmədiyi doğmalar"ın taleyi də düşündürür. Ağrıdan, dərddən, qan-qadadan, itkilərimizdən yazmaq əzabdır, ürəyinə dağlar çəkən ağrılara dözüb yaşamaq da. Yazanın ömrünü güvə kimi yeyir. Vətən təəssübkeşləri bundan da qorxmur, sözünü silaha çevirib ömrü boyu şərlə vuruşur. Zəfər mübarizədə, döyüşdə qazanılır.

Hər qarış torpaq uğrunda cihada hazır olan ərənlər, qanını Vətənə halal edən şəhidlər, qanı ilə müqəddəs savaşın himnini yazan qazilər - Vətəni müqəddəs canlı varlıq - Ana bilənlər üçün Vətən nədir yox, kimdir? Rəfail müəllim üçün ana Vətənin bir yaralı balası Qarabağ onu "harda olsa qoynuna çəkən torpaqdı, ciyərlərinin süzgəcsiz sorub qəbul etdiyi havadı, gecələr onu darıxmağa qoymayan ulduzlu əsrarəngiz səmadı, dərdlərimizə dözməyib iri-li-xırdalı göz yaşı tökən buludlardı", qayaları, daşları yarıb gələn bulaqlardı, həyat arteriyamız çaylardı.

Rəfail Tağızadə heç vaxt ilk sevgisinə xəyanət etməyən aşiqdir:

***Hər gecə səngərin o tayından***
***məni çağırırlar.***
***Bu xəyanət deyil, əzizim.***
***Bu ilk sevgidi.***
***Yaddan çıxmaz, unudulmaz,***
***Vətən sevgisi.***

***Mən getdim...***
***Sən salamat qal.***
***Aylı gecələrdə***
***bizli xoş xəyallara dal.***

Rəfail Tağızadə mübariz insandır, təkcə "Əsiri olduğu hisslər"ə təslim olur. Çağdaş zamanda "Cəmiyyətin şəxsiyyət problemi" onun üçün prioritet məsələdir, mənəvi ağrılar ona rahatlıq vermir. Vətən torpaqlarının hər qarışını azad görəndə əzab və ağrılar Rəfail müəllimi birdəfəlik tərk edəcək, o, istəyinə çatacaq, bu vüsal yurd, torpaq, el həsrətli adamın həsrətinə son qoyulacaq. "Həsrətini çəkdiyi qapılar" taybatay açılacaq.

A.Kamyuya görə, əgər yalan danışa bilmirsənsə, azad insansan. Zamanın ağrılarını bəzək-düzəksiz, olduğu kimi yazmaq, acı həqiqətlərin gözünün içinə dik baxa bilmək üçün vicdan, əqidə, sevgi, cəsarət bütövlüyü əsas şərtdir. Bu Tanrinin tövsiyə etdiyi əməldir, bəşəri imtahandır. Bu sınaqdan üzüağ çıxanlar bəxtəvər insanlardı, çünki başıuca gəzirlər.

İlahi Sözü zinətləndirən Söz adamı, "bizim yerimizə çəkdiyi xəcalətdən kiçilən dağlar, çuxura düşmüş gözə dönən dərələr, yiyəsizlikdən üşüyən", yurd-yuvasızlıqdan Azərbaycanın müxtəlif guşələrinə sığınan Xarıbülbül, utancaq bənövşə, Qarabağ atlarının kişnərtisinə, muğam məclislərinə həsrət qalan Cıdır düzü, milli dirçəlişimizin rəmzinə çevrilən Topxana meşəsi, həzin zümzüməli, büllur gözlü İsa bulağı, "tək qoyub gəldiyimiz bizdən küsən torpaqlar" bizdən vəfalıdır, mərhəmətlidir, bağışlamağı bacarandır, doğmalarına qucaq açıb, üzündən, gözündən öpüb barışandır. Necə ki, Zəfər günündən sonra bizi qarşıladı, bağışladı, vəfasızlığımızı üzümüzə vurmadı.

Axı torpaq Anadı...

"Üstümüzdə dərdlərin ən böyüyü - o boyda torpaq dərdi var"dı, qazi şair. Dərdimizə dərman tapdı kasıb daxmalarda, "vaqonun altından asılan beşik"lərdə böyüyən, "kürəyi güllə yağışlı, içi rütubətdən ağarmış torpaq divarlı" səngərlərdə, blindajlarda azğın düşmənlə ağız-ağıza dayanmış Vətəni canından çox qoruyan igidlər.

***"İnsan doğulduğu torpağa bənzəyir. Rəfail Tağızadə Qarabağa oxşayır..."***
**(Adil Mirseyid).**

**"Söz - yuvadır, məna isə quş. Bədən çayın məcrası, yatağıdırsa, ruh - ondan axan çaydır", - deyirdi Mövlanə. Sözünün özü və məna tutumu tükənməsin, ruhun həmişə axar olsun, Rəfail Tağızadə, müdriklik yaşın mübarək!**

***Ayaz Arabaçı***



## *Yer altından iniltilər gəlirdi...*

***Yer altından iniltilər gəlirdi..***
***Dağılmışdı bir gecədə şəhərlər.***
***Qarışmışdı bir-birinə çarəsiz,***
***Göz yaşları, hönkürtülər, qəhərlər.***
***Bir yandan da lənət kimi ağır qış,***
***Hücumdaydı nəhayətsiz qəzəblə.***
***Dağıtmışdı şəhərləri İlahi,***
***Dağıtmışdı bir ədəbsiz ədəblə.***
***Bir gün qabaq isti yuva, isti ev,***
***İndi isə məzarıydı o damlar.***
***Torpaq hələ uğultudan əsirdi,***
***Ocaq çatıb yığışmışdı adamlar.***
***Bir-birinə qısılmışdı çiyinlər,***
***Bir-birinə qısılmışdı ürəklər.***
***Bu çarəsiz adamlara qoşulub,***
***Ağlayırdı küçələrdə küləklər.***
***Baxıb-baxıb ağladığım efirdən,***
***Bu mənzərə ürəyimi dəlirdi..***
***Gözlərimi yuman kimi yataqda,***
***Qulağıma iniltilər gəlirdi.***
***Ağlayırdı dənizlərdə gəmilər,***
***Ağlayırdı səmalarda uçaqlar.***
***köhnə sınıq bir darağın dişitək,***
***Yer altında yox olmuşdu uşaqlar..***
***Dağıtmışdı sarayları təməldən,***
***Qoymamışdı yaşlı ağac , cavan şiv.***
***Həzz alırdı bu tutduğu əməldən,***
***Həzz alırdı bədheybət bir qoca div.***
***Ağır idi itkilərin miqyası,***
***Fələkətdə min əl vardı min ayaq..***
***İştahası açılmışdı torpağın-***
***Eheyy, orda kim yatıbdı, kim oyaq.***

## *Əkmə, suvarma, daş daşıma, 1 milyard pul qazan*

**"Apple" pullu xidmətlərinin auditoriyasının 935 milyon nəfərə çatdığını açıqlayıb.**

Bu barədə "TechCrunch" məlumat yayıb.

Ödənişlər "iCloud", "Apple Music", "Apple TV+", "Apple Arcade", "Apple News+", "Apple Fitness+", "Apple One" və "Apple Pay" abunəçiləri tərəfindən həyata keçirilir. Ötən ilin maliyyə ilinin birinci rübündə 20,8 milyard dollar gəlir əldə edib. Bu, 2021-ci ilin eyni dövründə şirkət 19,5 milyard dollar qeydə aldığı üçün illik müqayisədə 6% artım deməkdir. "iPhone" istehsalçısı həmçinin "Business Essentials", "AppleCare", "Tap to Pay" və "Apple Financial Services" kimi müəssisə xidmətləri təqdim edir.

"Apple" həmçinin qeyd edib ki, il ərzində "App Store" abunəçilərinin artımı on faiz təşkil edib. Bulud və ödəniş xidmətləri abunələr arasında əsas gəlir mənbəyinə çevrilib. Şirkət hər bir xidmət növündən əldə etdiyi dəqiq gəliri açıqlamayıb.

**Emin**



*İbrahim Yusifoğlu*

## Dərdinə şərikdi, can Azərbaycan

**Dünya bələnibdi haraya, küyə,**
**Tanrı bəlasından yaman haldasan.**
**Namərdlər önündə, şanlı Türkiyə,**
**Sən daha qürurlu dayanmalısan.**

**Yenə el-obanın nəzəri səndə,**
**Qorxunc zəlzələdən qəm biçimdəsən.**
**Bu çətin anında, doğma Türkiyə,**
**Əzablı, kədərli, qəm içindəsən.**

**Bu da bir yazıdı, tale yazısı,**
**Gələndə sərt gəlir, bilinə bilmir.**
**Ağrısı ağırdı bir ömür boyu,**
**O ağrı ürəkdən silinə bilmir.**

**Uşaq gülüşünü, körpə səsini**
**Daşlar zədələyib, yox edə bilmir.**
**Onların düşdüyü darısqallığa,**
**Ölümün özü də heç \gedə bilmir.**

**Halını seyr etmək acıdan-acı,**
**Dəhşətli görünür qoynunda hər yan.**
**Gözlərin işığı, başların tacı,**
**Dərdinə şərikdi can Azərbaycan!**

**Səni belə dərdlər çətin ki, əyə,**
**Tanrı bəlasından yaxşı halısan.**
**Namərdlər önündə, Ana Türkiyə,**
**Sən daha qürurlu dayanmalısan!**

**08.02.2023**

## Brilliant Dadaşov: "Allahım, səni tanımayana lənət olsun"



**Xalq artisti Brilliant Dadaşova sosial şəbəkədə paylaşımı ilə diqqət çəkib.**

Adalet.az xəbər verir ki, Brilliant Dadaşova sosial şəbəkə hesabında Türkiyədə baş verən zəlzələ ilə bağlı paylaşım edib. Hadisə nəticəsində yaranan dağıntılardan görüntülər yayımlayan müğənni bunları əlavə edib:

"2 aylıq körpə dağıntılar altından sağ çıxarılıb. Bu dünya xeyirlə şərin mübarizəsidir. Allahın varlığına inanmayanlar bilsinlər ki, şükür etmək üçün heç vaxt gec deyil".

## Nigar Şabanova valideynlərinin fotosunu yayımladı



**Əməkdar artist Nigar Şabanova valideynlərinin fotosunu yayımlayıb.**

Adalet.az xəbər verir ki, xanəndə uzun müddət səhhətində problem olan anasının 3 ildən sonra ilk dəfə restorana getdiyini vurğulayıb:

"Allah hamının valideynini qorusun. Atam, anam, dünyamsınız. Anam 3 il sonra ilk dəfə restorana gəldi. Deyirdi, bu ayaqla sizə yük oluram. Valideynləri sağlamlıqdan əziyyət çəkən övladlara bu, stimul olsun. Mən nümunəyəm, bunu bacaracaqsınız. Mən illər sonra bacardım. Allah bütün xəstələrə şəfa versin. Mənim də anamın ayağı açılsın".

Qeyd edək ki, N.Şabanovanın anası 2021-ci ildə uzun müddət xəstə yatmış və komaya düşmüşdü.

## Kral III Çarlzın deşilmiş corabı



**Kral III Çarlz deşilmiş corabı ilə gündəmə gəlib.**

Adalet.az xəbər verir ki, o, həyat yoldaşı Kamilla ilə birgə Londonun şərqində yerləşən tarixi məscidi ziyarət edib.

Onlar müqəddəs məkana daxil olarkən ayaqqabılarını çıxarmalı olub. Bu vaxt Kralın sağ ayağındakı corabın yırtıq olduğu üzə çıxıb.

Həmin görüntü dünya mediasında ən çox paylaşılanlar arasında yer alıb.

## Elnarə Abdullayeva: "Gedən kişini heç kim saxlaya bilməz"



**Elnarə Abdullayeva açıqlaması ilə diqqət çəkib.**

Adalet.az xəbər verir ki, "Düzünə qalsa" verilişində Əməkdar artist Elnarə Abdullayeva maraqlı açıqlaması ilə yadda qalıb.

Sənətçi deyib ki, kişi xəyanət etsə də, qadın onunla mehriban davranmalıdır:

"Qadın nə etməlidir ki, kişi ona xəyanət etməsin? Qadın o qədər səmimi, mehriban olacaq ki! Kişi bir neçə dəfə getdi, gəzdi gəldi, evə gələndə qadın o qədər mehriban olacaq və kişi evə bağlanacaq. Dəfələrlə demişəm, gedən kişini heç kim saxlaya bilməz".

## Meyxanaçı qaydaları pozdu

**Tanınmış meyxanaçı Balaəli Maştağalı yol hərəkəti qaydalarını pozub.**

Adalet.az xəbər verir ki, meyxanaçı Balaəli idarə etdiyi avtomobili avtobusun hərəkət etdiyi yolda saxlayaraq, marşurtun gedişinə mane olub.

Meyxanaçı törtətdiyi əmələ görə qaydalara uyğun olaraq cərimələnib.

**Əntiqə**

# DAĞINTILAR İÇİNDƏ YAZILAN ROMAN



*Tahir TAİSOĞLU*

**Bağlar-bağatlar yurdu olan qədim Qubada hərdən-birdən, düşəndən-düşənə əsəbləşib soyuq-soyuq əsən Şahvar küləyini (Şahdağından əsən külək) görüb gələn bir cavan oğlan, Bakıda yayda belə əsəndə qışı gətirən Xəzrinin qabağında özünü itirmədi. Gəlib paytaxt şəhərində yerini tam isitməmiş, hələ kirayədə qalan Yusif, - əsərin qəhrəmanı, həyatında pozulmaz izlər qoyan bir uşaq baxçasının həyıt-bacasından çıxıb böyük, qaynar cəmiyyətə qovuşur. Elə buradan da ömürün-günün döngələrində həm xoş, həm də kədərli dağıntılarla üzləşir.**

Elə bil bu dağıntılar onu addım-addım izləyir, ov iti kimi gah arxasıycan, gah da qənşəriycən gəzirmiş. Bəri başdan onu da deyim ki, Yusif Həsənbəyin "Azərbaycan" jurnalının 2022 -ci il 10-cu sayında cap olunmuş "Dağıntılar altında" adlı romanını diqqətlə, həvəslə oxuyub başa çatdıran oxucu kimi obrazların əhvalını, qırımını, onların həndəvərində, yan-yörəsində baş verən olayları bir-bir antiteza edərək, belə qənaətə gəldim ki, müəllif əsəri dağıntılar altında yox, elə dağıntıların içində, bəlkə də elə üstündə özünə etibarlı yazı-pozu koması yaratmış, elə oradaca bu dəyərli roman ərsəyə gətirmişdir: "Şair dostumla Yazıçılar İttifaqından çıxıb yolun o biri tərəfinə keçhakeçdə qara "Volqa"səkiyə yaxınlaşdı və biz ayaq saxladıq. Maşının arxa qapısı ağır-ağır,can çəkə-çəkə açıldı. Bu da içəridəkinin ağırbatman, nüfuz, səbr sahibi olduğunu göstərirdi",- yazır müəllif. Fikir verisinizmi, maşının qapısının "can çəkə-çəkə açılmasının" təsvirində bir yenilik hiss olunur.

Məlumdur ki, dəmirdən, metaldan olan maşın qapısının canı, qanı, nəfəsi yoxdu, amma nasirin bədii inersiyasının gücü ilə təsvir edilən - maşından düşən bir insanın, xalq yazıçısı Mirzə İbrahimovun - gələcək günlərdən boylanan boylu-buxunu, qaməti bir kişinin... sinəsindəki deputat nişanı, döş cibindəki qələminin sancağının zoğalı rəngi göz qamaşdırırdı,- yazır müəllif. Qələm yoldaşlarına şirin-çirin baxanda dodaqları səyriyən, "daim təbəssümlü" cöhrəsi təzədən nurlanan Mirzə müəllim, Yusifə: -" Səni yaxşı tanıyıram! Axırıncı plenumda Rəsul Rza poeziyamizda yeni görüm, yeni duyum, yeni ifadə məsələlərindən danışanda sənin də şeirlərindən nümunələr gətirdi, bəzilərini də oxudu."- deyir. O şeirlərin yazılmasınıa səbəb belə bir hadisə baş vermişdi, - deyə müəllif etiraf edir. Özü də bu etirafın içində ən çox diqqət çəkən, oxucunu isindirən, bir az da həyacanlandıran, o vaxtkı Sovetlər Birliyinin çox möhtəşəm paytaxtı olan Moskva şəhərinin ətrafındakı məhşur Peredelkino adlı yaradıcılıq evində başa verən bir hadisədir. Hadisə dedim,- elə bilməyin ki, Yusif Həsənbəy də bəzi nasirlər ki, oxucu divitenti qazanmaq üçün hadisəçiliyə tez-tez baş vurur, onun aludəçisi olur, əsərin cövhərini həmin "vurçatdasın"dan çıxardır. Yox. Amma təəssüf ki, belələri hələ də var,- elə bilirlər ki, əsərdə bilərəkdən kriminallıq, olaylar, çəkişmələr silsiləsi yaratsalar, bu böyük maraq doğurar, kitabı əl-əl gəzər.

Tanınmış, ustad yazıçı Yusif Həsənbəyin əlimdə oxuduğum romanında "üzləşdiyim" adamların, mənə canlı sözlü-nəfəsli təsirlər bağışlayan obrazların işi-gücü, yerli-yersiz əməlləri bir daha göstərdi ki, əsər həyatın qaynaqlarından, dövrün, zamanın mayasından güc almışdır. Həm də onların çoxunu tanıyırdım, əsəri oxuduqca bəzilərinin kimliyinə bir daha dərindən bələd oldum. Ona görə də romana daha yaxından baş vurduqca içim həzin duyğularla dolur, bir az qəmlənir, bir az sevinir, sonra da qəlbən hansısa uzaq, ağrılı xatirələr rənglərinə qovuşurdum: - "Boynu armud sapı (əslində saplağı-T.T) kimi nazik, başı Şirvan yemişi kimi uzun cavan oğlandan bir teleqram nüsxəsi götürüb, salamsız-kəlamsız mətləbə keçən" roman qəhrəmanı ona mənzil verməyən bir vəzifəli yoldaşa cəsarətlə görün nə yazır: "-Nəşriyyatlar ancaq sizləri çap edir. Gənc yazarlar iş tapmırlar. Ancaq xalq yazıçılarının küt övladlarını vəzifəyə qoyursunuz. Özünüzü ələ alın. İttifaqımız gözdən düşməsin" Sonra da yazdığına peşiman olan Yusif üzr istəmək üçün həmin adamın qəbuna gedir. Amma böyük yazıçı onun salamını belə almır üzünü kənarə çevirir. Xəstə anası ilə kirayədə qalan həmin yazıçıya bir müddət keçəndən sonra qeyrətli bir xalq şairinin tanınmış oğlu "gir yaşa",- hazır, üç otaqlı mənzilin açarlarını bağışlayır.

Əslində hər şey baş verənlərə yazıçının necə yanaşmasından, hansı ovqatla baxıb görməsindən, nə cürə qələmlə təsvir etməsindən asılıdır. Burada xam dəmiri əridib, ondan hansısa aləti düzəltmək məsələsi çıxır ortalığa,-yəni istəsən xəncər hazırla, qan tök, bacarsan oraq düzəlt, taxıl biç. Əsərin başqa bir fəslində Perelelkino adlanan bir yaradıcılıq evində qadın mərkinə, felinə düşən roman qəhrəmanı boynunda-boğazında, sinəsində cilvələnən qaş-daşları sevincindən alışıb-yanan, həm də sola-sağa cərənçilik edən bir qadına "ilişir":" -Vot eto mujcina"-deyə ilk baxışdan ona söz atıb girişən,- "moya imya Seda, ya armyanka "- deyən erməni əyrimçəsi cəmdəkyeyən quş kimi elə ilk dədiqələrdən fərqli hermenevtik yanaşma ilə "ovunu" ram edə bilir! Ürəyində yüngül, isti bir dağıntı duyan boylu-buxunlu, geyimli-kecimli azərbaycanlı türkü bu anlarda elə bil qeybdən səs eşidir:" -Nə qədər ki, at belinə çıxmayıb bu dağıntı, qayıt bu yoldan!" Amma tarixən həmişə elə-belə olub,-şirindilli gözəgəlimli qadınlar, özü də xalqımıza yad, tamahkar buqələmunlar bizi elə-beləcə kəməndə sala bilibblər. Romanda acgöz, tamahlandırıcı baxışları olan erməni qadını Sedanın erməni xalqına məxsus obrazı reallıq mütəvisində və ustalıqla qələmə alınıb. Moskvada, sovet yazıçılarının yaradıcılıq evində, Cənubi Qafqazdan nisbətən uzaq bir məkanda, üzünü ilk dəfə gördüyü, hələ adını belə tamamkamal bilmədiyi bir azərbaycanlı oğlunu "əsl centilimensən",-deyə qoluna girib onu Moskva şəhərinin mərkəzinə - ən bahalı Yelisevski univermağına aparır. "Süzmə gözləri",,xumar baxışları","yeməli xurma dodaqlarıyla" onu şəhvətlə şirnikləşdirə bilir. Həmin məşhur univermağın da zinyət daş-qaş şöbələri qızgın pələng kimi ağzını açıb minlərlə, on minlərlə pulları bir andaca udmağa hazır dayanmışdı. Kişi soymaqda, onu kəməndə salıb cibinin olub -qalanını sovurmaqda mahir olan bu erməni qancığı bir dəst çox bahalı briliyant üçlüyünü secib bükdürür. Əlini çantasına atıb guya ki pulunu vermək istəyəndə... birdən:"-Ay aman pul kisəm yaddan çıxıb evdə qalıb," -deyə şivən qoparır. Üzünü yanına salıb gətirdiyi "centilemenə" tutur:"- Mənə indi borc verin, malın haqqını ödəyim, orada sizə qaytararam." Abır-həyasından çəkinən, milli qürurunu həmişə hər şeydən üstün tutan azərbaycanlı kişisi bahalı, brilialt dəstinin pulunu ödəyir. Bakıdan gələndə gətirdiyi pulun beşdən dördünü univermaqda qoyan kişiyə bu azmış kimi, peşəkar, hiyləli erməni qadını ikinci həmləsini də yolda edir. Taksini Mərkəzi Ədiblər Evinə tərəf sürdürür. Oradakı restoranda qəhvə, xarici konyak və başqa cərəzlər də sifariş edir.Yeyib içib çıxarkən bir şampan şərabı və "Moskva" tortunun da pulunu yol yoldaşına "tərlədib" yola düşürlər. Taksi onları çatdırır Moskva şəhərindən 30 kilometr uzaqda yerləşən Peredelkinodakı Yaradıcılıq Evinə. O boyda Moskvada çox çüzi pulla tək-tənha qalan qərib bir yazıçının sonrakı ömrü - güni necə olacaq, o Bakıya necə gedib çıxacaq?! Bu barədə düşünərkən adamın yadına lap qışqabağı dumanda-çəndə üstündə cəmisi iki- üc dənə xəzəl yarpağı qalan çinar ağacı düşür. Soyuqda-sazaqda , qəriblikdə üşüyən tənha çinar ağacı...Hələ bu harasıdır! Romanın qəhrəmanı qadının otağına daxil olub ayın-oyunla dolu çantanı dolabın böyrünə söykəyir. Bu dəmdə stolun aşıq siyirtməsində qadının pul kisəsini görür, gözlərinə işıq, ürəyinə toxtaqlıq gəlir. Xəyalında birdən- birə bir fikir dolanır: "-Aldığım şeyləri hədiyyə edəcəyəm, qoy sevinsin! Pul əl çirkidir. Amma ürək sevindirmək, küskün ruhu qalandırmaq fürsəti bir də nə vaxt çöxacaq uğurumu?!"- deyə özü də bilmədən konukturaya uyaraq bir anlıq fikrə dalır. Görünür erməni gözəlcəsi Sedanın göz qamaşdıran ənnik-kirşanlı, vülqar cazibəsi dostumuzu şəhvətli sellərin qabağına qatıb aparıbmış...Şampan şüçəsini "partdadırlar".

Gənc yazıçı əlini Sedanın ciyninə qoyaraq təklif edir ki, gəlin üz-üzə dayanaraq, Brudezstalla içək. Düşünür ki, buna görə Seda onu bayaqkı kimi yenə də "aristokrat","centlemen" kimi qəbul edəcək. Amma...ay hay!! Ey qəlbitəmiz, sadəlövh azərbaycanlı kişisi! Geyim-kecimi, kofe- konyak içməyi, müxtəlif çərəzləri səliqəli yeməyi ilə avropalıları yamsılayan bu əyrimçə Seda, urrasional bir tərzdə birdən onun üstünə bozarır: "-Podless! Ya uliçnaya?! Məni kimə oxşadırsan,- rədd ol burdan!" -deyə onu otağından qovur. Erməni ləçərinin hiyləgər pozğunluğu, bərarətsiz sərvət şəhvəti,- bir zənçirin vəsilələri kimi əsərin qəhrəmanın gözləri önündən keçir. Birdən-birə fərqli və hiləgər hermenevtik yanaşma o andaca üzə çıxır! Gəng azərbaycan yazarının olub-qalan bütün pulunun axırına çıxıb dibinə daş atan Seda "-Siz məni zorlamaq istəyirsiniz, siz xuliqansınız, milis çağıraram", - deyib onu təhdid edir ki,bayaq univermaqda aldığı borcu geri qaytarmasın. Bu da qabaqdangəlmişliyin sərfəli, mərkli bir üsulu. Bax buna deyərlər əsl dağıntı. Sonralar Qarabağ hadisələrinin fonunda dabbağxanada gönünə bələd olduğumuz bu ermənilərin mal-mülk, torpaq hərisliyində sıralı acgözlüklərinin bir daha şahidi olduq. Romanda təsvir olunun bu hadisə əslində bizə çox şeylərin xəbərdarlıqlarını edirmiş... Torpaqlarımız, qurulu, abad şəhərlərimiz, kəndlərimiz, dirriklərimiz xəyanətlarin girdabında uzun müddət dağıntılar altında qaldı. Qarabağın təbiəti sərvətləri dağıdıldı, məhv edildi. Əsərin ümumi ruhunda ictimai- siyasi fəlsəfəsində gələcək günlərimizə bir xəbərdarlıq işarəsi vardı. Ustad yazıçı tamahkar Sedanın timsalında elə bu mətləblərə toxunur, bədii ədəbiyyatın gələcəyi görən poetikası ilə bizi ayıq, ehtiyatlı olmağa çağırırdı. Elə belə də oldu. Nağıllarımızdan çıxıb gələn Dəmir Yumruqlu bir qəhrəman, ədəbiyyatımızın ilhamlı hamisi , xalqımızın Müzəffər, Qalib Ali Baş Komandanı İlham Əliyev dağıntılar altında qalan böyük bir məmləkəti xilas etdi.

Əməkdar incəsənət xadimi Yusif Həsənbəyin " Dağıntılar altında "adlı romanında Azərbaycanın bir necə adlı-sanlı, tanınmış yaradıcı aydınlarının rəngbərəg, dolğun, yaddaqalan bədii obrazları da canlandırılmışdır. Ədəbi aləmin həm möhkəm, həm də sürügən dolanbaclarında baş verən hadisələrin isti qələmlə təsviri artıq əbədiyyət dünyasında öz isti, rahat yuvalarında mürgüləyən ustad yazıçılarımızın ətrafında dövr eləyən duzlu- məzəli, məzmunlu, mənalı söz-söhbətləri, uzaq mənzilli karvanların zınqrovlarının əks-sədası kimi susmaq, kirimək bilmir...Əsərdə böyük şairimiz, həmişə yeni, hər zaman canlı, təravətli poeziyası ilə bizimlə üz-üzə, göz-gözə, nəfəs-nəfəsə olan Rəsul Rza ilə bağlı yerlər kövrək və göynəkli təəsurat doğurur: "-Yaradıcılıq Evində nəyə qarışıqdı başın?- sual verən Rəsul Rza,- bu arada-bərədə görmürəm səni heç"- deyir. Elə bil Yusifin başına gələn həngamədən xəbərdar kimi,- əlinin arxasıyca masasının üstündəki kağızları kənara itələyib,-" Səni o xiyabanda görmürəm, haralardasan bəs?"- əsl ata, ağsaqqal qayğısı ilə gənc şairə irad tutur. Həmişə, hər yerdə istedadlı, arxasız gənc yazarların həyatından, taleyindən nigaran qalan, onlardan daim xəbər tutmaq istəyən dahi şairimiz Rəsul Rza vətəndən uzaqlarda da, istirahat zamanlarında belə əhdinə xilaf çıxmır, Yusifə "Şairlər mayalarını qorumalıdırlar, yəni etiraslarını yazmağa sərf eləməlidirlər"- deyir. Peredelkinodakı Yaradıcılıq Evinnin geniş həyətində uca-uca ağacların, meşə kimi sıxlığında payız cağı yağış kimi yağan xəzəllərlə şeirli sözlərlə poetik misraların bəhsə girib ucuşduğu alliterasiyalı bir məkanda oxunan şeirə:

***Susamışam, mənə su verin içim!***
***Dənizləri, kəhrizləri***
***Başıma çevirim içim.***
***...Yadıma gəlmirdi bir saat qabaq***
***Nə çay, nə bulaq, nə kəhriz!***
***Ancaq dara düşəndə***
***Xilaskarı düşünürük biz!-***

**Rəsul müəllim:** "-Obrazlıdır, bədiidir, hər nədirsə təzə şeirdi. Bəs sən bu cağa kimi harda itib-batmısan?"- deyir. Rəsul müəllim haqlı idi, doğurdan da şairlər çox vaxt Seda kimi buqələmunların əvvəlcə göz qamaşdıran, zərli sonra isə adamın nəfəsini kəsən sirli, müəmmalı torlarının içində ilişib qalırlar...oradan çıxmaq üçün dartınıb çapalayanda isə...artıq gec olur. Rəsul Rzanın xoş sözlərindən xoşhal olub qanadlanan Yusif ürəyində: "-Ömrü boyu darlıq dağıntıları ilə üz-üzə gəlib Rəsul müəllim, ancaq heç vaxt, heç zaman heç kimin qabağından qaçmayıb, dağıntıları qamçılayıb"- fikri, düşüncəsi ilə dəhliz boyu sevindiyindən uca-uca gedir...Romanda Əli Vəliyev,Mehdi Hüseyn,İsa Hüseynov,Böyükağa Qasımzadə,Salam Qədirzadə, Əli Kərim kimi adlı-sanlı qələm sahiblərinin işıqlı xatirəsi ehtiramla xatırlanır.Əsərdə bir yazıçının ömür heybəsinin bir tayı ədəbiyyat yükü ilə dolub boşalırsa,, o bir tayı isə partiya, komsomol, istehsalat dövrü ilə yüklənir. Sovetlər zamanındakı kommunist partiyası katibinin obrazını özünə məxsus bədii, ifşa edici cizgilərlə görün necə yaradır : "-Sağ tərəfində "katib Zaur Məmmədli" yazılmış lövhəni görüb qapıya yaxınlaşdım: -Kimdi? Gəlsin görək!- dedi- qalın amiranə səslə katib Məmmədli. İçəri keçdim. Məni görcək kabinetinin yuxarı başında kreslosuna yayxanıb oturan boynu, qulaqları da qıvrım saçlarının içində itib-batmış cavan oğlan kimi yerindən qalxdı. Katib Məmmədlinin uzun, lülə burunlu, əyri çaxmaq çənəli sifəti hardasa "Naqan" tapancasını xatırladırdı." Yusif müəllim naqan sözünü burada təsadüfən işlətməyib,- sovet dövrünün partiya katiblərinin çoxusunun həqiqətən də acığı, kini tabeliklərində olan işçilərin, qəbula gələn vətəndaşların üstünə tuşlanan naqan lüləsi kimiydi. Birdən elə bil oxucunun təsəvvüründə həmin "naqan"ın atəşləri səslənir.Yazıçının yaratdığı katib obrazının zahiri görnüşü ilə onun iç aləmini,- xəbisliyinini, lovğalığınını "bounun və çiyinlərinin göynəkdən çıxan şişman əzələlərinini" sanki bir rəssam fırçası ilə yaradaraq onun qarınqululuğunu, havaylyeyənliyini acıb göstərir. Özü də bütün bunlar əsərdə təsvir olunun sovet rəhbəri Stalinin bədənboyu, zəhimli rəngli portretinin fonunda əks-səda verir. Həm də "acıq pəncərədən içəri doluşan ( özü də dolan yox ha, məhz doluşan,- yada səsli-küylü bahar quşları düşür! T.T.) narın mehlər portretə sarmaşan bayraqları titrədir, sacaqlardan havalanan zər dənəçikləri katib Məmmədlini də işığa, nura qərq edirdi." Burada təsvir olunun həmin bu ictimai-siyasi, fəlsəfi, ekzusteral konteks istedadlı, zəhmətkeş yazıçının uğurlu tapıntısıdır, desəm, yanılmaram. Yazıçı Stalinin portretinin o zaman bütün SSSRİ-ni bəzəyən işığının şəfəqlərindən güc alıb gələn şüasından katib Məmməlinin də payına bir əlçim salır!

Xəstə anası ilə kirayədə qalan cavan, subay oğlan bir gün evə gələndə otaqda televizor görüb təəccüblənir:

"-Bu nə dəm-dəzgahdı, ay ana? Evimizizdə televizor görürəm."

-Hə...onu... Allah saxlasın ağbaxt olsun...Ya rəb!!

- Kimi alqışlayırasan? Kimdi bizə gələn?

-Gözəl-göycək, mərifətli bir həkimdi. Adı Məlahətdi. Girdi içəri dedi ay xala, birinci mərtəbədə oluram. Nə vaxtdı ki, həyət-bacada oğlunuzu görürəm"

Hədiyyə xəbər verir ki, artıq həmin oğlun subaylıq daşını atmaq məqamı çatıb. Ondan xəbərsiz sən demə, həkim-qız onu izləyirmiş. Onun"başıaşağı,heç kəslə işi olmayan, tez-tez televizorda şeir oxumasını" görən bu həkim qonşu qızın ürəyində yaşlı anaya şəfqəti, onun oğluna isə gizli sevgisi varmış.Özü də elə bir qız ki, atasını erkən, uşaqlıq çağlarında itirmiş, anası başqa kişiyə ərə gedərək, xarici ölkələrdən birinə köç eləmişdir.

**Məlahət həkim isə balaca anasına olan eşqini böyük anası- Azərbaycanın sevgisi ilə dəyişməmiş,- "Öz Vətənimə nə gəlib! Onun bircə qarışını da bütöv Amerikaya dəyişmərəm",- demişdir. Əsərin qəhrəmanı da həkim qızın məhz böyük vətən sevgisindən xəbərdar olduğu üçün ona olan məhəbbəti birə- min artmışdır.Amma müəllifin " yancağımı xəmir kimi yoğurub, iynəni "bismillahur-rəhmanir-rəhim"deyib əzələmə vurdu" cümləsində "yancağımı xəmir kimi yoğurub" bənzətməsi ilə heç cürə barışmaq olmaz. Müqəddəs xəmiri yancağa bənzətmək günahdır. Yeri gəlmişkən, çaydan ola-ola "çaynik", dolab ola-ola "şkaf", kətil ola-ola "taburetka" görüncəklər sözü varkən "vitrinlər", oturacaq olan yerdə "skameyka", tıxac sözü olan yerdə "propka" kimi ədəbi dilimizə yad sözlər gərək işlədilməyəydi. Özü bir var ki, obraz deyə bu sözləri, bir də var müəllif... Sevindirici haldır ki, əsərdə kifayət qədər təzə, poetik ifadələr, yeni təşbehlər hələ indiyə kimi az adama məlum olan xalq deyimləri, el -arası yayılmış məsəllər də özünə yer almışdır: "Mirzə müəllimin peyğəmbərliyi Qabili ala bulyda qaldırmışdı", (səh.60) "Mən sağan başı deyiləm burda", (səh.63)"Yamac döşündəki quzuların boyunbağı düzümü", (səh.66) "O, təkcə düşüncəsi ilə deyil, gözləri ilə də qulaq asırdı", (səh.74.), "Quşun yuvası olar, qarışqanın oyuğu", (səh.75.)" Kəsək oturub daşın halına ağlayır" (səh.85.) kimi poetik ifadələri müəllif uğurlu improvizasiyaları ilə,həm də diqqət çəkən isti rənglər silsiləsi sayəsində yaratmışdır. Ona görə də roman öz gələnəyinə görə maraqla və birnəfəsə oxunur.**

# 150 söz başa düşən, 5-ə qədər sayan heyvan

**Vəfalı dostlarımız olan itlərin bilmədiyimiz xüsusiyyətləri var. Heç bilirdinizmi ki, itlər 5-ə qədər saya bilirlər?**

1. İtlər yalnız pəncələrindən tərləyirlər.
2. İtlərin iybilmə qabiliyyəti biz insanlardan100.000 dəfə güclüdür.
3. Əslində itlərin 3 göz qapağı vardır. Bir çoxları bunun fərqinə varmasa da, diqqətlə gözlərinə baxsaz, 3 göz qapağının olduğunu görə bilərsiniz.
4. İtlərin burunları insan barmaq izləri kimi unikaldır.Yəni ki, hər itin burun izi fərqlidir və bənzərsizdir.
5. İtinizlə danışmaq və onu sığallamaq qan təzyiqinizi aşağı salacaq.
6. İtlər 2 yaşlı bir uşağın zəkasına sahibdirlər. Belə ki, onlar 150-dən çox sözü başa düşə və 5-ə qədər saya bilirlər.
7. Üzünüzə baxıb hisslərinizi anlaya bilərlər. İtlər insanlar kimi üzə baxaraq nə hiss etdiyiniz bilən yeganə heyvanlardan biridir. Bəlkə də məhz bu qabiliyyəti sayəsində bizim ən yaxşı dostumuzdur.



8. İtlər də insanlar kimisevdikləri üçün darıxırlar.
9. Köpəyinizə öz qoxunuzu ehtiva edən paltar versəniz,ona güvən duyarsınız.
10. Yağış yağdıqda narahat olurlar.Yağışın səsi itlərin qulaqlarını narahat edir. Bu baxımdan küçədə yağış altında islanan bir it görüb onu quru bir yerə apararaq itə böyük bir yaxşılıq etmiş olarsız.
11. Dalmatin itləriağ rəngdədoğulurlar. Bu cins itlər böyüdükcə qara ləkələri genişlənir.
12. Bəzi it cinslərinindilləri qaradır.Məsələn, Chow chow və Shar Pei itlərinin qara dilləri var. Ancaq mütəxəssislər bu it cinslərinin niyə qara dillərə sahib olduğunu hələ bilmirlər.
13. İtlərin qulaqlarında ən azı18 əzələ var.İnsanlarda bu rəqəm 6-dır.
14. İtlər də insanlar kimi depressiyaya düşə bilər.Gəlin ən vəfalı dostumuzu incitməyək.
15. İtlər də insanlar kimi aşiq olurlar.Eşq adlı şirin bəla bu heyvanlardan da yan keçməyib.

**Emin**



*Əyyub Şırlanlı, şair-publisist, AYB-nin üzvü, "Məclisi-Üns"-"Söz-Gülüstanı" Ədəbi Birliyinin rəhbəri, Əməkdar müəllim*

## SƏNDƏN XAHİŞİM VAR, AY ŞƏHƏR SALAN!...

**Səndən xahişim var, ay şəhər salan,**
**Toxunma ruhuna köhnə Şuşanın!**
**Şuşa-Qarabağın daş yaddaşıdır,**
**Şuşa-Qarabağın zümrüd qaşıdır.**
**Şuşa-Vətənidir türksoy babamın,**
**Cənnətməkanıdır Azərbaycanın!**
**Təzə şəhərlərə oxşatma onu!...**
**Şuşa - Qarabağın tac şəhəridir,**
**Şuşa-yerdə cənnət, göydə pəridir.**
**Şuşadan söz açmaq hər gün yeridir...**
**Şuşadan yazılıb yüzlərlə əsər,**
**Diqqət et, gör burda nələr var, nələr?!**
**Bu şəhər - şəhərlər şahənşahıdır,**
**Bu şəhər - Günəşlə, Ayla qoşadır...**
**Bu şəhər - dünyanı heyrətə salıb,**
**Adı - Pənahabad, adı - Şuşadır!**
**Dahilər ruhu var hər bir daşında,**
**Bunları gəl saxla sən yaddaşında!..**
**Təzə şəhərlərə oxşatma onu!...**
**Orda Pənah xanın əl izləri var,**
**Orda səyyahların yol izləri var,**
**Orda anaların cehizləri var,**
**Şuşanın bənzərsiz gündüzləri var...**
**Orda Pənah oğlu İbrahim xanın,**
**Şuşa bəylərinin sarayları var.**
**Orda Şuşa üçün canından keçmiş,**
**Şəhidin, qazinin harayları var!**
**Orda Kərbəlayı Şəfixan bəyin,**
**Daşlara həkk olmuş naxışları var.**
**Şuşa gözəlinin-Gövhər ağanın,**
**Qoşa minarədə baxışları var!**
**Ordan qanad açıb min-bir arzular,**
**Orda Natəvanın "Məclisi-Üns" ü var.**
**Böyük kitabədir qayası,daşı,**
**Qoyma əl uzatsın Şuşaya naşı...**
**Təzə şəhərlərə oxşatma onu!...**
**Unutma tarixdən gələn yaddaşı,**
**Qaytar qoy yerinə hər sınıq daşı.**
**Tullama kənara bir çınqılın da,**
**Tullama ocağa qamqalağın da...**
**İnsanı mat qoyur dağı, dərəsi,**
**Heyrət dünyasıdır hər mənzərəsi.**
**Başqa bir aləmdir suyu, havası,**
**Dərdlərə dərmandır çiçək dünyası...**
**Bu şəhər-yenilməz bir Komandanın,**
**"Dəmir yumruğ" unun təntənəsidir!**
**Bu şəhər-Şəhidin, həm də Qazinin,**
**Bizə gəlib çatan şah əsəridir!**
**Yuxumda mələklər dedi bu sözü:**
**"Qibləyə qoy baxsın Şuşanın üzü!"**
**Diz çöküb öpmüşəm şəhidin qanın,**
**Toxunma ruhuna köhnə Şuşanın!**
**Şuşa-Vətənidir türksoy babamın.**
**Şuşa-Paytaxtıdır Azərbaycanın!!!**
**Səndən xahişim var, ay şəhər salan,**
**Təzə şəhərlərə oxşatma onu!...**

***Qeyd: Paytaxt-Mədəniyyət Paytaxtı kimi nəzərdə tutulmuşdur.***

**2021-ci il**

**"AZTİKİNTİ " ASC-nin səhmdarlarının növbəti ümumi yığıncağı 17 mart 2023-cü il tarixə saat 09.00-da Bakı şəhəri, Xətai rayonu, 8 noyabr prospekti 25 E (Bakı Ağ Şəhər ofis binası, Regus iclas zalı) ünvanında keçiriləcəkdir.**

**Ümumi yığıncağın gündəliyi: 1. Cəmiyyətin İdarə heyətinin üzvlərinin və sədrinin təyin edilməsi. 2. Ümumi yığıncağın illik hesabat və balansın təsdiq edilməsi. 3. Divident verilib-verilməməsi məsələlərinin müzakirə edilməsi. 4. Cəmiyyətin hüquqi ünvanının dəyişilməsi, nizamnaməyə dəyişikliklər edilməsi və yeni redaksiyada təsdiq edilməsi. 5. Dəyişikliklərlə əlaqədar sənədlərin hazırlanması, imzalanması və bütün bu işlərin həyata keçirilməsi üçün səlahiyyətli şəxslərin təyin edilməsi. Səhmdarlar ümumi yığıncaqda şəxsən və ya notarial qaydada təsdiq olunmuş etibarnamə əsasında nümayəndə vasitəsilə iştirak edə bilərlər. Səhmdarların ümumi yığıncağında iştirak etdiyiniz halda şəxsiyyətinizi təsdiq edən sənədi gətirməyiniz mütləqdir.**

**Hörmətlə,**
**İdarə heyətinin sədri Samir Həsənov**

Səfərəliyev Coşğun Səfərəli oğluna məxsus ban nömrəsi XTA 200 O 630D00845769, şassi nömrəsi 21030587650 olan 10 GU095 dövlət nömrə nişanlı minik avtomobilinin AB177160 №- li texniki pasportu itdiyi üçün etibarsız sayılır.

***

Ələkbərov Raci Əlikram oğlunun adına verilmiş Kiçikhəcmli gəmilərin idarə edilməsi üçün AA 00242 nömrəli sürücülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

Pənahova Xuraman Ağa qızının adına Binəqədi qəsəbə bələdiyyəsi tərəfindən verilmiş torpaq Qərarı itdiyi üçün etibarsız sayılır.

Aqil Abbas şair publisist
**Mahmud Qacarın**
vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına dərin hüznlə baş sağlığı verir.

Aslan Mehdiyev və Nəbi Muxtarov şair publisist
**Mahmud Qacarın**
vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına dərin hüznlə baş sağlığı verirlər.

Faiq Qismətoğlu ailə üzvləri ilə birlikdə yaxın dostu, şair -publisist
**Mahmud Qacarın**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə baş sağlığı verirlər.

Oqtay Əliyev, Mais Kazımov, Elman Məmmədov, Əflatun Muxtarov, Süleyman Qaradağlı, Əlövsət Quliyev, Eldəniz Məstəliyev, Fəxrəddin Qarabağlı və Əbülfət Mədətoğlu şair publisist
**Mahmud Qacarın**
vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına dərin hüznlə baş sağlığı verirlər.

Seyran Səxavət, Nemət Veysəlli, Vaqif Bəhmənli, Umud Rəhimoğlu və Mübariz Piriyev şair publisist
**Mahmud Qacarın**
vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına dərin hüznlə baş sağlığı verirlər.

Təsisçi və baş məsləhətçi:
**Aqil ABBAS**

Baş redaktor:
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 117**
Çapa imzalanmışdır: 10.02.2023